Xalqın qəzeti!

# Xalq qəzeti

№ 210 (30326) 28 sentyabr 2023-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqaze ti.az

**Günün sözü**

**Prezident İlham Əliyev:**

**İkinci Qarabağ müharibəsindəki Qələbə bizim tarixi uğurumuzdur, tarixi Zəfərimizdir. Bu, qəhrəmanlıq dastanıdır. Bu, misli görünməmiş qəhrəmanlıqdır. İkinci Qarabağ müharibəsi bütün dünyaya Azərbaycan xalqının əyilməz ruhunu göstərdi.**

# 27 Sentyabr 2020-ci il – tarixə yazıldı qızıl bir xətlə



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda inşası davam etdirilən Zəfər parkında olublar

**Sentyabrın 27-də - Anım Günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda inşası davam etdirilən Zəfər parkında olublar.**

Dövlətimizin başçısı və birinci xanım parkın girişində xatirə daşının önünə gül dəstələri qoydular.

Qeyd edək ki, Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı Sərəncamda Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması və ictimaiyyətə nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin yaradılması tapşırılmışdı. Ötən müddətdə Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin layihəsi hazırlanıb.

*(ardı 2-ci səhifədə)*

# Avropa İttifaqı Azərbaycan – Ermənistan sülh vasitəçiliyi yolunda

## Bakının haqlı mövqeyi qəbul edilir

**Dünən başlanmasının üç ilini Anım Günü kimi qeyd etdiyimiz 44 günlük Vətən müharibəsi yalnız Cənubi Qafqaz regionu ilə bağlı deyil, bütövlükdə Yaxın və Orta Şərq coğrafiyası üçün yeni reallıqlar formalaşdırdı. Qətiyyətlə və fəxrlə demək olar ki, bu reallıqların müəllifi Azərbaycan Respublikası və dövlətimizin başçısı cənab İlham Əliyevdir.**

Əlbəttə, müharibədən ötən müddətdə biz bir xalq olaraq yeni durumun daha geniş anlamda dərki naminə mübarizə apardıq. Bu yolda Ermənistanın, ermənipərəst dairələrin müxtəlif siyasi kombinasiyalı oyunları ilə qarşılaşdıq. Ancaq mübarizəmizə ara vermədik, ardıcıllığımızı qoruduq, prinsipial xəttimizə sadiq qaldıq. Harada diplomatik vasitələrdən, nə zaman gücdən istifadənin optimallığını düşünərək düzgün, ölçülü-biçili tədbirlər gördük. Sentyabrın 19-da başlanmış və cəmi 23 saat 43 dəqiqə davam etmiş lokal antiterror tədbirləri də bu müstəvidə



verilmiş ən doğru qərar idi. Elə bir qərar ki, otuz ildən sonra ölkəmizə suverenliyimizin bərpası xoşbəxtliyini yaşatdı.

*(ardı 4-cü səhifədə)*

## Mehriban Əliyeva: Vətən uğrunda həlak olmuş qəhrəmanlarımızın əziz xatirəsi qəlbimizdə daim yaşayacaqdır!

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında 27 Sentyabr - Anım Günü ilə əlaqədar paylaşım edib.**

**Paylaşımda deyilir:**

"Vətən uğrunda həlak olmuş qəhrəmanlarımızın əziz xatirəsi qəlbimizdə daim yaşayacaqdır!

Allah bütün şəhidlərimizə rəhmət eləsin!".




# "Müşahidə missiyası" yox, sadəcə, "bölgəyə səfər"



**Azərbaycan istər BMT-nin rezident-əlaqələndirici ofisi, istərsə də beynəlxalq müşahidə missiyalarının Qarabağa səfərlərini təşkil etməyə hazır olduğunu bildirib. Əgər onlar lokal antiterror tədbirlərindən sonra Azərbaycanın Qarabağ iqtisadi rayonunda mövcud vəziyyətlə, burada yaşayan erməni əsilli sakinlərin sosial şəraiti ilə yerində əyani şəkildə tanış olmaq istəyirlərsə, buyurub gəlsinlər.**

Gəlsinlər, görsünlər və əmin olsunlar ki, Azərbaycan hökuməti dəfələrlə bəyan etdiyi kimi, suveren ərazisində yaşayan erməni sakinlərin, respublikamızın digər azsaylı xalqları kimi, konstitusion hüquqlarını təmin etməyə, onlara normal sosial-iqtisadi şərait yaratmağa başlayıb. İndi əminliklə söyləyə bilərik ki, verdiyi vədə əməl edən rəsmi Bakının bunu necə həyata keçirdiyini müşahidə edəcək avropalı və amerikalı emissarlar hayların qaldırdıqları hay-küyün, vay-şivənin dezinformasiyadan, beynəlxalq ictimaiyyətə sırımağa çalışdıqları feyk xəbərlərdən başqa bir şey olmadığını görəcəklər.

*(ardı 5-ci səhifədə)*

# BMT-nin ali komissarı reallıqları niyə görmür?

**Birləşmiş Millətlər Təşkilatının İnsan hüquqları üzrə ali komissarı Folker Türk bölgədəki mövcud vəziyyət və etnik azlıqların hüquqlarının qorunması öhdəliyi barədə fikirlər bildirib. Ali komissarın ofisinin yaydığı məlumata görə, F.Türk deyib: "Mən inkişaf edən və kövrək humanitar vəziyyəti narahatlıqla izləyirəm.**



Yerdəki etnik erməni əhalinin hüquqlarının qorunması və bütün hərəkətlərin beynəlxalq hüquq normalarına əsaslanması vacibdir. Bütün mülki şəxslərin müdafiəsi mütləq prioritet olmalıdır. Təsirə məruz qalanlara humanitar yardıma çıxışı olmalıdır".

*(ardı 5-ci səhifədə)*

# Türk Dövlətləri Təşkilatı – dostluq və qardaşlıq qərargahı

**Türk Dövlətləri Təşkilatının (TDT) 2009-cu ildə Naxçıvanda keçirilən Zirvə görüşündən indiyədək qurum səmərəli inkişaf yolu keçib.**



Ötən müddətdə təşkilat 160 milyona yaxın insanın yaşadığı böyük bir coğrafiyada və qlobal miqyasda güclü təşkilat kimi tanınıb. Prezident İlham Əliyevin TDT ölkələri ilə bütün sahələrdə əlaqələrin möhkəmləndirilməsini Azərbaycanın xarici siyasətinin prioritetlərindən biri elan edib.

*(ardı 7-ci səhifədə)*

# İğdır–Naxçıvan qaz kəməri alternativ təchizat xəttidir

**Azərbaycan öz ərazi bütövlüyünü təmin etməklə Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) mühüm seqmenti rolunu oynayacaq Zəngəzur Dəhlizini işə salmaq üçün əlverişli imkan qazanıb. Artıq Uzaq Çini Avropaya yaxınlaşdıran, beynəlxalq yükdaşımalar üçün müstəsna əhəmiyyət daşıyan bu dəhlizin açılması xeyli aktuallaşıb.**



*(ardı 7-ci səhifədə)*

# 27 Sentyabr 2020-ci il – tarixə yazıldı qızıl bir xətlə

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda inşası davam etdirilən Zəfər parkında olublar




(əvvəli 1-ci səhifədə)

Layihəyə əsasən, torpaqlarımızın azad olunması uğrunda tarixi Qələbəyə gedən yolu, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş əsgər və zabitlərimizin, bütün şəhidlərimizin xatirəsini yaşatmaq məqsədilə kompleksin ərazisində muzeyin yaradılması nəzərdə tutulur. Muzey kompleksində Vətən müharibəsi şəhidlərinin hər birinin adı həkk olunacaq, burada toplanacaq eksponatlar ərazilərimizin işğaldan azad olunması uğrunda mübarizə aparan əsgər və zabitlərimizin igidliyini, xalqımızın əzmini bir daha nümayiş etdirəcək. Kompleks park ilə əhatə olunacaq.

8 Noyabr prospektində inşa olunan Zəfər parkı doqquz hektardan çox ərazini əhatə edəcək. Əraziyə girişdə 44 tağ elementindən istifadə edilib. Tağlar Qələbəyə aparan rəmzi yolun başlanğıcını tərənnüm edəcək. Giriş portalındakı tağın hündürlüyü 44, eni isə 22 metr olacaq. Tağın üzərində Vətən müharibəsi qəhrəmanlarının adları həkk ediləcək. Tağın üst hissəsindəki ağac elementi böyüyən Azərbaycan, pöhrələnmə, firavanlıq, yeni həyata və Qələbəyə aparan simvolik yol təsəvvürü yaradacaq.




Zəfər Muzeyinin əsas girişində yaradılacaq “Dəmir yumruq” simvolunun üzərində Qələbənin tarixi qeyd ediləcək. “Dəmir yumruq” Zəfərin əsasında dayanan Lider, Xalq, Dövlət və Ordu birliyinin rəmzi olacaq. Muzeyin divarında Birinci və İkinci Qarabağ müharibələrində şəhid olmuş əsgər və zabitlərimizin adları həkk ediləcək.

Parka doğru keçid hissədə 8 Noyabr – Zəfər Gününü əks etdirən memorial abidə ucaldılacaq. Abidə iki güclü əlaməti - Zəfər Gününü və sonsuzluğun rəmzi kimi sarsılmaz birliyi təcəssüm etdirəcək. Memorial abidənin ətrafında Qarabağ xalçalarındakı naxış və bəzək elementlərini əks etdirən yaşıllıq salınacaq.

Zəfər parkında, həmçinin tematik bağça, kaskad tipli şəlalə, Qarabağ yaddaş bağçası, parka ümumi baxış nöqtəsi yaradılacaq. Parkın sonunda Azadlıq Bayrağı Meydanının inşası nəzərdə tutulur. Yaddaş bağçası parkın son hissəsində yaradılacaq. Bu hissəyə enən cığır hündür haşiyəli çiçək və yaşıllıqlarla əhatə olunacaq. Yaddaş bağçasının ətrafında istirahət guşələri və oturacaqlar qoyulacaq. Su hövzəsinin mərkəzində isə Azərbaycan Bayrağı dalğalanacaq. Azadlıq Bayrağı Meydanına gedən yol Vətən müharibəsinin rəmzi kimi 44 bürünc döşəmədən ibarət olacaq.

# Türkmənistanın Prezidenti Zati-aliləri cənab Sərdar Berdiməhəmmədova

**Hörmətli Sərdar Qurbanquliyeviç!**

Türkmənistanın milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Qardaş Türkmənistan bu gün sosial-iqtisadi sahədə böyük uğurlara nail olmuş, hər cəhətdən çiçəklənən bir diyara çevrilmişdir. Biz ortaq tarixi-mədəni köklər, qardaşlıq kimi möhkəm təməllər üzərində qurulmuş Azərbaycan-Türkmənistan münasibətlərinin inkişafına böyük əhəmiyyət veririk.

Hazırda səmərəli əməkdaşlığımızın əhatə dairəsinin daha da genişləndirilməsi üçün yaxşı perspektivlər vardır. İnanıram ki, ənənəvi dostluq və əməkdaşlıq münasibətlərimiz, qarşılıqlı inam və dəstəyə əsaslanan strateji tərəfdaşlığımız birgə səylərimizlə xalqlarımızın və ölkələrimizin mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və dərinləşəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, qardaş Türkmənistan xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

**Hörmətlə,**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 25 sentyabr 2023-cü il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Sizi Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün tam bərpa olunması münasibətilə təbrik edirəm.

Mən etnik ermənilərin ölkənizdə qalıb öz həyatlarına davam etmələri və ya ərazini sərbəst şəkildə tərk etmələri üçün lazımi şəraitin yaradılması ilə bağlı Azərbaycanın addımını alqışlayıram.

Həmçinin mən Azərbaycanın Kosovo və Metoxiya məsələsində Serbiyaya göstərdiyi prinsipial və ardıcıl dəstəyə görə dərin minnətdarlığımı bildirirəm.

Sizə Ermənistan ilə sülh prosesini başa çatdırmaq üçün göstərdiyiniz səylərdə uğurlar arzulayıram.

Zati-aliləri, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Vuk YEREMİÇ,**
**Serbiyanın sabiq xarici işlər naziri,**
**BMT Baş Assambleyasının 67-ci sessiyasının sədri,**
**Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü**

*

**Hörmətli cənab Prezident!**

Tarixi hadisə - Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyünün tam bərpa olunması münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram. 2012-ci ildən 2015-ci ilədək Azərbaycanda işlədiyim müddətdə Qarabağdan - öz yurdlarından didərgin düşmüş çoxlu sayda insanla görüşmək imkanım oldu. Mən onların dərin duyğularını və öz torpaqlarına qayıtmalarının əhəmiyyətini başa düşürəm.

Qarabağdakı son hadisələr bir çox yeni başlanğıclar vəd edir. Sizin belə çətin bir problemin həllinə siyasi baxışınız və strateji yanaşmanız həqiqətən təqdirəlayiqdir və şübhəsiz ki, bunun önəmli nəticələri özünü göstərəcək. Əminəm ki, bu əlamətdar hadisə regionda sülhün və əməkdaşlığın möhkəmlənməsinə və nəticədə bütün Cənubi Qafqazda həyat şəraitinin yaxşılaşmasına mühüm töhfə verəcək. Sizin liderliyiniz və tarixi baxışı reallığa çevirməkdə sarsılmaz əzminiz hamımız üçün ilham mənbəyidir. Mən qəti şəkildə inanıram ki, ümumi səylərlə biz gələcək nəsillərimiz üçün daha yaxşı bir dünya qura bilərik.

Sizə və ölkənizə davamlı uğurlar və rifah arzulayıram.

**Hörmətlə,**

**Kiril QABURİÇİ,**
**2015-ci ildə Moldovanın Baş naziri,**
**Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü**

# Antiterror tədbirləri mülki əhaliyə heç bir ziyan vurmayıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də ABŞ Prezidentinin xüsusi nümayəndəsi, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAID) rəhbəri Samanta Paueri, ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Yuri Kimi və ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bononu qəbul edib.**

Görüşdə Azərbaycanın Qarabağ bölgəsində həyata keçirilmiş antiterror tədbirləri nəticəsində yaranmış hazırkı vəziyyət barədə fikir mübadiləsi aparıldı.

Yüzlərlə hərbi texnika, silah-sursat və hərbi təchizat mallarının müsadirə olunduğunu vurğulayan Azərbaycan Prezidenti bildirdi ki, ölkəmizdə akkreditə olunmuş xarici ölkələrin hərbi nümayəndələri və BMT-nin Rezident Əlaqələndirici Ofisinin nümayəndəsi də toplanmış silah və hərbi texnikaya baxıblar.

Hazırda qanunsuz erməni silahlı qüvvələrinin tərk-silah edildiyini deyən Prezident İlham Əliyev onların Azərbaycan ərazisindən çıxarılması prosesinin həyata keçirildiyini bildirdi.

Azərbaycan Prezidenti qeyd etdi ki, antiterror tədbirləri zamanı mülki əhaliyə ziyan dəyməyib, hədəf ancaq qanunsuz erməni silahlı birləşmələri və hərbi obyektlər olub.

Qarabağ bölgəsində yaşayan erməni sakinlərin hüquqlarına toxunan Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycanda yaşayan digər etnik azlıqlar kimi, onların da hüquqları ölkə qanunvericiliyi və beynəlxalq öhdəliklər çərçivəsində təmin ediləcək.

Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycanın nümayəndələri ilə Qarabağın erməni sakinlərinin təmsilçiləri arasında reinteqrasiya istiqamətində dialoq aparılır.

Ərazidə infrastrukturun bərpası ilə bağlı işlərin aparıldığını vurğulayan Prezident İlham Əliyev Azərbaycanın erməni sakinlərə humanitar yardımlar göndərdiyini bildirdi, yardımların göstərilməsi ilə bağlı Beynəlxalq Qırmızı Xaç Komitəsi ilə də əməkdaşlığın həyata keçirildiyini dedi.

Dövlətimizin başçısı qeyd etdi ki, rəsmi Bakı ölkəmizdə akkreditə olunmuş BMT-nin Rezident Əlaqələndirici Ofisinin yaxın zamanda Azərbaycanın Qarabağ bölgəsinə səfərinin təşkilinə hazırdır.

Söhbət zamanı bölgədə sabitliyin təmin edilməsi və yerli ermənilərlə dialoqun vacibliyi vurğulandı.

# “Ağıllı” məskənlər Qarabağı cənnətə döndərir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) icraçı direktoru, xanım Maimuna Mohd Şərifi qəbul edib.**

Prezident İlham Əliyev Maimuna Mohd Şərifin ölkəmizə səfərindən məmnunluğunu ifadə etdi.

Dövlətimizin başçısı İkinci Azərbaycan Milli Şəhərsalma Forumunun keçirilməsinin müsbət addım olduğunu dedi, ötən il Ağdam şəhərində birinci forumun uğurla təşkil edildiyini vurğuladı. Azərbaycan Prezidenti Zəngilanda keçiriləcək builki forumun gündəliyinin çox zəngin olduğunu bildirdi, bu tədbir çərçivəsində Türk Dövlətləri Təşkilatına üzv ölkələrin arxitektura və şəhərsalma üzrə nazirlərinin toplantısının baş tutacağını qeyd etdi.

Prezident İlham Əliyev Dünya Məskunlaşma Gününün də Azərbaycanda qeyd ediləcəyinin müsbət addım olduğunu dedi.

Maimuna Mohd Şərif ölkəmizin təşkilatın fəaliyyətinə göstərdiyi dəstəyi və verdiyi maliyyə yardımlarını müsbət addım kimi qiymətləndirdiyini diqqətə çatdırdı.

Prezident İlham Əliyev təşkilatın fəaliyyətinin Azərbaycan dövləti tərəfindən bundan sonra da dəstəklənəcəyini qeyd etdi.

UN-HABITAT tərəfindən “ağıllı şəhər” konsepsiyasının müxtəlif aspektləri üzrə görülən işlər barədə məlumat verən qonaq ölkəmizin Dünya Məskunlaşma Günü ilə bağlı keçiriləcək tədbirə ev sahibliyi etməsinə görə minnətdarlığını bildirdi. O, Zəngilanda keçiriləcək İkinci Azərbaycan Milli Şəhərsalma Forumunun əhəmiyyətinə toxundu, bu tədbirin urbanizasiya ilə bağlı dünyada gedən proseslərin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi. Bu yaxınlarda Nyu-Yorkda Dayanıqlı İnkişaf Məqsədləri sammitində iştirakına toxunan Maimuna Mohd Şərif həmin tədbirdə iqlim dəyişikliyi və urbanizasiya məsələləri ilə bağlı geniş fikir mübadiləsinin aparıldığını və bu mövzuların Azərbaycanda həyata keçirilən işlərlə də sıx bağlı olduğunu vurğuladı.

İqlim dəyişikliyi və urbanizasiyanın Azərbaycan üçün çox mühüm məsələlər olduğunu bildirən dövlətimizin başçısı BMT-nin Məskunlaşma Proqramının icraçı direktorunun ölkəmizə keçənilki səfərindən ötən müddət ərzində işğaldan azad edilmiş torpaqlarımızda genişmiqyaslı yenidənqurma işlərinin həyata keçirildiyini bildirdi. Keçmiş məcburi köçkünlərin artıq 2 şəhər və 3 kəndə yerləşdirildiyini və bu prosesin davam etdirildiyini vurğulayan Prezident İlham Əliyev Maimuna Mohd Şərifin ölkəmizə səfəri zamanı bu sahədə gedən işlərlə yaxından tanış olacağına ümidvarlığını ifadə etdi.

İqlim dəyişikliyi məsələsinə toxunan Azərbaycan Prezidenti bərpaolunan enerji sahəsində ölkəmizdə görülən işlərin də bu məsələyə töhfə verdiyini vurğuladı, işğaldan azad edilmiş ərazilərimizdə 500 meqavata yaxın günəş və külək enerjisinin istehsalı ilə bağlı 2 layihənin icra olunduğunu bildirdi.

**AZƏRTAC**

# Dövlət və hökumət rəsmiləri Bakıda inşası davam etdirilən Zəfər parkında olublar



**27 sentyabr – Anım Günü ilə əlaqədar Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev, digər dövlət və hökumət rəsmiləri Bakıda inşası davam etdirilən Zəfər parkında olublar.**

Dövlət və hökumət rəsmiləri xatirə daşının önünə gül dəstələri düzərək şəhidlərin əziz xatirəsini ehtiramla anıblar.

Qeyd edək ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli sərəncamına əsasən Vətən müharibəsinin başladığı gün - 27 sentyabr Anım Günü kimi qeyd edilir. Anım Günündə Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları Vətənimiz uğrunda canlarından keçən şəhidlərimizin xatirəsini dərin ehtiramla anır.

**XQ**



# FHN-in əlavə 10 avtomobili və 50 nəfərlik heyəti Xankəndiyə yola düşüb

**Xankəndi şəhəri yaxınlığında yanacaqdoldurma məntəqəsində baş vermiş yanğın və partlayışla əlaqədar axtarış-xilasetmə və digər zəruri təhlükəsizlik tədbirlərinin görülməsi məqsədilə Azərbaycan Fövqəladə Hallar Nazirliyinin 10 avtomobili və 50 nəfərlik heyət yola düşüb.**



Fövqəladə Hallar Nazirliyindən bildirilib ki, avtomobil karvanı Ağdam–Əsgəran–Xankəndi yolu ilə hadisə yerinə yollanıb.

Qeyd edək ki, Azərbaycanın Xankəndi şəhərinin yaxınlığında yanacaqdoldurma məntəqəsində baş vermiş yanğın Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğından Mühafizə Xidmətinin qüvvələri tərəfindən qısa müddətdə söndürülüb.

Həmçinin Xocalı yaxınlığında səhra hospitalının qurulması üçün Fövqəladə Hallar Nazirliyinin 53 avtomobili (heyətlə birgə) və zəruri avadanlıqlar da göndəriləcək.

**XQ**

## Qarabağ bölgəsində müsadirə edilmiş döyüş texnikası, silah və sursat



**Müdafiə Nazirliyi Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri başa çatdıqdan sonra müsadirə edilmiş döyüş texnikası, silah və sursat barədə sentyabrın 27-si saat 17:00-a olan məlumatı yayımlayıb.**

*Məlumatı təqdim edirik:*

1. Atıcı silah və qumbaraatanlar - 1132
2. Artilleriya silahları - 61
3. HHM vasitələri - 235
4. Döyüş sursatları - 434295
5. Təchizat və ləvazimatlar - 2732
6. Optik və digər cihazlar - 231
7. Zirehli texnika - 26
8. Avtomobil texnikası - 125
9. Qoşqu - 21

**XQ**

## Azərbaycanın Qarabağ bölgəsində mina-tələlər zərərsizləşdirilir

**Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri Qarabağ bölgəsində ərazinin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi üzrə tədbirlər görür.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən XQ-yə verilən məlumata görə, Qozlukörpü-Həsənli yolunda xeyli sayda piyada və tank əleyhinə mina, həmçinin partlamamış döyüş sursatları aşkarlanaraq təhlükəsizlik qaydalarına riayət olunmaqla zərərsizləşdirilib.

Bundan başqa, bölmələrimiz ərazidə aşkar etdikləri partladıcı qurğular və mina-tələlərini də zərərsizləşdirirlər.

Ərazilərin minalardan təmizlənməsi tədbirləri davam etdirilir.

# Milli Məclisin Sədri İrlandiyada



**Sentyabrın 27-də Milli Məclisin sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Parlament Spikerlərinin Avropa Konfransında iştirak etmək üçün İrlandiyanın Dublin şəhərinə işgüzar səfər edib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən XQ-yə bildiriblər ki, səfər çərçivəsində Milli Məclisin sədri Parlament Spikerlərinin Avropa Konfransında çıxış edəcək, tədbirdə iştirak edən bir sıra ölkələrin nümayəndə heyətlərinin rəhbərləri ilə görüşlər keçirəcək.

# Antiterror tədbirləri ərazilərimizdəki dəhşətli hərbiləşmənin miqyasını hər kəsə aydın göstərdi

**Azərbaycan bundan sonra da normallaşma və sülh gündəliyinin irəli aparılması istiqamətində qərarlı şəkildə səylərini davam etdirəcək və gələcəyə baxışını sülh üzərində qurub.**



Bunu xarici işlər naziri Ceyhun Bayramov Xarici İşlər Nazirliyində 27 Sentyabr - Anım Gününə həsr olunan anım tədbirində deyib.

O, müharibənin və münaqişənin bitməsinə baxmayaraq ölkəmizin 3 il bundan öncə Ermənistana sülh təklif etdiyini, sülh prosesinin irəlilədillməsi istiqamətində səy göstərdiyini, Ermənistanın isə bunun qarşılığında yenə də 30 ilə yaxın işğal dövründəki təcrübəni təkrarladığı, sözdə ərazi bütövlüyümüzü tanıdığını bildirsə də, əməldə bunun əksinə olaraq təxribatları və mina təhdidini davam etdirdiyini bildirib. Bu xüsusda, Ermənistanın növbəti təxribatların qarşısının alınması üçün ölkəmizin lokal anti-terror tədbirləri gördüyü, bu tədbirlər nəticəsində ərazilərimizdə 30 illik işğal dövrünün qalıqları olan qeyri-qanuni erməni silahlı qüvvələrinin varlığıına son qoyulduğu, habelə ərazilərimizdəki dəhşətli hərbiləşmənin miqyasının hər kəs üçün aydın olduğu diqqətə çatdırılıb.

# Ceyhun Bayramov Lavrovla Qarabağdakı vəziyyəti müzakirə edib

**Azərbaycan və Rusiya xarici işlər nazirləri Ceyhun Bayramovla Sergey Lavrov arasında telefon danışığı olub.**



Bu barədə Rusiya Xarici İşlər Nazirliyi məlumat yayıb.

Nazirlər Qarabağdakı vəziyyət, həmçinin Bakı ilə İrəvan arasında sülh müqaviləsinin perspektivlərini və nəqliyyat kommunikasiyalarının açılmasını müzakirə ediblər.

Tərəflər müxtəlif səviyyələrdə gələcək təmaslar barədə razılığa gəliblər.

**XQ**

# Azərbaycan Xarici İşlər Nazirliyi İraqa başsağlığı verib

**Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin "X" hesabında bildirilib.**

"Neynəva əyalətindəki toyda baş verən yanğın zamanı 115-dən çox insanın ölümü və onlarla insanın yaralanması ilə əlaqədar ölənlərin ailələrinə, İraq hökumətinə və xalqına başsağlığı veririk", - paylaşımda qeyd olunub.

**XQ**

# Səhiyyə Nazirliyi: Antiterror tədbirləri nəticəsində şəhid olan 11 nəfərin şəxsiyyəti məhkəmə genetik müayinələrindən sonra müəyyən ediləcək

**Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən 2023-cü il sentyabrın 19-dan 20-dək həyata keçirilən uğurlu lokal antiterror tədbirləri nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edilib. Lokal antiterror tədbirləri zamanı Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin 192 hərbi qulluqçusu şəhid olub. Şəhid olmuş hərbçilərdən 180 nəfər Müdafiə Nazirliyinin, 12 nəfər Daxili İşlər Nazirliyinin hərbi qulluqçuları, 1 nəfər isə mülki şəxsdir.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, 11 nəfərin şəxsiyyəti Məhkəmə Tibbi Ekspertiza tərəfindən məhkəmə genetik müayinələr aparıldıqdan sonra müəyyənləşdiriləcək.

Eyni zamanda, lokal antiterror tədbirləri nəticəsində 511 hərbi qulluqçu və 1 mülki şəxs yaralanıb.

**XQ**




# DSX: Ruben Vardanyan Azərbaycandan Ermənistan istiqamətində hərəkət edərkən saxlanılıb

**Azərbaycan Respublikasının ərazisinə qeyri-qanuni gələrək qondarma "Dağlıq Qarabağ respublikasının dövlət naziri" vəzifəsində çalışmış 1968-ci il təvəllüdlü Ruben Karleni Vardanyan sentyabrın 27-də "Laçın" dövlət sərhəd-buraxılış məntəqəsində Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının sayıqlığı nəticəsində Azərbaycan Respublikasından Ermənistan istiqamətində hərəkət edərkən saxlanılıb.**




R.Vardanyan Xidmətin Çevik Hərəkət Qüvvələri əməkdaşlarının müşayiəti ilə Bakı şəhərinə gətirilib.

Saxlanılan şəxs barəsində müvafiq qərar qəbul edilməsi üçün aidiyyəti dövlət orqanlarına təhvil verilib.

**XQ**

# Avropa İttifaqı Azərbaycan–Ermənistan sülh vasitəçiliyi yolunda

## Bakının haqlı mövqeyi qəbul edilir



(əvvəli 1-ci səhifədə)

Əlbəttə, lokal xarakterli antiterror tədbirlərimiz hərbi güc nümayişi idi. Əvvəldən də bilinirdi ki, qlobal dünya məsələni məhz bu tərzdə qəbul edəcək. Ermənipərəst dairələrin sırf güc ritorikasına fokuslanaraq əsl həqiqətlərlə manipulyasiya yolu tutmaları da həmçinin. Əslində, 44 günlük müharibə başlananda da oxşar durum yaşanmışdı. Beynəlxalq ictimaiyyət müharibənin dayandırılması ilə bağlı ard-arda çağırışlar səsləndirmiş, ümumən, savaşın qorxunc nəticələrinə köklənmişdi. Ancaq çağırış səsləndirənlər Ermənistanın torpaqlarımızı tərk edəcəyi ilə bağlı təminat vermirdi. Təxminən belə: müharibə dayansın, sonra baxarıq.

Əlbəttə, "baxarıq", "görərik" kimi deyimləri çox eşitmişdik və onların işğalçı Ermənistanın mənafeyinə uyğunluğunu bilirdik. Ona görə dayanmadıq, üç il əvvəlin dünənki günündə çıxdığımız yolu məntiqi sonluğa çatdırdıq. Nəhayət, işğalçıları torpaqlarımızdan qovduq, təslim duruma düşmələrinə, şərtlərimizi qəbul etmələrinə müvəffəq olduq. Bu, yalnız İrəvanın vəziyyətlə barışması deyildi. Bu, həm də müharibə başlananda bəyanatı bəyanat ardınca sıralayanların da durumla barışmaq məcburiyyəti idi. Bir sözlə, dünya ictimaiyyəti haqlı olduğumuzu, haqlı güc tətbiqinə üstünlük verdiyimizi gördü.

Lakin Vətən müharibəsindən ötən hər gün ermənipərəst dairələr, saxta "sülh qaranquşları" tədricən aktivləşməyə, dövriyyəyə girməyə başladılar. Regionda yeni reallıqların formalaşmasına maneçilik törətməyə girişdilər. Bu amil Ermənistan rəhbərliyini, ümumən, xəstə erməni cəmiyyətini yenidən illüziya bataqlığına sürüklədi. Nəticədə, Qarabağdakı separatçı rejimi ayrıca dövlət kimi təsəvvürə gətirmək cəhdləri təzədən baş qaldırdı, eyni zamanda, rəsmi İrəvan həmin xunta rejimini qorumaq məqsədilə çeşidli gedişlərə baş vurdu, regiondakı sülh məntiqinə zidd anlayış və baxışlar gündəmə gətirdi. Halbuki, Prezident İlham Əliyev və dövlətimizin rəsmiləri dəfələrlə belə təmayüllərin yolverilməzliyini bildirmiş, xəbərdarlıqlarını çatdırmışdılar. Həmin xəbərdarlıqlara etinasız yanaşıldı və hadisələrin lokal antiterror tədbirlərinin gerçəkləşdirilməsinə doğru yön alması qaçılmaza çevrildi.

***

Bəli, lokal antiterror tədbirləri haqlı gücün təntənəsi anı idi. Elə bir an ki, Qarabağdakı separatçılığı yox etməklə yanaşı, onun xarici rıçaqlarını da sıradan çıxardı. Və budur, 44 günlük müharibənin nəticələri qəbul edildiyi kimi, antiterror tədbirlərinin nəticələri də eyni qaydada nəzərə alınır. Mövcud məqamı Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin mətbuat katibliyinin Azərbaycan–Ermənistan münasibətlərinin normallaşması ilə bağlı yaydığı bəyanat da təsdiqləməkdədir. Qeyd edək ki, bəyanat Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin sentyabrın 26-da Brüsseldə Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanla, Aİ Şurasının prezidentinin diplomatik müşavirləri Saymon Mordunun və Maqdalena Qrononun, həmçinin, Fransa Prezidenti Emmanuel Makronun və Almaniya Kansleri Olaf Şoltsun təmsilçilərinin, o cümlədən, Aİ-nin Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Tovio Klaarın iştirakı ilə keçirilmiş görüşü sonrası qəbul edilib. Göründüyü kimi, görüş Qərbin, kifayət qədər, geniş təmsilçilik egidasına əsaslanıb. Bu isə o deməkdir ki, toplantı həm Qarabağla, həm də Azərbaycan – Ermənistan münasibətlərinin pesrpektivi ilə bağlı ümumi mövqe birliyinin təsdiqi baxımından əhəmiyyətlidir.

Prezident Ş.Mişelin qısa fikir mübadiləsi üçün iştirakçılara qoşulduğu görüşdə Qarabağdakı mövcud vəziyyət və yerli əhalinin ehtiyaclarının qarşılanmasına yönələn səylər müzakirə olunub. Bildirilib ki, Aİ prosesləri yaxından izləyir və hərbi əməliyyatların mülki şəxslərə təsirini azaltmağa kömək etmək yönündə ən yüksək səviyyədə fəaliyyət göstərməkdədir.

H.Hacıyev ölkəmizin Qarabağdakı yerli erməni əhaliyə humanitar yardımı və təhlükəsizliyin təminatı planlarını açıqlayıb. Əlbəttə, Aİ tərəfindən beynəlxalq humanitar və insan haqları üzrə fəaliyyət göstərən subyektlər üçün şəffaflığın və əraziyə çıxış ehtiyacının duyulduğunun vurğulanması da təbiidir, Bakının Qarabağ ermənilərinin Azərbaycandakı gələcəyinə baxışı haqqında daha ətraflı məlumat verməsinin zəruriliyinin bildirilməsi də. Ancaq ölkəmizin qeyd edilən istiqamətlər üzrə artıq indidən görməyə başladığı tədbirlər var. Heç şübhəsiz, qurum bunu nəzərə alır. Ancaq bəzi dairələr hələ də musiqilərini, necə deyərlər, köhnə havalara kökləyirlər. Deməli, Aİ bunu nəzərə almalı, özünün pozitiv məntiqini inkişaf etdirərək təbliğatı gücləndirməlidir ki, sülhə gedən yol rəvan olsun.

***

Bəli, ümumən, Aİ-nin bəyanatı göstərir ki, Azərbaycanın həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində yaranmış yeni reallıq dünya birliyi tərəfindən qəbul edilir. Bu bəyanat onu da təsdiqləyir ki, ölkəmizin öz suveren ərazisindəki qeyri-qanuni hərbi birləşmələrin və onların hərbi infrastrukturunun neytrallaşdırılmasına yönəlmiş fəaliyyəti tam legitimdir.

Ermənistan rəhbərliyi, eləcə də dünya erməniliyi lokal xarakterli antiterror tədbirləri zamanı Azərbaycanın hərbi birləşmələri tərəfindən, guya, mülki əhalinin hədəfə götürüldüyünü bildirirdi. Əlbəttə, bu, belə deyildi və real durumu təsdiqləyən faktlar yetərincədir. Ölkəmiz maksimum dərəcədə çalışdı ki, dinc erməni sakinlər zərər görməsinlər və onlar ziyanla üzləşmədilər. Eyni zamanda, zəruri təbliğat alətlərindən istifadə də gerçəkliyi ortaya qoydu. Ş.Mişelin mətbuat katibliyinin bəyanatı isə göstərir ki, dünya Ermənistan rəhbərliyinin və ermənipərəstlərin deyil, rəsmi Bakının arqumentlərinə üstünlük verir. Həm də ona görə ki, arqumentlər yalnız haqqa əsaslanır və son dərəcə obyektivdir.

Azərbaycan dövləti Qarabağın yerli erməni sakinlərinin bölgədə qalmalarını və ömür sürmələrini istəyir. Halbuki, Ermənistanın, eləcə də ermənipərəstlərin dünyada apardıqları təbliğatda Bakının, guya etnik təmizləmə gerçəkləşdirdiyinə dair mənasız və əsassız müddəalar var. Habelə, İrəvanın gələcəkdə sərsəm iddiaları beynəlxalq hüquq müstəvisinə daşımağa cəhd göstərəcəyini ehtimal etmək mümkündür. Aİ-nin hazırkı mövqeyi isə bu sayaq neqativ hərəkət və davranışlara qarşı təbii immunitetdir.

Deməli, Azərbaycanın mövqeyi anlaşılır və qəbul edilir. Nəzərə alaq ki, ölkəmiz Qarabağ ermənilərinin təhlükəsizliklərinin təminatı üçün üzərinə düşən vəzifələri yerinə yetirib və yerinə yetirməkdədir. Ərazidə yaşayan insanlara humanitar yardımların göstərilməsi intensivləşib, beynəlxalq strukturların humanitar missiyalarına mövcud istiqamətdə müvafiq şərait yaradılıb.

***

Digər tərəfdən, ölkəmiz rəsmi səviyyədə bəyan edib ki, ərazidən mülki sakinlərin çıxması məcburi xarakter daşımır. Ancaq onu deməliyik ki, hazırda Qarabağdan erməni əhalinin kütləvi köçü müşahidə olunmaqdadır. Bu halı idarə edilən proses kimi qiymətləndirmək mümkündür. Sanki kimlərsə maraqlıdır ki, bölgə erməniləri ərazini tamamilə tərk etsinlər. Belə bir halın yaşanması müsbət sayıla bilməz.

Yada salaq ki, Qarabağ münaqişəsi Ermənistanın Azərbaycana ərazi iddiası zəminində meydana çıxmış konfliktdir. Bunu söyləmək üçün Ermənistanın İstiqlal bəyannaməsinə diqqət yetirmək kifayətdir. Hələ ölkənin Konstitusiyasında da bu sənədə istinad var. Ancaq hazırkı durumda ərazi iddiası və mövcud istiqamətdəki manipulyasiyalar keçərsizdir. Üstəlik, Qarabağda növbəti "erməni soyqırımı" ilə bağlı sərsəmləmələr nəticəsiz qalıb. Yəni, dünya erməniliyinin, 1988-ci ildə Sumqayıtda olduğu kimi, sadə erməniləri qətlə yetirib günahı azərbaycanlıların üzərinə atmaq oyunu keçərsizdir. Yerdə qalır Qarabağ avantürasını niskilə çevirmək. Bunun üçün isə bölgədə yaşayan ermənilərin ərazini tərk etmələri vacibdir. Heç şübhəsiz, Ermənistan gələcəkdə Qarabağdan qovulduğu iddia edilən insanların icmasını yaradıb anti-Azərbaycan fəaliyyətinə baş vuracaqdır. Ancaq ölkəmiz üçün əsas olan heç də bunlar yox, dünya birliyinin həqiqətləri görməsidir. Həqiqətlərin nəzərə alınması baxımından isə Aİ-nin hazırkı mövqeyini və həmin mövqenin ifadəsini tapdığı bəyanatı əhəmiyyətli saymaq mümkündür.

***

Azərbaycanın antiterror tədbirləri nəticəsində yaranmış yeni reallıq göstərir ki, sülhün alternativi yoxdur və bundan sonra tərəflər davamlı sülh naminə bütün səylərini səfərbər etməlidirlər. Halbuki, həmin tədbirlərədək sülh nizamlanması sanki dalana dirənmişdi. Aİ-nin də missiyasının iflasa uğradığı təəssüratı yaranmışdı. Azərbaycanın göstərdiyi qətiyyət həmin təəssüratı aradan qaldırdı və beləliklə ölkəmiz qurumun tənzimləmə funksiyasının yenidən təşəkkülünə kömək göstərmiş oldu. Buna sübut kimi H.Hacıyevin A.Qriqoryanla təması zamanı Azərbaycan və Ermənistan liderlərinin gələn ayın 5-də Qranadada görüşmələrinə dair məsələnin müzakirəsini göstərmək yerinə düşər.

Bəli, artıq bildirmək mümkündür ki, Azərbaycan və Ermənistan liderlərinin oktyabrın 5-də Avropa Siyasi Birliyinin üçüncü sammiti çərçivəsində bir araya gəlmələrinə dair perspektiv realdır. Çünki tərəflər normallaşma səylərinin davamı üçün Qranadadakı təmas imkanından istifadəyə ortaq maraqlarını açıqlamışlar. Onlar həmin görüşdə, həmçinin Bakı – İrəvan sülh prosesinə yönələn konkret addımların, o cümlədən, sərhədlərin delimitasiyasının, təhlükəsizlik, humanitar məsələlər və daha geniş məqamların diskussiya predmetinə çevrilməsinin mümkünlüyü üzərində dayanmışlar.

Aİ Şurası prezidentinin mətbuat katibliyinin bəyanatında, eyni zamanda, hesab edilir ki, Qranada Sammitindən həm Azərbaycan, həm də Ermənistan əvvəlki Praqa və Brüssel (Azərbaycan və Ermənistan lidelərinin Aİ Şurası prezidentinin vasitəçiliyi ilə keçirilmiş 6 oktyabr 2022-ci il və 14 may 2023-cü il görüşləri – red.) təmasları zamanı əldə olunmuş razılaşmalara uyğun şəkildə, bir-birinin ərazi bütövlüyünə və suverenliyinə sadiqliklərini açıq bəyan etmək üçün istifadə etməlidirlər. Bu məqamın vurğulanması da son dərəcə vacibdir. Deməli, sülhə doğru təmaslar davamlı xarakter alacaq və Aİ də Cənubi Qafqazdakı mövcud reallıqları nəzərə alaraq, prosesdə iştirakda maraqlıdır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

KÖŞƏ

# Böyük işimizə kölgə salmayaq

## Qarabağ erməniləri ilə jurnalist təmaslarına dair müşahidələrimiz

**Qarabağı tərk edən ermənilərin Ermənistana və digər ölkələrə köçü davam edir. Dünən köç edənlərin sayı 40 mini keçdi. Çox güman, önümüzdəki həftələrdə bu say bir qədər də artacaq. Yəni, belə görünür. Əlbəttə, dövlətimiz heç də istəmir ki, Qarabağ erməniləri ərazini tərk etsinlər. Əksinə, onların bölgədə qalmaları arzuolunandır. Nə üçün arzulanandır, söhbətimiz bu barədə olmadığından, məsələnin üzərində geniş dayanmağa lüzum görmürük. Yalnız onu deyək ki, Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir və ermənilərin də bu etnik rəngarənglikdə iştirakı pis olmazdı. Digər tərəfdən, Qarabağ erməniləri oldu-olmadı, Azərbaycanın müxtəlif bölgələrində ermənilər yaşayırlar və onlara gözün üstə qaşın var deyən yoxdur. Mövzumuz isə Qarabağı tərk edən ermənilərin fikirlərinin öyrənilməsidir. Daha doğrusu, bunun bir detalına münasibət bildirəcəyik.**



**Əvəz RÜSTƏMOV**
**evez.rustemov@gmail.com**

Məsələnin vacibliyini əsaslandırmazdan əvvəl deyək ki, Azərbaycanın media subyektlərinin təmsilçiləri, xüsusən, telekanalların müxbirləri Qarabağ ermənilərini Laçındakı şərti sərhəddə qurduğumuz nəzarət-buraxılış məntəqəsindən keçərək üzü Ermənistan tərəfə yolçuluq əsnasında, belə demək mümkünsə, sual atəşinə tuturlar. Onlara yaxınlaşır, fikirlərini öyrənirlər. Yəqin, dəyərli oxucularımız da belə səhnələrə şahidlik ediblər. Bəlkə haqqında söz açacağımız məqamı düşünənlər də var. Söhbət jurnalistlərimizin ermənilərə yaxınlaşmalarından, onlarla ünsiyyət qurmalarından gedir. Məsələn, AzTV müxbirinin ünvanladığı suallar öz yerində, onun erməni müsahibinə yanaşma tərzi kifayət qədər səlist idi. Müxbir özü mədəni, sadə, sualları isə ardıcıl, məntiqi cəhətdən bir-biri ilə bağlı idi. Ən əsası isə peşəkar davranışı ilə diqqəti cəlb edirdi.

Ancaq xoşagəlməz nümunələr də diqqətimizdən yayınmadı. Təsəvvür edin, polislərimiz, hərbçilərimiz, digər hüquq-mühafizə orqanlarımızın təmsilçiləri, vəzifə öhdəliklərinin tələblərinə uyğun olaraq, ermənilərlə son dərəcə nəzakətli və mədəni davrandıqları halda, bəzi jurnalistlərimizdə bunun əksini gördük. Sanki sualı jurnalist yox, istintaq orqanının təmsilçisi verirdi. "Siz" yox, "sən" deyə müraciətlər, küçə ritorikası üslubunda yanaşmalar və sair bu sayaq hərəkətlər də öz yerində. Bir sözlə, eybəcər mənzərə. Həmin an ağlımıza gələn bu oldu ki, media təmsilçilərimiz Azərbaycan polisinin, ümumən güc strukturlarının müxtəlif videogörüntülərdə əksini tapmış nəzakət ritorikasını heçə endirməklə məşğuldurlar.

Əlbəttə, müsahib ermənidirsə, məsələ heç onda da deyil ki, biz yaxın tariximizdə yaşananları unutmalıyıq, ancaq xoş rəftar göstərməliyik. Şübhəsiz, olanları da unutmuruq və həm yaddaşımızı, həm də haqqımızı sentyabrın 19-da başlanmış və cəmi 23 saat 43 dəqiqə çəkmiş lokal xarakterli antiterror tədbirləri ilə göstərdik. Bundan əvvəl isə 44 günlük müharibədə göstərmişdik. İndiki döyüşün məqsədi tam başqadır. Sərhəddəyiksə, məqsəd Qarabağ ermənilərini yola salmaqdır. Daha doğrusu, onların yola düşməsinə mümkün qədər əlverişli şərait yaratmalıyıq. Nəhayət, gedəni saxlamazlar, – deyib atalarımız.

Əlbəttə, biz gedənlərin sonradan tamam başqa məsələləri qaldıra bilmə ehtimalını da düşünməliyik. Məsələn, mümkündür ki, Qarabağı tərk edən Aşot ən azı Laçındakı sərhəd-buraxılış məntəqəsindən azca uzaqda dayanmış Avropa İttifaqının mülki müşahidə missiyanın təmsilçilərinə özünü soyqırımından qaçıb canını qurtarmış biri kimi təqdim etsin. Hələ ölkəmizlə bağlı başqa neqativ fikirlər formalaşdırmağı qarşısına məqsəd qoyanlar da var. Fransanın köməyi ilə bölgəyə yerləşdirilmiş mülki müşahidə missiyası tək deyil...

Bəli, hazırda ölkəmizə qarşı bu sayaq sərsəm iddialar irəli sürmək istəyənlər növbəyə dayanıblar. Başda da Ermənistanın siyasi rəhbərliyi olmaqla. Onların ləkə yaxmaq üçün hər vasitədən yararlandıqları məlumdur. Qarabağ erməniləri kartı isə göydəndüşmədir. Məhz mövcud səbəbdən bölgəni tərk edənlərin fikirlərinin öyrənilməsi müstəsna əhəmiyyət daşımaqdadır. Yəni, yuxarıda haqqında söz açdığım vaciblik bununla əsaslandırılır.

Ancaq belə çıxır ki, bu vacibliyi dərk etməyən yalnız jurnalistlərdir. Halbuki onlar məsələyə digər sahələrin təmsilçilərindən daha həssas yanaşmalıdırlar. Daha doğrusu, prinsipcə onların daha həssas münasibət göstərməsi şərtdir. Çünki çəkdiklərinə, göstərdiklərinə bütün dünya baxır və həmin materiallara əsasən ölkəmizlə bağlı rəy formalaşır. Nəzərə alaq ki, bu rəy erməni yalanlarına qarşı tutarlı arqument xarakteri daşımaqdadır. Axı, indiki halda sərhədi keçmiş Aşot gedib Ermənistan hakimiyyətinin havadarlarının sorğularında deyə bilməz ki, azərbaycanlılar ona qarşı nə isə nalayiq rəftar göstəriblər. Desə də, əhəmiyyəti qalmayacaq. Çünki sərhədi keçəndə fikrini bildirib, xoş münasibətini, bilərəkdən, yaxud bilməyərəkdən müsbət mövqeyini ifadə edib, özünə qarşı azərbaycanlılar tərəfindən xoşagəlməz rəftarın edilmədiyini dilə gətirib.

Bütün bunlara görə telekanallarımızın, digər media orqanlarımızın rəhbərlərinin məsələyə diqqətlə yanaşmaları, sərhədə hazırlıqlı jurnalistləri göndərmələri şərtdir. Jurnalist jurnalist kimi olmalı, media təmsilçisi qismində hərəkət etməlidir. Hazırda onun geyim tərzi, özünü aparması, müraciət forması, hətta mimika və jestləri də bizimlə bağlı təsəvvür formalaşdırır. Yəqin, dəyərli həmkarlarımız da razılaşarlar ki, böyük işi bu kimi kiçik məsələlərlə heçə endirmək olmaz.

# Vardanyan Rusiyadan hüquqi kömək ala bilməyəcək

**Rusiya qondarma "Dağlıq Qarabağ respublikasının dövlət naziri" vəzifəsində çalışmış və Azərbaycanın Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən saxlanılan Ruben Vardanyana kömək etməyəcək.**



Bu barədə jurnalistlərə Rusiya Federasiya Şurasının Konstitusiya Komitəsinin üzvü Aleksandr Başkin məlumat verib.

O deyib ki, ötən ilin sonunda Vardanyanın ərizəsi əsasında Rusiya Prezidenti Vladimir Putin onun vətəndaşlığına xitam verilməsi barədə fərman imzalayıb.

A.Başkin əlavə edib ki, Vardanyan öz xoşu ilə Rusiya vətəndaşlığından imtina edib və bu səbəbdən o, Rusiyadan heç bir hüquqi kömək ala bilməyəcək.

***XQ***

# "Müşahidə missiyası" yox, sadəcə, "bölgəyə səfər"

## Rəsmi Bakı Qarabağda beynəlxalq müşahidə missiyasının fəaliyyətinə ehtiyac duymur

(əvvəli 1-ci səhifədə)

Bu, eləcə də bölgədəki son durum barədə Prezident İlham Əliyev ABŞ Dövlət katibi Antoni Blinkenlə telefon danışığında bildirib. Yayılan rəsmi məlumata əsasən, son bir ayda sayca üçüncü olan telefon danışığında tərəflər erməni silahlı qüvvələrinə qarşı antiterror tədbirlərindən sonra Azərbaycanın Qarabağ bölgəsində hazırkı vəziyyət ətrafında fikir mübadiləsi aparıblar. Dövlətimizin başçısı 24 saatdan az müddətdə yekunlaşan lokal antiterror tədbirləri zamanı yalnız hərbi obyektlərin hədəf alındığını, mülki əhaliyə zərər yetirilmədiyini, hazırda qanunsuz erməni silahlıların tərk-silah prosesinin getdiyini və onların Azərbaycanın suveren ərazisindən çıxarılmasının həyata keçirildiyini Ağ ev rəsmisinin nəzərinə çatdırıb.

Söhbət əsnasında, həmçinin Prezident İlham Əliyev Azərbaycanda yaşayan digər etnik azlıqlar kimi, Qarabağ bölgəsindəki erməni sakinlərin hüquqlarının da ölkə Konstitusiyası və beynəlxalq hüquq normaları çərçivəsində təmin edilməsi yönündə müvafiq işlərin aparıldığını vurğulayıb.

Yaranmış vəziyyətlə bağlı narahatlığını ifadə edən, bölgədə sabitliyin təmin edilməsinin, yerli ermənilərlə dialoqun vacib olduğunu bildirən ABŞ Dövlət katibi Antoni Blinkenə cavab olaraq dövlətimizin başçısı bildirib ki, Azərbaycan və erməni sakinlərin nümayəndələri arasında reinteqrasiya istiqamətində dialoq aparılır, onlara dövlətimiz tərəfindən humanitar yardımlar göndərilir. Bundan başqa, ərazidə zəruri infrastrukturun bərpa edildiyini deyən İlham Əliyev telefon danışığında Antoni Blinkenin diqqətinə yardım aksiyalarında Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) ilə əməkdaşlığın həyata keçirildiyini, ölkəmizdə akkreditə olunmuş BMT-nin rezident-əlaqələndiricisinin yaxın zamanda Azərbaycanın Qarabağ iqtisadi rayonuna səfərinin təşkilinə Bakının hazır olduğunu çatdırıb.

* * *

Vaşinqton və Bakı arasında telefon danışığının ardından ABŞ Dövlət Departamentinin bununla bağlı yayılan açıqlaması müəyyən suallar doğurdu və marağa səbəb oldu. Məsələ ondadır ki, Dövlət Departamentinin rəsmi nümayəndəsi Metyu Miller telefon danışığında Azərbaycan dövlətinin başçısının Qarabağa beynəlxalq missiyanın göndərilməsinə razılıq verdiyini və bunun yerinə yetiriləcəyini media mənsublarının nəzərinə çatdırıb. O, hətta tərəflər arasında "Dağlıq Qarabağda (?) BMT-nin potensial müşahidəçilər missiyasının fəaliyyətinin müzakirə edildiyini" də bəyan edib. ABŞ Dövlət Departamentinin sözçüsü fərdi açıqlamasında bir az da irəli gedərək Antoni Blinkenin Prezident İlham Əliyevi Qarabağda geniş amnistiya elan etməyə çağırdığını, ona "Dağlıq Qarabağın (?) bütün sakinləri üçün sülhə, anlaşmaya və qarşılıqlı hörmətə əsaslanan gələcək qurmaq" barədə vədini xatırlatdığını bildirib.

M.Miller jurnalistlərdən birinin Qarabağda BMT-nin potensial beynəlxalq missiyasının dəqiq fəaliyyət mexanizmi barədə sualına cavab verməkdən yayınaraq, "bu məsələ bizim müttəfiqlərimiz və bölgədəki tərəfdaşlarımızla müzakirə mövzusu olaraq qalmaqdadır" – deməklə kifayətlənib. Amma onu nəzərə çatdırmağı unudub ki, Bakı yaxın günlərdə BMT-nin müşahidə missiyasının deyil, sadəcə qurumun Azərbaycanda akkreditə olunmuş rezident-əlaqələndiricisinin Qarabağ bölgəsinə səfərini təşkil etməyə hazır olduğunu açıqlayıb. Əlbəttə ki, bunlar tamamilə fərqli, diplomatik nöqteyi-nəzərdən bir-birinə zidd termin və mülahizələrdir.



* * *

Öz növbəsində Prezidentin köməkçisi, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ABŞ Dövlət Departamentinin sözçüsünün açıqlamasında yol verdiyi yanlışlığa aydınlıq gətirib. "Biz Qarabağda beynəlxalq müşahidə missiyasının fəailiyyətinə zərurətin yarandığını düşünmürük. Çünki reallıq göz qabağındadır, Azərbaycan heç nəyi gizlətmir. Deyildiyi kimi, rəsmi Bakı bölgədəki erməni əsilli vətəndaşların hüquqlarını təmin etməyə tam qərarlıdır", – deyən H.Hacıyev Qarabağda, guya, etnik təmizləmə barədə istənilən açıqlamanın Azərbaycan xalqı üçün təhqir sayıldığını, ölkəmizin tarixində belə halların heç vaxt baş vermədiyini nəzərə çatdırıb. Prezidentin köməkçisi də BMT-nin nümayəndələrinin istənilən zaman regiona səfərlərini istisna etməyib.

* * *

Bu arada ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAID) Cənubi Qafqaza siyasi turneyə gələn rəhbəri Samanta Pauerin son hadisələrdən sonra vəziyyəti yerində qiymətləndirmək məqsədi daşıdığı bəlli olub. İrəvandan sonra Bakıya təşrif buyurmuş xanım Pauer burada yüksək səviyyədə qəbul olunub. Onun ardınca BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Maimuna Mohd Şərifi, ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Yuri Kimi və ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bononun Bakıya səfərləri diqqət çəkib. Bu səfərlər zamanı baş tutan rəsmi görüşlərdə Cənubi Qafqazda, Azərbaycanın Qarabağ iqtisadi rayonundakı mövcud vəziyyəti də müzakirəsi olunub.

* * *

Mövzunu davam etdirərək oxucuların nəzərinə onu da çatdıraq ki, Avropa İttifaqının təhlükəsizlik üzrə analitiki, hüquqşünas İrina Zukerman maraqlı açıqlama ilə çıxış edib. O, öz paylaşımında bildirib ki, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və qurumun digər rəsmilərinin son bəyanatları onu göstərir ki, Aİ Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi lokal antiterror tədbirlərindən sonra yaranmış yeni reallığı qəbul edir. "Şarl Mişel və Aİ rəsmiləri ən azı, reallığı qəbul edir və sülhü möhkəmləndirmək üçün hər fürsətdən istifadə edərək irəliləmək niyyətindədir", – qeyd edən Zukermanın sözlərinə görə, buna baxmayaraq, dünyada bəzilərinin beynində Qarabağdakı vəziyyəti necə qəbul etməyə dair suallar qalmaqdadır: "Bəzi ölkələr hələ də "Dağlıq Qarabağ" terminini işlətməkdə davam edir. Onlar Qarabağda ermənilərin min illik mövcudluğu barədə nağıllara inanır və başa düşmək istəmirlər ki, bu, keçmiş Sovet İttifaqının əhalini nəzarətdə saxlamaq üçün xüsusi olaraq düşündüyü cəfəng termindir".

Ekspert paylaşımında bu fikri haqlı olaraq vurğulayır ki, Azərbaycan qanunun aliliyinə və Qarabağdakı ermənilərin dinc yolla reinteqrasiyasına sadiqliyini nümayiş etdirir.

Bəli, artıq ermənilərin qızğın himayədarı Fransanın dominantlıq etdiyi Avropa İttifaqında belə hər şeyi öz adı ilə çağırmağa başlayıblar. Oğrunun və doğrunun kimliyini bizim anlatmağımıza ehtiyac qalmayıb. Yəqin tezliklə okeanın o tayında da Azərbaycanın Qarabağ torpağından söz düşəndə diplomatik bəyanat və terminlərinə çəki-düzən vermək, korrektələr etmək barədə ciddi düşünəcəklər.

***İmran BƏDİRXANLI***
***XQ***

# BMT-nin ali komissarı reallıqları niyə görmür?

(əvvəli 1-ci səhifədə)

F.Türk daha sonra qeyd edib ki, məcburi köçkünlərin və qaçqın (?) vəziyyətində olanların hüquqları, o cümlədən onların təhlükəsiz və ləyaqətlə qayıtmaq hüquqlarını həyata keçirə bilmələri təmin edilməlidir: "Mən, həmçinin itkin düşmüş şəxslər haqqında məlumatlara diqqət yetirməyə çağırıram. İnsan hüquqlarının və ya beynəlxalq humanitar hüququn istənilən pozuntusu şəraitdən asılı olmayaraq, hesabatlılığı və operativ, müstəqil və şəffaf araşdırmalar da daxil olmaqla tədbir görülməsini tələb edir".

Ali komissar dövlətlərin bununla bağlı öhdəliyini də xatırladıb. Qeyd edib ki, dövlətlər etnik, dini və ya linqvistik azlıqları öz mədəniyyətlərindən istifadə etmək, öz dinlərinə etiqad etmək və ya öz dillərində danışmaq hüququndan məhrum etməməyə borcludurlar: "Hər bir dövlət, həmçinin öz ərazisində azlıqların mövcudluğunu və milli, yaxud etnik, mədəni, dini və linqvistik kimliyini qorumalı, bu kimliyin təşviqi üçün şərait yaratmalıdır".

Doğrudur, F.Türk öz bəyanatında konkret ad çəkməyib. Amma onun Qarabağ ermənilərini nəzərdə tutduğu və çağırışı Azərbaycana ünvanladığı gün kimi aydındır. Təbii ki, cənab Türk səlahiyyəti çərçivəsində istədiyi bəyanatı verməkdə sərbəstdir. Lakin dünyanın ən böyük universal təşkilatının insan hüquqları üzrə məsul şəxsinin keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətindən və ona bitişik işğal olunmuş rayonlardan vaxtilə bir milyon azərbaycanlı qaçqın və məcburi köçkünün öz yurd-yuvasından didərgin düşməsinə səssiz qalmasını anlamaq olmur.

Bundan əlavə, 1988-89-cu illərdə Qərbi Azərbaycandan 250 minədək insan doğma el-obasından qovulub. Onların üzləşdikləri çətinliklər də ali komissarı maraqlandırmayıb. Halbuki, həm Qərbi Azərbaycandan, həm də Qarabağdan qaçqın düşənlər indi bölgəni tərk edən ermənilər kimi rahatlıqla çıxıb getməyiblər. Bu gün Azərbaycan dövləti Qarabağ iqtisadi rayonundan erməni əsilli heç bir şəxsi deportasiyaya məruz qoymur. Azərbaycan vətəndaşlığını qəbul etmək, birgəyaşayış tərəfdarı olmayan ermənilər özləri ərazilərimizdə yaşamaq istəmədikləri üçün çıxıb gedirlər.

Azərbaycan Qarabağın erməni sakinlərinin humanitar ehtiyaclarının qarşılanması üçün ilk gündən lazımi addımları atmağa hazır olduğunu bildirib. Ağdam-Əsgəran-Xankəndi yolunun açılmasından sonra bunu əməli addımlarla təsdiqləyib. Xalqımız başına gətirilən bütün müsibətlərə, olmazın işgəncələrə, məhrumiyyətlərə baxmayaraq, yenə də öz böyüklüyünü göstərir. Azərbaycan Prezidenti sentyabrın 20-də xalqa müraciətində dövlətimizin gələcəyə baxışını aydın ifadə etdi: "İndi isə əminəm ki, bölgəmizdə yeni vəziyyətin yaranması labüddür. Çünki kriminal xunta rejimi təslim olandan sonra bu gərginlik mənbəyi, bu zəhər yuvası artıq tarixdə qalır və Qarabağda yaşayan erməni əhalisi də, nəhayət, rahat nəfəs ala bilər. Bunu mən demişəm və bir daha demək istəyirəm, Qarabağın erməni əhalisi bizim vətəndaşlarımızdır. Sadəcə olaraq, erməni millətçiləri, müharibə cinayətkarları, Ermənistanın və Qarabağın dırnaqarası rəhbərləri o insanları girov götürmüşdü, onların beyinlərini zəhərləmişdi. Azərbaycan haqqında, Azərbaycan xalqı haqqında olmazın yalanlarını uydurub onların beyinlərinə doldurmuşdur, onların beyinlərini zəhərləmişdir. Mən əminəm ki, Qarabağda yaşayan erməni əhalisi tezliklə yaxşılığa doğru dönüşü görəcək. Çünki bizim niyyətimiz sülh, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət əsasında birgə həyat qurmaqdır. Bizim erməni xalqı ilə heç bir problemimiz yoxdur, ədavətimiz də yoxdur".

Prezident İlham Əliyev qeyd etmişdi ki, bütün haqsızlıqlara, kriminal Ermənistan rejimi tərəfindən törədilmiş bütün cinayətlərə baxmayaraq, biz erməni xalqını bu cinayətlərdə heç vaxt günahlandırmamışıq: "Xocalı soyqırımında, şəhərlərimizin, kəndlərimizin dağıdılmasında, qəbirlərin qazılmasında biz erməni xalqını günahlandırmamışıq. Biz kriminal rejimin ünsürlərini, başda duranlarını ittiham etmişik və biz onları məsuliyyətə cəlb edirik və edəcəyik. Bəziləri artıq öz layiqli cəzasını alıblar, bəziləri də alacaqlar".

Təəssüf ki, ermənilər onlara uzanan barışıq əlini hər dəfə geri qaytarırlar. Onların bu hərəkəti isə anti-Azərbaycançı dairələr üçün göydəndüşmə fürsət olur.

***

Ali komissarın fikirlərinə münasibət bildirən Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə deyib ki, F.Türkün fikirləri qeydə alınıb.

O əlavə edib ki, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası



ilə bağlı atdığı bütün addımlar, o cümlədən son 24 saatlıq anti-terror tədbirləri beynəlxalq hüququn norma və prinsiplərinə tam uyğun şəkildə həyata keçirilib. Azərbaycan hər zaman həyata keçirdiyi tədbirlər çərçivəsində mülki əhalinin və mülki obyektlərin qorunmasına sadiq olub.

Mətbuat katibinin sözlərinə görə, Ermənistanın 30 ilə yaxın hərbi işğalı zamanı kütləvi qətllərə məruz qalan azərbaycanlıların öz hüquqlarından məhrum olmasına baxmayaraq, Azərbaycan öz ərazisində olan bütün etnik azlıqların, o cümlədən ermənilərin hüquqlarının qorunmasına həmişə sadiq olub. Azərbaycan rəhbərliyi bunu dəfələrlə şifahi şəkildə bəyan edib.

A.Hacızadə təəssüflə bildirib ki, indiyədək heç kim bir milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkünün hüquqlarını qorumağa, o cümlədən onların təhlükəsizliyinə və hüquqlarının təminatına dair çağırış etməyib. Azərbaycanın 44 günlük müharibədən, o cümlədən anti-terror tədbirləri həyata keçirildikdən sonra itkin düşmüş şəxslərin yerini tapmaq üçün köməklik göstərməsinə baxmayaraq, 4 minə yaxın itkin düşmüş azərbaycanlıya qarşı eyni diqqət və həssaslığı müşahidə etmirik: "Ümid edirik ki, ali komissarın qurbanların hüquqları baxımından günahkarların məsuliyyətə cəlb olunması və cəzalarını çəkmələri məsələsinin həllini tapması üçün şəffaf istintaq aparmaq çağırışları, Azərbaycanın 30 ilə yaxın müddətdə Xocalı soyqırımı, digər kütləvi qətliam və insanlıq əleyhinə cinayətlərdə təqsirli şəxsləri cəzalandırmaq istiqamətində çağırışlarına məhəl qoymayan beynəlxalq ictimaiyyət tərəfindən ciddi şəkildə qəbul ediləcək. Biz, həmçinin Ermənistanın, BMT nümayəndəsinin bu çağırışına əməl etməklə, bu ölkənin indiki ərazisindən kütləvi surətdə qovulmuş azərbaycanlıların hüquqlarını inkar etməyəcəyinə və onların öz evlərinə qayıtmaq hüquqlarını təmin etmək üçün dialoqa şərait yaradacağına ümid edirik".

***

Qərbi Azərbaycan İcmasının yaydığı açıqlamada isə F.Türkün bəyanatında Azərbaycana və azərbaycanlılara qarşı qərəzliliyə, habelə ayrı-seçkiliyə yol verildiyi bildirilib. Qeyd olunub ki, Ermənistanın öz ərazisindən və işğal etdiyi Azərbaycan ərazilərindən bir milyona yaxın azərbaycanlını qovaraq, onların hüquq və azadlıqlarını kobud şəkildə pozduğu ali komissara yaxşı məlumdur: "Ermənistan hökuməti bu ölkənin ərazisindən qovulmuş azərbaycanlıların təhlükəsiz şəkildə və ləyaqətlə geri qayıtmaq hüququnun reallaşmasına imkan vermir. Ali komissar, nədənsə, bir dəfə də olsun bu məsələ barədə danışmayıb və Qərbi Azərbaycan İcmasının bununla bağlı müraciətini cavabsız qoyub. Qərbi Azərbaycan İcması Ermənistanın suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşır və sülhə, birgəyaşayışa, barışığa və reinteqrasiyaya əsaslanan gündəliyə sahibdir".

Qeyd olunub ki, belə olan təqdirdə, ali komissarın beynəlxalq hüquqa hörmətsizlik edən, reinteqrasiyanı rədd edən və separatçı yanaşmaya malik qüvvələri dəstəkləməsi və Ermənistandan qovulmuş azərbaycanlıların geri qayıtmaq hüququnu görməzdən gəlməsi soydaşlarımıza qarşı etnik və dini zəmində ayrı-seçkilikdir. BMT-nin insan hüquqları üzrə ali komissarının bu ayrı-seçkiliyə yol verməsi siyasi baxımdan yanlış olmaqla bərabər, bütövlükdə insan hüquqları sahəsində beynəlxalq sistemi kökündən sarsıdır.

"Biz cənab Türkü daşıdığı ali vəzifənin mandatına uyğun hərəkət etməyə, rəhbərlik etdiyi təsisatın bəzi dairələrin əlində ucuz siyasi alətə çevrilməsinə imkan verməməyə, dini və etnik zəmində qərəz və ayrı-seçkiliyə son qoymağa, Ermənistandan qovulmuş azərbaycanlıların təhlükəsiz şəkildə və ləyaqətlə geri qayıtmaq hüququna dəstək verməyə və hüquqlarımızın müdafiəsi xahişi ilə 2023-cü il 10 avqust tarixində göndərdiyimiz müraciətə cavab verməyə çağırırıq", – deyə açıqlamada qeyd olunub.

Onu da qeyd edək ki, F.Türkün açıqlamasında əksini tapan fikirlər qərəzli olmaqla yanaşı, Cənubi Qafqazda davamlı sülh və sabitliyin əldə olunması istiqamətində səylərə də töhfə vermir. Bu baxımdan ümid edək ki, ali komissar Azərbaycandan səslənən iradları eşidəcək və növbəti açıqlamalarında obyektivlik nümayiş etdirəcək.

***Səxavət HƏMİD***
***XQ***

**EKSPERT RƏYİ**



**Zaur MƏMMƏDOV,**
**politoloq**

– 1988-89-cu illərdə Ermənistanın azərbaycanlılara qarşı apardığı etnik təmizləmə siyasəti nəticəsində bu gün həmin ölkədə bir nəfər də olsun azərbaycanlı qalmayıb. Ermənistan qovduğu yüz minlərlə azərbaycanlının geri qayıtmaq hüququnun təminatından imtina etməklə, onların iztirablarını daha da artırır. Rəsmi İrəvan dəfələrlə edilən çağırışlara rəğmən, Qərbi azərbaycanlıların insan hüquqları mövzusunda dialoqa başlamaqdan qəti şəkildə imtina edir. Azərbaycan isə erməni əsilli vətəndaşlarını zorla ölkədən çıxarmır. Onların yaşayış yeri seçmək kimi fundamental insan hüquqlarını pozmur. Qarabağı tərk edənlər, sadəcə olaraq, Azərbaycan qanunları əsasında yaşamaq istəməyənlərdir. Bununla belə onların təhlükəsiz şəkildə köçməsinə şərait yaradılır. BMT-nin insan hüquqları üzrə ali komissarının bütün bunlara rəğmən verdiyi açıqlama ya onun bölgədəki vəziyyətdən xəbərsizliyindən, ya da qərəzli olmasından xəbər verir. İnformasiya-kommunikasiya texnologiyalarının inkişaf etdiyi müasir dövrdə Folker Türkün yanlış məlumata malik olması ehtimalı istisnadır. Odur ki, ikinci versiyanın üzərində dayanmalı oluruq. Halbuki, Folker Türkün daşıdığı vəzifə ondan bitərəf, obyektiv və qərəzsiz olmağı tələb edir.

# Müdriklik fəlsəfəsi



(əvvəli XQ-nin 20 sentyabr tarixli nömrəsində)

## Vətənə və xalqa xidmətə həsr olunmuş ömür

Heydər Əliyev böyük insan, tarixi şəxsiyyət idi. Belə insanlar, bəlkə də, əsrdə bir dəfə, ən çətin zamanda, məhz onlara daha çox ehtiyac duyulan vaxtda meydana gəlirlər.

Sağlığında Azərbaycan xalqının ümummilli lideri kimi tanınan Heydər Əliyev cismani gedişindən sonra da xalqın rəğbətini və sevgisini itirməmişdir. O, təkcə ölkənin bənzərsiz rəhbəri kimi deyil, həm də dərin ahəngdar, bütöv, hərtərəfli inkişaf etmiş şəxsiyyət olaraq hər bir azərbaycanlı üçün ideala çevrilmişdir. Bu dahi şəxsiyyətin ümummilli liderlik zirvəsini fəth etməsi onun ölkənin və xalqın taleyinin ən çətin anlarında həlledici rol oynamaq, dövləti və milləti istiqamətləndirmək, xilaskarlıq missiyasını dərhal həyata keçirmək bacarığı sayəsində mümkün olmuş doğru yoldur.

Amma bununla yanaşı, Heydər Əliyev təbiətcə yorulmaz bir insan idi, onun öz üzərində çalışması bütün həyatı boyu davam etdi. Tanrının bəxş etdiyi istedadlar həmişə yeniliklərə can atmağa, zamanı qabaqlamağa çalışırlar.

Ümummilli lider müasir dövlətçiliyin banisi oldu. Onun zəngin dövlət təcrübəsi bütün dünyada yüksək qiymətləndirilir. O, elmi əsaslara və dərin intellektual potensiala əsaslanan mükəmməl dövlətçilik konsepsiyası yaratmış, dövlət idarəçiliyi sahəsində zəngin elmi-nəzəri və praktiki irs qoyub getmişdir. Bu gün Azərbaycan ulu öndərin göstərdiyi yolu davam etdirir. Respublika Prezidenti İlham Əliyev Heydər Əliyevin dövlət idarəçiliyi ideyalarını davam etdirir.

Heydər Əliyevin 80 illik yubileyi günlərində "Kiyev şəhərinin fəxri vətəndaşı", "Ukrayna Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının fəxri doktoru" adlarına layiq görülməsi, Kiyevdə Azərbaycan Respublikasının Ukraynadakı səfirliyinin yaxınlığındakı onun adını daşıyan parkda dünyada ilk abidəsinin məhz Kiyev şəhərində ucaldılması yuxarıdakı fikirlərin təsdiqidir. Onun layiqli davamçısı İlham Əliyevin Ukraynada Taras Şevçenkonun adını daşıyan Kiyev Milli Universitetinin Fəxri doktoru adını alması da bu mövqedən diqqəti cəlb edir.

## İqtisadi-siyasi və mədəni inkişafın banisi

Heydər Əliyev çox qısa müddətdə Azərbaycanı inkişaf və tərəqqi yoluna çıxararaq dövlət müstəqilliyini möhkəmləndirməyə, əhalinin firavan həyatını bərpa etməyə nail oldu.

Ulu öndərin ölkədə nizam-intizamın bərpasında titanik fəaliyyəti neft strategiyasının inkişafı ilə paralel getdi. Ümummilli liderin sayəsində Azərbaycan dünya siyasət elminə inkişafın "Azərbaycan modeli" kimi daxil olan dövlət quruculuğunun özünəməxsus yolunu əldə etdi.

Onun rəhbərliyi ilə 1994-cü ildə Azərbaycan ölkənin neft yataqlarının işlənməsinə dair dünyanın ən böyük neft-qaz korporasiyaları ilə "Əsrin müqaviləsi"ni imzaladı. Və dünyanın qabaqcıl ölkələrinin ən qabaqcıl şirkətlərinin bu müqavilədə iştirakı ölkəmizin regionda əhəmiyyətini və nüfuzunu artırıb. Bu müqavilə investisiyaların cəlb edilməsində və ölkə sənayesinin inkişafında, iqtisadiyyatının yaxşılaşdırılmasında müstəsna rol oynadı.

Ümummilli liderin uzaqgörənliyi sayəsində respublikada yeni iqtisadi münasibətlərin əsasları qoyuldu, özəl sektor yaradıldı, iri xarici investisiyalar cəlb edildi, sahibkarlar üçün geniş imkanlar yaradıldı. Sovet dövründən qalan fabrik və zavodlar fəaliyyətə başladı, dünya bazarına çıxa bilən malların istehsalı yerli və xarici sahibkarlara tapşırıldı. Beləliklə, nəinki yeni sənaye sahələri yaradıldı, həm də yeni iş yerləri açıldı. "Güclü iqtisadiyyatı olan dövlət hər şey edə bilər", deyən Heydər Əliyev bu prinsipi rəhbər tuturdu.

Neft müqavilələri və ölkə daxilində sabitliyin və əmin-amanlığın bərqərar olması, iqtisadi islahatlar və mədəniyyətin yüksəlişi, nəhayət, 1994-cü ilin mayında Dağlıq Qarabağ münaqişəsi zonasında Ermənistanla müharibədə atəşkəs və Azərbaycanın ilk uğurları, münaqişənin həllində diplomatiya və Heydər Əliyevin sözünün və əməlinin böyüklüyünün nəticələri özünü təsdiqlədi. Ümummilli lider Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə ədalətli həllinə çalışdı. "Diplomatiya döyüş meydanı deyil," – dedi. "Burada aqressivlik yox, xeyirxahlıq və rəqibinə güvənmək, ehtiras ünsürlərinə təslim olmamaq, müdriklik və səbr göstərmək, onların əlində alət olmamaq lazımdır. Azərbaycan liderinin problemlərə bu cür yanaşması hələ də münaqişənin həlli üçün ən optimal modelin işlənib hazırlanmasına və son nəticədə Cənubi Qafqazın bütün qaynar nöqtələrində sülh perspektivlərinin yaxınlaşmasına ehtiyacı olan Azərbaycan diplomatiyası üçün əsas prioritetdir.

Heydər Əliyev siyasi və diplomatik fəaliyyətini Azərbaycan haqqında həmi tərəfindən qəbul edilmiş fikirlərin dəyişdirilməsinə həsr etmişdir. Şərq–Qərb layihəsinin həyata keçirilməsində Heydər Əliyevin xidmətlərini qeyd etmək lazımdır. 1998-ci ildə onun təşəbbüsü ilə səkkiz ölkə rəhbərinin və otuzdan çox dövlətin nümayəndə heyətlərinin iştirakı ilə "İpək Yolunun bərpası" beynəlxalq forumu keçirilmişdir. Bu, Azərbaycanın beynəlxalq imicinin möhkəmlənməsində, Qərb və Şərq dövlətləri ilə əməkdaşlığının intensivləşməsində mühüm rol oynadı.

Müstəqil və sabit dövlət quruculuğu yolunda Heydər Əliyevin atdığı addımlar nəticəsində Azərbaycanın da milli maraqlarının keşiyində dayanmağa qadir olan milli ordu formalaşdı, Azərbaycanın müstəqilliyinin qorunub saxlanması üçün mümkün olan hər şey edildi.

İncə psixoloq və təcrübəli diplomat olan ulu öndər həmsöhbətinin əhval-ruhiyyəsinin ən xırda nüanslarını tutmağı bacarırdı. Azərbaycan dili Heydər Əliyevin xüsusi diqqət mərkəzində idi. O, qəti əmin idi ki, ancaq "hər bir xalqı ana dili yaradır". Heydər Əliyev 1978-ci il Konstitusiyasında hüquqi cəhətdən təsbit olunmuş Azərbaycan dilinin dövlət dili statusuna nail oldu. O zaman belə bir addım qəhrəmanlığa bərabər idi. 2007-ci ildə (ölümündən sonra) dil problemini həll etdiyinə görə Atatürk mükafatına layiq görülüb.

Ulu öndər Azərbaycan xalqının milli varlığının qorunub saxlanmasının açarına çevrilən azərbaycançılıq konsepsiyasını işləyib hazırladı. Azərbaycançılığın əsas dəyərlərinə sadiqlik xalqı birləşdirən, sosial sabitliyin və rifahın, islahatların uğurunun təmin edilməsində, qlobal siyasətdə milli maraqların həyata keçirilməsində mühüm amil olmuşdur.

## Azərbaycan diasporunun yaradıcısı

Heydər Əliyevin xatirəsi həm ölkədə, həm də xaricdə yaşayan azərbaycanlıların qəlbindən silinmir. O, Azərbaycan diasporunun yaradıcısı idi. Məhz o, Azərbaycan xalqını ayağa qaldıraraq, ideal və mənəviyyat zirvəsinə ucaldaraq, bununla da azərbaycançılıq məfkurəsini bütün dövrlər üçün milli ideala çevirdi.

Ulu öndər həmişə milli–mənəvi və mədəni dəyərlərin qorunub saxlanması uğrunda mübarizə aparmış, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə inteqrasiya yolu ilə zənginləşməsi üçün əlindən gələni etmişdir.

**Qürur hissi ilə qeyd edirəm ki, mən də bu böyük insanla (1976-cı ildən 2003-cü ilədək) dəfələrlə şəxsən görüşmüşəm, hətta onun qarşısında dəfələrlə çıxış etmişəm. 1980-ci ildə mənim namizədliyimi təsdiqləyərək Bakı Partiya Məktəbində oxumağa yaşıl işıq yandıran Heydər Əliyev oldu. Onunla Yaltada görüşdükdən sonra diasporun fəal üzvü, "Xalq qəzeti"nin jurnalisti və Ukrayna Prezidenti yanında Milli Dövlət İdarəçilik Akademiyasının tələbəsi kimi ona Ukrayna jurnallarında "Millət Atası, nə üçün müdrik Azərbaycan xalqı Heydər Əliyevdən xahiş etdi ki, məsuliyyəti öz üzərinə götürüb respublikanı xilas etsin", "Heydər Əliyevin portreti üçün ştrixlər" (Ukrayna dilində).**

**Bununla əlaqədar daha bir fakt... 2000-ci ilin sentyabrında Ukrayna Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında təhsil alarkən bir professorla söhbət zamanı bildirdi ki, "Azərbaycan geri qalmış ölkədir... mədəniyyəti yaxşı deyil... demokratiya yoxdur... Sumqayıt hadisəsində ermənilərə qarşı vəhşilik-terrorçuluq hərəkətləri törədilib... və s." Soruşanda ki, "Siz Azərbaycanda olmusunuz?" dedi: "Yox". Dedi: "Arqumentin var?". Dedim: "Bəli". Növbəti mühazirəsi zamanı Heydər Əliyevin son 7 illik fəaliyyəti zamanı faktlarla təsdiqlənən Azərbaycan reallıqlarını əks etdirən məqaləmi həmin professora təqdim etdim. Növbəti həftədə mühazirəsindən sonra mənə yaxınlaşaraq bildirdi ki, "Siz məni millilik baxımından tərbiyə etdiniz, Sizin materialı vermişəm "Politika" jurnalına, çap olunacaq. Get redaktorla görüş, əlavələrin varsa qeyd et...". Beləliklə, mənim "Millət Atası, nə üçün müdrik Azərbaycan xalqı Heydər Əliyevdən xahiş etdi ki, məsuliyyəti öz üzərinə götürüb Respublikanı xilas etsin" başlığı ilə 2000-ci ilin sentyabrında "Politika" jurnalında məqaləm çap olundu.**

**Onu Bakıya göndərdim. Bir həftə sonra bu məqalə bütün Azərbaycan qəzetlərində tərcümə olunub çap olundu.**

**Bir az sonra GUAM-ın tədbirində Heydər Əliyev məni görəndə "... Bütün bərdəlilərə salamlar" sözü ilə salamladı və ətrafındakı rəhbərlərlə tanışlıqla yanaşı, mənim diplomat vəzifəsinə namizədliyimi Xarici İşlər nazirinə tövsiyə etdi.**

**2023-cü ilin Azərbaycanımızda "Heydər Əliyev ili" olması ilə əlaqədar bu yaxınlarda mənim elmi, diplomatik və ictimai fəaliyyətim zamanı Heydər Əliyevə həsr etdiyim məqalələrin toplusundan ibarət "Millət Atası" monoqrafiyamın çap edilməsi Ukrayna və Azərbaycan MEA-larında, digər qurumlarda təqdimatı da bu nöqteyi-nəzərdən öz dəyərini nümayiş etdirməkdədir.**

**Bu baxımdan da mən özümü dahi ulu öndərimizin – millət atasının tələbəsi hesab edirəm.**

## İstedad və iradə

Görüşlərin birində jurnalistlər onu "böyük güc sahibi" adlandırdılar. Heydər Əliyev cavabında gülümsəyərək dedi ki, hakimiyyətin yalnız bir mənbəyi var – xalq. Onun siyasi məharətinin və uzunömürlüyünün sirlərini, xalqın inamında, təkcə inamında deyil, həm də insanların ümidinin canlı təcəssümündə axtarmaq lazımdır.

Sabahın dinc, xoşbəxt olacağına ümid edirəm. Müharibəsiz, doğma yurdunda qaçqınsız, canı rahat, evdə çörək. Heydər Əliyevə inamın mahiyyətini isə bu ümid müəyyən edir...

Ümumbəşəri məhəbbəti qazanmaq üçün təkcə yaxşı siyasətçi olmaq kifayət deyil, həm də müstəsna universal insani keyfiyyətlərə malik olmaq lazımdır. "Böyük siyasət xırda hisslərə, maraqlara tabe edilə bilməz", deyən Heydər Əliyev buna əmin idi. Onun tükənməz enerjisi Azərbaycan xalqını yeniləşən, qurucu, xoşbəxt Azərbaycana inamla ruhlandırdı. Heydər Əliyev xalqa heç vaxt icrası mümkün olmayan vədlər verməmiş, əksinə, əldə ediləcək nəticələri həmişə bəyan etmişdir. Onun əsas keyfiyyətləri müstəsna dürüstlük və güclü iradə, eləcə də ən yüksək təşkilatçılıq və tələbkarlıq, xüsusən özünə qarşı, hər bir insanı dinləmək və eşitmək bacarığı idi.

***

Heydər Əliyev fəaliyyətinin bütün sahələrində Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsinin təmin edilməsi prinsiplərinə əsaslanmışdır. O, hakimiyyətə gəldiyi ilk vaxtdan və fəaliyyətinin sonuna kimi güclü, müstəqil, hüquqi dövlət quruculuğu üzərində titanik xidmətlər göstərib.

"Müstəqillik yolundan çətin yol yoxdur" – deyən ulu öndər başa düşürdü və bununla belə, o, xalqını bu yolda inamla irəli aparır, cəmiyyətin sosial, iqtisadi, mədəni və ideoloji sahələrini inkişaf etdirir, eyni zamanda, xarici siyasət məsələlərini həll edir. Kembric Beynəlxalq Bioqrafik Mərkəzinin Direktorlar Şurası 1999-cu ildə sülhsevər siyasətinə və demokratiyanın inkişafında böyük xidmətlərinə görə Heydər Əliyevi "XX əsrin görkəmli xadimi" adına layiq görüb.

İnsan əməli ilə böyük olur. Amma böyük işlər görmək üçün insanlarla birlikdə olmaq lazımdır. Heydər Əliyev son dərəcə çətin bir dövrdə xalqının xilası naminə misilsiz fədakarlıq nümayiş etdirərək, müstəqillik və Azərbaycanın formalaşmasının çətin yolunu öz xalqı ilə birlikdə, çiyin-çiyinə keçdi. Onun ürəyi milyonlarla azərbaycanlının qəlbi ilə vəhdətdə döyünürdü.

Azərbaycan həmişə müxtəlif dinlərin, mədəniyyətlərin və sivilizasiyaların birgə yaşadığı ölkə olub. O, Şərqlə Qərb arasında mədəni körpü idi. Bu gün Azərbaycanda müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşaması ulu öndərin ən böyük sərvətlərindən və irslərindəndir. Ən qısa müddətdə, biz özümüzü etibarlı beynəlxalq tərəfdaş, regional inkişafa, təhlükəsizliyə, sabitliyə və multikulturalizmə töhfə verən müstəqil xarici siyasət yürüdən ölkə kimi göstərə bildik.

Azərbaycan beynəlxalq birliyin nüfuzlu üzvünə çevrildi, etibarlı beynəlxalq tərəfdaş kimi özünü sübut etdi, Avropanın enerji təhlükəsizliyinin qarantı, Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələrindən isə BMT-nin qeyri-daimi üzvü olan ilk nümayəndəsi oldu. Təhlükəsizlik Şurası, müxtəlif mədəniyyətlərin mədəniyyətlərarası dialoqunun təşəbbüskarıdır. O, BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, Qoşulmama Hərəkatı və bir sıra digər beynəlxalq strukturların üzvüdür.

Əminəm ki, idealımız və ümummilli liderimiz Heydər Əliyev müasir Azərbaycanla fəxr edərdi və biz hər ürək döyüntüsü ilə onun vəsiyyətlərinə hörmətlə yanaşmalı, Azərbaycanı yeganə doğru, layiqli yola yönəldən şəxsiyyətin müqəddəs xatirəsi qarşısında baş əyməliyik.

Azərbaycanın İlham Əliyevin rəhbərliyi ilə əldə etdiyi nailiyyətlər 20 illik bir müddətdə bu gün də davam edir və xalqımızı xoşbəxt gələcəyə aparır. Bu uğurların banisi ulu öndər Heydər Əliyevin adı xalqımızın qəlbində əbədi yaşayacaqdır. Düz deyirlər: nə qədər ki, müstəqil Azərbaycan dövləti var, Azərbaycan xalqı var, Heydər Əliyev ürəklərdə yaşayacaqdır.

***Arif QULİYEV,***
***hüquq elmləri doktoru,***
***Kiyev Əqli Mülkiyyət və Hüquq Universitetinin professoru,***
***Ukrayna Ali Təhsil Akademiyasının akademiki***

# Türk Dövlətləri Diaspor Gənclərinin Bakı Forumu

**Bakıda "Heydər Əliyev İli" çərçivəsində "Türk Dövlətlərinin Diaspor Gənclərinin I Forumu: Heydər Əliyev və Türk dünyası" adlı beynəlxalq forum keçirilib.**

Azərbaycan Diasporla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı və Türk Dövlətləri Təşkilatının (TDT) tərəfdaşlığı ilə keçirilən tədbirdə Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan və Qırğızıstanla yanaşı, TDT-də müşahidəçi üzv statusuna malik Türkmənistan, Şimali Kipr Türk Respublikası və Macarıstanın nümayəndə heyətləri iştirak ediblər.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov tədbirin Azərbaycan və Türk Dünyası üçün çox mühüm tarixi hadisə – Azərbaycanın öz suverenliyini tam təmin etdiyi günlərdə keçirildiyinə diqqəti cəlb edib.

Komitə sədri qeyd edib ki, I Forum ümumtürk diasporunun şəbəkələşməsi və mütəşəkkil qüvvəyə çevrilməsi baxımından böyük əhəmiyyət kəsb edir. "Türk dövlətlərinin diasporlarının, o cümlədən diaspor gənclərinin birgə fəaliyyəti həm ölkələrimizə, həm də bütövlükdə Türk Dünyasına qarşı kampaniyaların qarşısını almaq baxımından da zəruridir", - deyə o vurğulayıb.

Sonra çıxış edən Milli Məclisin sədr müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev bildirib ki, Ümummilli liderin həyata keçirdiyi dövlət quruculuğu sahəsində, həm də Türk dünyasının birliyi naminə gördüyü işlər bu gün öz bəhrəsini verməkdədir.

Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov diaspor gənclərin fəaliyyətini vətənpərvərliyinin bariz nümunəsi adlandırıb.

TDT Baş katibinin müavini Yerzhan Mukaş qeyd edib ki, Türk dünyasının birliyi uğrunda Heydər Əliyevin göstərdiyi xidmətlər heç vaxt unudulmayacaq.

Mövcud şəraitdə diaspor gənclərinin fəallığının artırılmasına diqqət çəkən Azərbaycanın xarici işlər nazirinin müavini Yalçın Rəfiyev mümkün layihələrdən danışıb. Diqqətə çatdırılıb ki, 44 günlük Vətən müharibəsi dövründə xaricdəki erməni diasporunun Ermənistana yardım məqsədilə topladığı milyonlarla dollar vəsait Azərbaycanın mülki əhalisinə qarşı terror hücumlarının maliyyələşdirilməsinə sərf olunub.

Mədəniyyət nazirinin müavini Səadət Yusifova Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad edilməsini, ərazi bütövlüyümüzün tam təmin olunmasını yalnız Azərbaycanın deyil, bütün Türk dünyasının Zəfəri olduğunu vurğulayıb.

Forum işini panel iclaslarla davam etdirib.



# Heydər Əliyev və azərbaycançılıq

**Şəki Dövlət Regional Kollecində AMEA-nın Şəki Regional Elmi Mərkəzinin (ŞREM) təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş "Heydər Əliyev və azərbaycançılıq ideologiyasının daha dərindən öyrənilməsi" mövzusunda seminar keçirilib.**



Seminarda ŞREM-in ədəbi-mədəni mühit, folklor və etnoqrafiya şöbəsinin rəhbəri İradə Yusifova, Şəki Dövlət Regional Kollecinin metodisti Pərviz Zeynalov, ŞREM-in Gənc Alim və Mütəxəssislər Şurasının sədri Tural Adışirinov və başqaları çıxış edərək Ümummilli liderin dövlətçilik ənənələrinin təməlində azərbaycançılıq məfkurəsinin dayandığını, milli ruhun yüksəldilməsi, milli özünüdərkin inkişaf etdirilməsi, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi fundamental siyasi məsələlərin milli ideologiyaya xidmət etdiyini vurğulayıblar.

XQ

# İğdır–Naxçıvan qaz kəməri alternativ təchizat xəttidir

(əvvəli 1-ci səhifədə)

Türkiyənin türk dünyasına açılan qapısı sayılan Naxçıvandan keçəcək bu dəhlizin önəmi getdikcə daha çox etiraf edilir. Zəngəzur Dəhlizi, həm də Naxçıvan Muxtar Respublikası ilə quru yolla birbaşa kommunikasiyaların qurulması üçün geniş imkanlar yaradır.

Xatırladaq ki, uzun illər Ermənistan tərəfindən blokadaya salınmış muxtar respublika təbii qazı və elektrik enerjisini bir mənbədən–İrandan almağa məcbur idi. "Mavi yanacaq" və elektrik enerjisinin eyni mənbədən alınması isə Naxçıvan Muxtar Respublikasının enerji təhlükəsizliyinin təminatında müəyyən problemlər yaradırdı.

Artıq Türkiyənin əsas qaz tədarükçülərindən olan Azərbaycan, həm də qardaş ölkə vasitəsilə muxtar respublikanın qaz təminatı probleminin həlli üçün yeni fürsət qazanıb. Bu baxımdan sentyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə təməli qoyulmuş İğdır–Naxçıvan qaz kəməri muxtar respublikanın "mavi yanacaq"la təchizatı baxımından müstəsna əhəmiyyət kəsb edir.

Hazırda Naxçıvan Muxtar Respublikasının illik qaz istehlakı 260–300 milyon kubmetr ətrafındadır. Bu isə mövcud tələbatdan bir qədər azdır. Mühüm infrastruktur layihəsi olan İğdır–Naxçıvan qaz kəmərinin fəaliyyətə başlaması ilə muxtar respublikanın "mavi yanacaq"la təchizatında əhəmiyyətli dəyişikliklər baş verəcək. Eyni zamanda kəmərin işə düşməsi muxtar respublikanın qaz təchizatının şaxələndirilməsinə imkan yaratmaqla onun bir mənbədən asılılığını aradan qaldıracaq. Naxçıvanın sosial-iqtisadi inkişafına təkan verən yeni infrastruktur layihəsi isə artıq icra mərhələsinə qədəm qoyub.



Azərbaycan və Türkiyə arasında İğdır–Naxçıvan qaz boru kəmərinin tikintisinə dair anlaşma memorandumu 2020-ci il dekabrın 15-də Ankarada imzalanıb. Azərbaycan Prezidenti İlham Əliyevin 2022-ci il 10 fevral tarixli Sərəncamına əsasən isə İğdır–Naxçıvan qaz boru kəmərinin tikintisi üçün dövlət büdcəsindən vəsait ayrılıb. Layihə bu il iyunun 5-də qəbul edilən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın prioritet layihələri sırasında yer alıb.

Qeyd edək ki, boru kəmərinin İğdırdan Sədərək rayonuna qədər uzunluğu 97,5 kilometr təşkil edir. Kəmərin Azərbaycan hissəsinin uzunluğu 17,5 kilometr, Türkiyə hissəsinin uzunluğu isə 80 kilometrdir. Eyni zamanda layihə çərçivəsində Dilucu məntəqəsində qazpaylayıcı stansiya tikiləcək. Bu stansiya 20 min kvadratmetr sahəni əhatə edəcək və boru kəməri ilə qaz axını balansını təmin edəcək. Beləliklə, təbii qaz Naxçıvana ən təhlükəsiz şəkildə daxil olacaq. Boru kəməri ilə gündə 2 milyon kubmetr, ildə isə 730 milyon kubmetr qaz ötürmək mümkün olacaq ki, bu da Naxçıvanın qaza tələbatını tam ödəməyə imkan yaradacaq. Gələcəkdə isə boru kəmərinin ötürücülük qabiliyyətini iki dəfədən çox artırmaq mümkündür.

Layihə Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və Türkiyənin BOTAŞ şirkəti tərəfindən reallaşdırılacaq. Yeri gəlmişkən, ötən il Tükiyə KİV-ləri İğdır–Naxçıvan qaz kəmərinin tikintisi layihəsinə təqribən 13,7 milyon dollara vəsait xərclənəcəyi ilə bağlı məlumat yaymışdılar.

*Mirbağır YAQUBZADƏ*
*XQ*

## Ekspert rəyi

**Samir HEYDƏROV,**
**iqtisadçı-ekspert**



Türkiyə Prezidentinin sentyabrın 25-də ölkəmizə rəsmi səfəri mühüm əhəmiyyətə malikdir. Belə ki, bu səfər İğdır–Naxçıvan qaz kəmərinin təməlqoyma mərasimi ilə yanaşı, müdafiə sənayesi müəssisəsinin açılışı ilə də yadda qaldı.

İğdır–Naxçıvan qaz kəmərinin işə düşməsi ilə Azərbaycan təbii qazını Qarsdan İğdıra, oradan da Naxçıvana nəql ediləcək. Bununla da, muxtar respublikanın qaza getdikcə artmaqda olan tələbatının bir mənbədən (İrandan) asılılığı sona çatacaq. Gələcəkdə Zəngəzur dəhlizinin açılması ilə bu kəmərdən təbii qaz əks istiqamətdə nəql olunacaq. Bu isə Azərbaycan və Türkiyənin tranzit imkanlarını daha da artıracaq.

Məlum olduğu kimi, 2006-cı ildən Naxçıvanın təbii qazla təminatı İranla svop əməliyyatları əsasında həyata keçirilir. Əməliyyatın şərtlərinə əsasən, SOCAR Astaradan qazı İran ərazisinə ötürür, İran Culfasından isə Naxçıvana qaz verilir. İranın bu əməliyyat üçün müəyyənləşdirdiyi haqq çox yüksəkdir. Belə ki, Astaradan ötürülən hər min kubmetr qaza görə Naxçıvana 15 faiz az qaz verilir. Dünyada belə əməliyyatlar üzrə faiz dərəcəsi isə 5-dən yüksək deyil.

İğdır–Naxçıvan qaz kəmərinin işə düşməsi bölgənin "mavi yanacaq"la təchizatının xeyli yaxşılaşdırılmasına səbəb olacaq. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarında yeni infrastruktur əhəmiyyətini bir daha vurğulayıblar.

İğdır–Naxçıvan qaz kəmərinin çəkilişini ölkələrimiz arasında qardaşlıq münasibətlərinin tarixində önəmli hadisə kimi dəyərləndirən Azərbaycan Prezidenti bunun əlaqələrimizə yeni təkan verəcəyini, Naxçıvanın enerji təhlükəsizliyini daha böyük ölçüdə təmin edəcəyini bildirib. Dövlətimizin başçısı qeyd edib ki, 2005-ci ildə İran İslam Respublikası ilə imzalanmış anlaşmaya görə, mübadilə yolu ilə İrandan Naxçıvana qazın verilməsi təmin edilmişdir. İğdır–Naxçıvan qaz kəmərinin çəkilişi isə ikinci xətt vasitəsilə Naxçıvana təbii qazın verilməsinə şərait yaradacaq.

Türkiyə Prezidenti isə bəyanatında İğdır–Naxçıvan qaz kəməri layihəsinin iki ölkə arasında enerji sahəsində ortaqlığı daha da dərinləşdirəcəyi kimi, Avropanın da enerji təhlükəsizliyinə töhfə verəcəyini bildirib.

Yeri gəlmişkən, Türkiyə ilə Azərbaycan arasında iqtisadi münasibətlər ildən-ilə dərinləşir. Qardaş ölkə Azərbaycanın İtaliyadan sonra ikinci ən böyük ticarət tərəfdaşıdır. Təkcə onu qeyd etmək kifayətdir ki, 2023-cü ilin 8 ayının göstəricilərinə görə, xarici ticarət dövriyyəsi 5,5 milyard dollar təşkil edib ki, bu da ölkələrimiz arasında idxal-ixrac əməliyyatlarının getdikcə artmasını təsdiqləyir. Azərbaycanın ixracının 16 faizi Türkiyənin hesabına formalaşır. İdxalın isə 13 faizi Türkiyənin payına düşür. Gələcəkdə xarici ticarət dövriyyəsinin 15 milyarda çatdırılması ilə Azərbaycan Türkiyənin 10 əsas iqtisadi tərəfdaşından birinə çevriləcək.



# 47 mindən çox dövlət ipoteka krediti verilib

**Bu günə qədər İpoteka və Kredit Zəmanət Fondu (İKZF) 47 min 7 nəfər borcalana 2 milyard 802,6 milyon manat kredit verib. Bu barədə İKZF-nin açıqlamasında bildirilir. Məlumatda, həmçinin qeyd olunur ki, indiyədək 377,754 milyon manat məbləğində biznes kreditlərinə zəmanət verilib, 4005 mənzil isə kirayəyə vermək yolu ilə realizə edilib.**

Xatırladaq ki, İKZF 2017-ci ilin sonunda "Azərbaycan İpoteka Fondu" və "Kredit Zəmanət Fondu" açıq səhmdar cəmiyyətlərinin birləşməsi nəticəsində yaradılıb və onların hüquqi varisidir. Fond milli maliyyə təsisatlarına uzunmüddətli subsidiyalaşdırılmış ipoteka kreditlərinin verilməsi və ucuz maliyyə resurslarına çıxışın təmin edilməsi ilə bağlı likvidlik dəstəyini verən dövlət agenti kimi fəaliyyət göstərir.

# Aqrar sahə ixracı genişləndirir

*88 ölkəyə 326 adda məhsul göndərilir*

**Hazırda Azərbaycan dünyanın 88 ölkəsinə 326 adda kənd təsərrüfatı məhsulu ixrac edir. İxracın 60 faizi MDB ölkələrinin payına düşür.**



Əsas məqsəd kənd təsərrüfatı və emal məhsulları ixracının şaxələndirilməsindən ibarətdir. Bunu İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin icraçı direktorunun müşaviri Tural Hacılı II Türk Dövlətləri Aqrobiznes Forumunda deyib.

Son 3 il ərzində Azərbaycanın kənd təsərrüfatı məhsullarının ixracında mütəmadi olaraq artımın baş verdiyini vurğulayan müşavir bildirib ki, hazırda İxracın və İnvestisiyaların Təşviqi Agentliyi ixracın genişləndirilməsi üçün əsas diqqəti Avropa bazarı, Fars körfəzi və Şərqi Asiya ölkələrinə yönəldib. O, həmçinin qeyd edib ki, mümkün diversifikasiya üçün bir sıra yeni mexanizmlər hazırlıq mərhələsindədir.

*XQ*

# Türk Dövlətləri Təşkilatı – dostluq və qardaşlıq qərargahı

(əvvəli 1-ci səhifədə)

Sentyabrın 16-da Bakıda TDT Kənd Təsərrüfatı Nazirlərinin II Toplantısının keçirilməsi və bu tədbirdə Quba şəhərinin adıçəkilən nüfuzlu qurumun kənd təsərrüfatı paytaxtı elan edilməsi də Azərbaycanın təşkilatla sıx bağlılığını göstərir. TDT tərəfindən belə bir etimad həm respublikamızın qurumda səmərəli fəaliyyəti, həm də dünya ölkələri üçün hazırda prioritetə çevrilən iqlim dəyişikliyi, su və torpaq ehtiyatlarının azalması, yüksək səviyyəli urbanizasiya kimi problemlərlə üzləşdiyi bir vaxtda dövlətimizin də bu çağırışlara biganə qalmaması ilə əlaqədardır. Çünki TDT üzv ölkələrdə, eləcə də Azərbaycanda yeni texnologiya və həllərin tətbiqi istiqamətində təcrübə mübadiləsi aparmaqla məhsuldarlığı artırmağa və dayanıqlı inkişafa maraqlıdır.

Xatırladaq ki, TDT qlobal kənd təsərrüfatı torpaq ehtiyatlarında 6,1 faiz, o cümlədən əkin sahələrində 3,9 faiz, kənd təsərrüfatı məhsullarının qlobal istehsalında 2,2 faiz, kənd təsərrüfatı və emal məhsullarının ixracında 2 faiz paya malikdir. Qurum iştirakçı dövlətlər arasında kənd təsərrüfatı sahəsində əməkdaşlığın genişləndirilməsi, ticarət dövriyyəsinin artırılması və qarşılıqlı maraq doğuran layihələri reallaşdırmaq imkanlarını daim diqqətdə saxlayır.

Şübhəsiz ki, Azərbaycan da bu məsələyə hər zaman həssaslıqla yanaşır, türk dövlətlərinin vahid rəqəmsal aqro-data platformasının yaradılması, TDT brendi altında birgə kənd təsərrüfatı və qida məhsullarının istehsalı ilə bağlı təklifləri təşkilata üzv ölkələrə təqdim edir və bu istiqamətdə layihələrin reallaşdırılmasına ciddi töhfələr verir.

TDT-nin Kənd Təsərrüfatı Nazirlərinin II Toplantısının Yekun Bəyannaməsində də bütün bu məsələr öz ifadəsini tapıb. Belə ki, sənəddə kənd təsərrüfatı və qida məhsulları üzrə ticarət dövriyyəsinin artırılması, qarşılıqlı sərmayələrin təşviqi, aqrar sahədə müasir texnologiyaların transferi, ən yaxşı təcrübələrin qarşılıqlı mübadiləsi, torpaq və su resurslarının səmərəli idarəsi, kənd təsərrüfatı sığorta sisteminin təşviq edilməsi kimi sahələr TDT-yə üzv dövlətlər arasında gələcək əməkdaşlığın əsas istiqamətləri olaraq diqqət çəkir.

II Türk Dövlətləri Aqrobiznes Forumunda da vurğulanan prioritetlər ətrafında geniş fikir mübadiləsi aparılıb. İclasda ölkəmizdə aqrar sahədə həyata keçirilən islahatlar və gələcək hədəflər, kənd təsərrüfatında məhsuldarlığın daha da artırılması, iqlimə uyğun yaşıl və rəqəmsal kənd təsərrüfatının yaradılması, həmçinin ixrac məhsullarının və coğrafiyasının şaxələndirilməsi bu sahənin dayanıqlı inkişafı üçün əsas prinsipləri olduğu bildirilib.

Yeri gəlmişkən, Prezident İlham Əliyev işğaldan azad olunan ərazilərimizi "yaşıl enerji zonası" elan edib və bu ərazilərin böyük aqrar potensiala malik olduğunu diqqətə çatdırıb. Hazırda qarşıya düşməndən təmizlənən torpaqlarda kənd təsərrüfatına yararlı sahələri minalardan təmizləyərək xəstəliklərdən azad, rəqəmsal və ən müasir təcrübə və texnologiyalara əsaslanan dayanıqlı kənd təsərrüfatı sistemi qurmaq kimi önəmli bir vəzifə qoyulub. TDT ölkələrinin iş adamlarında Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarında investisiya imkanları ilə tanış olmaq və burada ən yaxşı təcrübə və texnologiyaları tətbiq etmək marağı da buradan irəli gəlib.

Bu məqamda onu da bildirək ki, hazırda Azərbaycan dövlətinin gələcəyə yönələn əsas hədəfi işğaldan azad olunan əraziləri bərpa edərək həmin torpaqların dəyər zəncirinə inteqrasiyasını təmin etməkdir. Bu gün düşməndən təmizlənən yaşayış sahələrində böyük miqyasda bərpa-quruculuq işləri aparılır, minalar təmizlənir, yeni yollar, "ağıllı şəhər" və "ağıllı kənd"lər salınır.

Prezident İlham Əliyev tərəfindən "yaşıl enerji zonası" elan edilən işğaldan azad olunan ərazilərimiz böyük aqrar potensiala malik olmaqla, artıq 128 min hektar kənd təsərrüfatına yararlı torpaqlara sahibdir. İndi dövlətimiz qarşısında duran əsas vəzifə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında kənd təsərrüfatına yararlı torpaqları minalardan təmizləyərək xəstəliklərdən azad, rəqəmsal və ən müasir təcrübə və texnologiyalara əsaslanan dayanıqlı kənd təsərrüfatı sistemi qurmaqdır.

TDT-yə üzv ölkələrlə bağlı bəzi iqtisadi göstəricilərə də diqqət yetirək. Ötən il quruma daxil olan dövlətlərin öz aralarında həyata keçirdiyi ixracın dəyəri 33 milyard dollar olub. Həmin məbləğin 3,8 milyard dolları kənd təsərrüfatı məhsullarının payına düşüb. Ekspertlər tərəfindən bu göstəricilərin yetərli olmadığı, sözügedən sahədə mövcud potensialın hələ tam hərəkətə gətirilmədiyi bildirilib. Çünki BMT-nin Ticarət Mərkəzinin



tətqiqat metodologiyası əsasında aparılan hesablamalarla mövcud ixracın 70–75 faiz artırılması üçün böyük ehtiyat olduğu təsdiqlənib.

Azərbaycan türk dövlətləri arasında əməkdaşlığın dərinləşməsi prosesində aparıcı rola malik ölkələrdəndir. Rəsmi Bakı türk dövlətlərinin inteqrasiyası üçün fəal siyasi təşəbbüslərlə çıxış edir, iqtisadi maraqların uzlaşdırılması məqsədilə koordinasiyanın formalaşmasını gerçəkləşdirir. Bu, respublikamızın türk dövlətləri ilə iqtisadi münasibətlərində özünü aydın nəzərə çarpdırır. Məsələn, 2022-ci ildə Azərbaycanın Qazaxıstanla ticarət dövriyyəsi əvvəlki ilə nisbətən 4,4 dəfə artaraq 135 milyon 799 min dollardan 598 milyon 486 min dollaradək yüksəlməsi, Türkmənistanla dövriyyədə 5,1 dəfə artım qeydə alınması bunun bariz nümunəsidir.

Yeri gəlmişkən, ölkəmizin Türkmənistanla qarşılıqlı ticarətinin həcmi 2021-ci ildəki 105 milyon 23 min dollardan 2022-ci ildə 535 milyon 397 min dollara çatıb. Özbəkistanla ticarətdəki 64 faizlik artım birgə dövriyyəni 111 milyon 903 min dollardan 2022-ci ildə 183 milyon 307 min dollaradək yüksəldib.

Bu dövrdə Mərkəzi Asiyanın digər türk dövləti olan Qırğızıstanla da ticarət dövriyyəmizdə artım qeydə alınıb. Azərbaycanla bu ölkə arasındakı dövriyyə 2021-ci ildə 17 faiz artaraq 9 milyon 18 min dollardan 2022-ci ildə 10 milyon 809 min dollaradək yüksəlib. Qardaş Türkiyə ilə ticarət dövriyyəmiz isə ötən il 6 milyard dollara yaxınlaşıb: 2021-ci ildə 4 milyard 661 milyon dollar olan ticarət dövriyyəsi 2022-ci ildə 5 milyard 842 milyon dollaradək yüksəlib.

TDT-yə üzv ölkələr arasında iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi üçün son illərdə bir sıra layihələr reallaşdırılıb. Məsələn, Milli Məclisin 4 aprel 2023-cü il tarixli iclasında "Türk Dövlətləri Təşkilatının hökumətləri arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında" 2022-ci il noyabrın 11-də Səmərqənd şəhərində imzalanan saziş təsdiqlənib. Bununla da TDT hökumətlərinin gömrük orqanları arasında malların və nəqliyyat vasitələrinin hərəkəti ilə bağlı məlumat mübadiləsi asanlaşıb. Başqa sözlə, belə bir layihənin icrası nəticəsində təşkilata üzv hökumətlər arasında daşınan mallar və nəqliyyat vasitələri haqqında məlumatların elektron şəkildə mübadiləsi gerçəkləşib, nəticədə sürətli yük daşımaları, o cümlədən yük daşımaların həcmində nəzərəçarpacaq dərəcədə artıma nail olmaq reallaşıb.

"Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumətləri arasında beynəlxalq kombinə edilmiş yük daşımaları haqqında" sazişin təsdiqlənməsi isə Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu olan Orta Dəhlizin də praktiki əhəmiyyətinə müsbət təsir göstərib. Regionda baş verən yeni geosiyasi və geoiqtisadi reallıqlar çərçivəsində, 2020–2021-ci illərdə Orta Dəhliz üzrə yük daşımaları 350 min tondan 530 min tona qədər artıb.

Azərbaycanın bu proseslərdə fəal şəkildə iştirak etməsini yalnız qəbul edilən qanun layihələri ilə deyil, Zəngəzur Dəhlizi boyunca sürətlə aparılan işlərlə də müşahidə etmək mümkündür. Çünki Zəngəzur Dəhlizi də Orta Dəhliz üzrə Cənubi Qafqazdan keçən marşrutun diversifikasiyasına və türk dövlətləri arasında coğrafi baxımdan bağlantısına xidmət edir.

*Vaqif BAYRAMOV*
*XQ*

*Mən noyabrın 8-də Şuşanın azad edilməsi ilə əlaqədar xalqıma müjdə verərkən bildirmişdim ki, şəhidlərin ruhu qarşısında baş əyirəm. Birinci Qarabağ və İkinci Qarabağ müharibələrinin şəhidləri bizim qəlbimizdə əbədi yaşayacaq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların qəhrəmanlığı, fədakarlığı nəticəsində biz torplaqlarımıza qayıdırıq... Biz bu Qələbəyə görə onlara borcluyuq.*

**Azərbaycan Prezidenti İlham Əliyevin xalqa 10 noyabr 2020-ci il tarixli müraciətindən**

**Bəli, onların xatirəsinə ehtiram olaraq, müasir dünyanın ən qətiyyətli liderlərindən olan Prezident İlham Əliyev baş əydi. Onlar Vətən torpağında uyuyaraq yurdu, torpağı zinətləndirdilər. Onlar üçrəngli bayrağımızı sanki həbsdə imiş kimi inildəyən kənd və şəhərlərimizdə qaldıraraq dövlət rəmzimizi şərəfləndirdilər. Onlar öz rəşadət, mətanət və mərdlikləri ilə dünya hərb tarixini öyrədənlərə və öyrənənlərə "Azərbaycanın şanlı hərb səhifələri"ni bəxş etdilər. Onlar Birinci Qarabağ müharibəsindəki çoxsaylı ağrı-acılarımızın əhəmiyyətli dərəcədə azaldılmasına nail oldular.**

# Cənnət Qarabağda, cavan yaşında...

## Yazıldın tarixə, şəhid qardaşım...






... Yəqin, diqqətli oxucunun yadındadır ki, sərlövhəyə çıxardığımız məşhur ifadə ustad şairimiz Süleyman Rüstəmin "Yadıma düşdü" rədifli qəzəlindəndir. Həmin misranı bu yazının əvvəlinə gətirməyimiz də təsadüfi deyil. Çünki Anım Günü ərəfəsində – bəlkə də bir həftədir kütləvi informasiya vasitələrimiz və sosial şəbəkənin bütün seqmentləri təkrar-təkrar yazırlar ki, Vətən uğrunda şəhid olanların hamısı cənnətlikdir. Yəni Cənnət Qarabağda, cavan yaşında şəhid olanlarımız təkcə tarixə düşməyiblər, həm də dinimizin buyurduğu kimi, cənnətməkan olublar.

Yeri gəlmişkən, dünən bir axunddan belə bir fikir eşitdim: "Siz valideynlərinizə, qəzavü-qədər üzündən həlak olanlarınıza, yaşlaşıb və ya xəstələnib dünyasını dəyişənlərinizə rəhmət oxuyun, şəhidlərə yox! Çünki şəhidlər Allahın qarşısında o dərəcədə günahsız, tər-təmizdirlər ki, onların rəhmətə ehtiyacı yoxdur. Allah onlara rəhm edib, bütün günahları artıq bağışlanıb". Şəhidlər bir də ona görə xoşbəxtdirlər ki, sağlıqlarında onların 35-40, bəlkə də 50-60 ürəkdə yerləri var idisə, indi 50 milyonluq soydaşlarımızın hər birinin qəlbində daimi məskən salıblar.

... Yadımdadır, 20 Yanvar faciəsindən sonrakı günlərdə Şəhidlər xiyabanına yaxın getmək olmurdu. Çünki orada səsləndirilən qəmli musiqilər, instrumental muğamlar adamın ürəyini dağlayırdı. Mən o zaman yazmışdım ki, "Nə qədər belə gün olubmuş, Allah, bu dərdli muğamlar yarana bilib?" O faciədə verdiyimiz şəhidlərin sayı heç 150-yə çatmırdı. Amma üzülürdük, ölürdük, sınırdıq. Çünki təklənmişdik, haqqımız tapdalanmışdı, heysiyyatımız təhqir olunmuşdu, torpaqlarımızın işğalına zəmin yaranmışdı. On minlərlə şəhid verəcəyimiz ağır günlər başlanmışdı. Xocalı soyqırımı və digər faciələrimizdə də belə idi: üzülürdük, ölürdük.

2020-ci ilin payızındakı 44 günlük Vətən müharibəsində isə yenə də çox sayda şəhidlər verdik, amma sınmadıq, əyilmədik, əksinə, bədxahlarımızın gözünün içinə baxa-baxa dedik ki, bizimlə hədə dilində danışmaq, ordumuza qarşı çıxmaq, dövlətimizlə zarafat eləmək heç kəsə xeyir gətirməz və gətirməyəcək.

Biz həmin 44 gündə torpaqlarımızın düşmən tapdağından azad edilməsinə nail olduq, işğalçı orduya diz çökdürdük, "yeni ərazilər üçün yeni müharibələr"ə hazırlaşanlar kapitulyasiya aktına imza atmaq məcburiyyətində qaldılar, dünyanın hər yerindəki havadarları onların harayına çata bilmədilər. Düşmənin iki əsr müddətində qurduğu fitnə-fəsad torlarını darmadağın etdik, bütün azərbaycanlıların üstündən "məğlub xalq" damğasını sildik, milli ruhumuz dirçəldi, mənəvi üzağlığımız bərpa olundu. Bütün bunlara görə isə Prezidentimiz şəhidlərin qarşısında baş əydi. Təəssüf ki, 20 Yanvar faciəsi kimi ağır günlərimiz tarixdə çox olsa da, 8 Noyabr kimi günlərimiz az olub. Belə günlərin şəninə isə hansısa kədərli muğam yox, bütün türk dünyasını dolaşan qəhrəmanlıq mahnılarımız yaranıb.

Bilmirəm, yerinə düşər, ya yox, mən bu tarixi Anım Günündə ordumuzun, xalqımızın və təbii ki, Ali Baş Komandanımızın qazandığı Zəfər haqqında danışarkən bir bənzətmə aparmaq istəyirəm: İndi artıq uşaq da bilir ki, əgər 1993-cü ildə ulu öndər Heydər Əliyev ölkədə siyasi hakimiyyətə qayıtmasaydı, Azərbaycanın dövlət müstəqilliyinin qorunması, əbədiləşdirilməsi nəinki çətin olacaqdı, heç mümkün olmayacaqdı. Yəni Heydər Əliyev mümkün olmayanı mümkün etmişdi.

Son illərdə şahidi olduğumuz tarixi faktlar isə sübut edir ki, hərgah Azərbaycan xalqı 2003-cü ildə İlham Əliyevə səs verməsəydi, nəinki torpaqlarımız işğaldan azad edilməyəcəkdi, üstəlik, yeni ərazilər də itirəcəkdik. Hətta 44 günlük müharibənin olub-olmayacağını da deyə bilmirik. Bildiyimiz odur ki, Azərbaycanın bütün uğurlarının təməlini Heydər Əliyev qoymuş, həmin işləri Prezident İlham Əliyev yekunlaşdırmışdır. Məhz cənab Ali Baş Komandanımızın rəhbərliyi ilə 44 günlük müharibədə torpaqlarımız işğaldan azad edildi, Laçın sərhəd-nəzarət-buraxılış məntəqəsinin yaradılması ilə ərazi bütövlüyümüz bərpa edildi. Sentyabrın 19-dakı lokal antiterror tədbirləri ilə isə bütün ərazilərimizdə suverenliyimiz təmin olundu. Üstəlik, beynəlxalq aləmdəki dostlarımız bizi daha böyük uğurların gözlədiyini də deyirlər.

Elə bu qeydlərimi də cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin sözləri ilə tamamlamaq istəyirik: "Bu müharibə bütün dünyaya Azərbaycan xalqının nə qədər böyük xalq olduğunu göstərdi... Fəxr edirik xalqımızla, ordumuzla! Əminəm, hər bir Azərbaycan vətəndaşı hesab edir ki, onun həyatında bu günlər, bu dəqiqələr ən xoşbəxt günlər, dəqiqələrdir. Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq! Bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz!"

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***

# Ərdoğandan Anım Günü ilə bağlı paylaşım




**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 27 Sentyabr – Anım Günü ilə bağlı paylaşım edib.**

XQ xəbər verir ki, Ərdoğanın "X" hesabında edilən paylaşımda deyilir:

"Qarabağın və işğal altındakı Azərbaycan torpaqlarının dastan kimi azadlıq mübarizəsinin başlanğıcı olan Anım Günündə bütün şəhidlərimizi rəhmətlə, qazilərimizi hörmətlə yad edirəm. Qarabağ Azərbaycandır!"

# Pilotlarımız səmada "Xarıbülbül" çəkdi

**"Azərbaycan Hava Yolları" aviaşirkəti ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olmuş qəhrəmanlarımızın xatirəsini yad edib.**




AZAL-ın pilotları səmada Azərbaycanın torpaqlarının azadlığı uğrunda canlarından keçərək şəhid olan əsgərlərimizin əziz xatirəsinin rəmzi - Xarıbülbül çiçəyinin konturunu çəkiblər.

Hər il sentyabrın 27-də ölkəmizdə şəhidlərimizə ən yüksək hörmət əlaməti kimi Anım Günü qeyd olunur. Birliyimiz üçün şəhidlik zirvəsinə ucalan igid oğullarımızın Anım Günü milli iradənin, milli ruhun və ləyaqətin təntənəsi günüdür. Xarıbülbül isə qürur, qələbə və əbədiyyət nümunəsidir.

Hava gəmisinin qeyri-adi marşrutu dünyanın bütün təyyarələrinin uçuş trayektoriyalarının qeydə alındığı xüsusi saytda – "FlightRadar"da nümayış etdirilib.

Bu möhtəşəm təsvir "Azərbaycan Hava Yolları"nın "Laçın" adlı "Airbus 320 neo" təyyarəsi ilə yaradılıb.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2 dekabr 2020-ci il sərəncamına əsasən, Vətən müharibəsində qəhrəmancasına döyüşən, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandıran, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda edən əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq sentyabrın 27-si tarixi respublikamızda Anım Günü kimi qeyd olunur.

***XQ***

# "Dəmir yumruğ"un ilk zərbə dalğası

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusu sonradan "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi 30 illik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.**

Vətən savaşının ilk günündə–sentyabrın 27-də Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ermənistan silahlı qüvvələrinin saat 6 radələrindən etibarən genişmiqyaslı təxribatlar törədərək ordumuzun cəbhəboyu zonada yerləşən mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və ağır artilleriya qurğularından intensiv atəşə tutması barədə məlumat yaydı.

Saat 12 radələrində Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət etdi. Dövlətimizin başçısı müraciətində sentyabrın 27-si səhər Ermənistan silahlı qüvvələrinin bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutması, mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananların olması barədə məlumat verdi. Dövlətimizin başçısı Silahlı Qüvvələrimizin düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirdiyini və bunun nəticəsində düşmənin bir çox hərbi texnikalarının sıradan çıxarıldığını bildirdi.

Günorta saatlarında isə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevə telefonla zəng etdi. Qardaş ölkənin dövlət başçısı Türkiyənin həmişə olduğu kimi, bu ağır gündə də Azərbaycanın yanında olduğunu vurğuladı.

Vətən müharibəsinin ilk günündə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirildi. Dövlətimizin başçısı Ermənistan silahlı qüvvələrinin təxribatlarının qarşısının alınması ilə bağlı verdiyi göstərişlər əsasında ordumuzun genişmiqyaslı əks-hücum əməliyyatına başladığını elan etdi. İclasda Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatı nəticəsində düşmənin ön xəttinin yarıldığı, altı kəndin– Qaraxanbəyli, Nüzgar, Yuxarı Əbdürrəhmanlı, Böyük Mərcanlı, Kənd Horadiz, Qərvənd yaşayış məntəqələrinin işğaldan azad edilməsi barədə xalqımıza ilk müjdə verildi.

Sentyabrın 27-si saat 19 radələrində Prezident İlham Əliyev ölkəmizdə hərbi vəziyyətin elan edilməsi haqqında fərman imzaladı. Fransa Respublikasının Prezidenti Emmanuel Makron dövlətimizin başçısına telefonla zəng etdi. Saat 18:30-da isə Müdafiə Nazirliyi cəbhənin Goranboy istiqamətində qoşunlarımızın keçirdiyi hərbi əməliyyat nəticəsində Murov dağı silsiləsindəki Murov zirvəsinin azad olunması barədə məlumat yaydı.

Müharibənin ikinci günündə isə Prezident İlham Əliyevin sərəncamına əsasən, Azərbaycan Respublikasında qismən səfərbərlik elan edildi, komendant rejimi qüvvəyə mindi. Silahlı Qüvvələrimizin uğurlu əməliyyatı nəticəsində Murovdağ zirvəsi işğaldan azad olundu, mühüm əhəmiyyətə malik Basarkeçər–Ağdərə avtomobil yolu Azərbaycanın nəzarətinə keçdi.

Vətən savaşının ilk günlərindən Ermənistanın bu müharibəyə çoxdan hazırlaşdığı, işğalçı ordusunun tərkibində bir sıra xarici ölkələrdən cəlb etdiyi döyüşçülərin olduğu da üzə çıxdı. Müdafiə Nazirliyi mətbuat xidmətinin sentyabrın 28-də yaydığı məlumatda Ermənistan tərəfinin itkiləri arasında Suriya və Yaxın Şərqdən gətirilən erməni əsilli muzdluların da olması bu faktın təsdiqi idi.

Müharibənin ikinci günündə, eyni zamanda, Tərtər rayonunun Talış kəndi ətrafındakı əlverişli yüksəkliklər düşməndən təmizləndi, işğalçı ordunun xeyli sayda canlı qüvvəsi məhv edildi. Ağdərə istiqamətində düşmənin artilleriya bölmələrinə zərbələr endirildi, düşmən geri çəkildi. İşğalçının iki tankı, xeyli qüvvəsi , çoxlu sayda digər hərbi texnikası məhv edildi. Bütün bunlarla bərabər, ordumuz tərəfindən işğalçının 3 silah–sursat anbarı, onlarla texnikası və 550-dən çox canlı qüvvəsi sıradan çıxarıldı.

Sentyabrın 28-də, həm də BMT-nin Baş katibi Antonio Quterreşin təşəbbüsü ilə Prezident İlham Əliyev arasında videokonfrans formatında görüş keçirildi. Dövlətimizin başçısı Baş katibə Ermənistanın Azərbaycana qarşı törətdiyi hərbi təxribatla bağlı hadisələrin gedişinə dair məlumat verdi.

Ölkə rəhbəri söhbət zamanı Antonio Quterreşə sentyabrın 27-də Ermənistan təmas xətti boyunca Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini və yaşayış məntəqələrimizi ağır artilleriyadan atəşə tutduğunu və bunun nəticəsində mülki şəxslərimizin və hərbi qulluqçularımızın həlak olduqlarını diqqətə çatdırdı. Prezident İlham Əliyev yalnız bundan sonra Azərbaycan tərəfinin özünümüdafiə məqsədilə uğurlu əks-hücum əməliyyatlarına başladığını vurğuladı.

Dövlətimizin başçısı BMT-nin Baş katibi ilə söhbətində Ermənistan tərəfinin belə hərbi təxribatları davamlı olaraq törətdiyini də xatırladıb. Bildirib ki, işğalçı ölkə 2020-ci ilin iyul ayında Azərbaycan–Ermənistan dövlət sərhədində buna oxşar təxribat həyata keçirib, avqust ayında isə erməni diversiya dəstəsi təmas xəttini keçməyə cəhd edib. Eyni zamanda, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərinə başqa ölkələrdən xarici vətəndaşların qanunsuz məskunlaşmasını həyata keçirib ki, bu da Cenevrə Konvensiyasına görə beynəlxalq hüququn ciddi pozulmasıdır.




***XQ***

# Unutmaz bu Vətən, bu Xalq sizləri

## Paytaxt şəhidləri dərin ehtiramla yad etdi

**27 Sentyabr – Anım Günündə paytaxtın bütün qurumlarında – nazirliklərdə, idarə və müəssisələrdə, təhsil və mədəniyyət ocaqlarında Vətənin azadlığı və ərazi bütövlüyü uğrunda qurban getmiş şəhidlərin xatirəsi ehtiramla yad edilib. Keçirilən toplantılarda və şəhid məzarlarının ziyarəti mərasimlərində tarixi Zəfərlə bitən Vətən müharibəsinin qəhrəmanlıq tariximizdə ən şərəfli və mükəmməl savaş olduğu vurğulanıb.**



### Yeni Azərbaycan Partiyası

Anım Günündə Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatının məsul əməkdaşları, Gənclər Birliyinin üzvləri, partiyanın Bakı şəhəri üzrə rayon təşkilatlarının nümayəndələri Bakıda inşası davam etdirilən Zəfər parkında olublar.

Saat 12:00-da Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Sonra YAP nümayəndələri Zəfər parkının girişində xatirə daşının önünə gül dəstələri düzüb, qəhrəman Vətən övladlarını dərin hörmət və ehtiramla anıblar.

### Müdafiə Nazirliyi

Anım Günü ilə əlaqədar Azərbaycan Ordusunun birlik, birləşmə və hərbi hissələrində, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində silsilə tədbirlər keçirilib.

Nazirliyin şəxsi heyətləri şəhidlər xiyabanlarını ziyarət ediblər.

Tədbirlər çərçivəsində ictimai-siyasi hazırlıq dərsləri, dəyirmi masalar, konfranslar təşkil olunub, Vətən müharibəsinə həsr olunan sənədli filmlər və videoçarxlar nümayiş etdirilib. Çıxış edənlər Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı şanlı qələbənin tarixi əhəmiyyətindən, xalqımızın qələbədəki rolundan, qəhrəman oğullarımızın igidlik və şücaət nümunələrindən, eləcə də şəhidlərimizin əziz xatirələrindən danışıblar.

Anım Günü münasibətilə müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti İkinci Şəhidlər xiyabanını ziyarət ediblər. Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün təmin olunması uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, ruhlarına dualar oxunub, məzarları ziyarət edilərək üzərlərinə gül dəstələri düzülüb. Nazir Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti şəhidlərin ailə üzvləri və yaxınları ilə görüşüb, onların qayğıları ilə maraqlanıblar.

Həmin gün müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Bakıda inşası davam etdirilən Zəfər parkında olublar. Nazirliyin rəhbərliyi və bir qrup şəxsi heyəti parkın girişindəki xatirə daşının üzərinə gül dəstələri qoyublar.

### Daxili İşlər Nazirliyi

Daxili İşlər Nazirliyi Anım Günü münasibətilə Azərbaycan Dövlət Akademik Musiqili Teatrında mərasim keçirib.

Daxili işlər nazirinin müavini polis general-leytenantı İsmət Əliyev Müzəffər Ali Baş Komandan İlham Əliyevin vahid komandanlığı altında dəmir yumruq kimi birləşən Silahlı Qüvvələrimiz, o cümlədən Daxili İşlər Nazirliyinin hərbi qulluqçularının və polis əməkdaşlarının Vətən müharibəsində, o cümlədən cari ilin 19–20 sentyabr tarixlərində Qarabağ ərazisində keçirilən lokal xarakterli antiterror tədbirləri zamanı şərəfli döyüş yolu keçdiyini vurğulayıb.

Mərasimdə şəxsi heyətin Murovdağdan Şuşaya qədər gedən döyüşlərdə iştirak etdiyini qeyd edən məruzəçi torpaqların azad olunması zamanı 66 nəfərin şəhidlik zirvəsinə ucaldığını, 346 nəfərin yaralandığını, 4 nəfərin "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görüldüyünü, minlərlə əməkdaşın isə orden və medallarla təltif olunduğunu qeyd edib. Diqqətə çatdırılıb ki, ölkə başçısının xüsusi diqqət və qayğısı ilə əhatə olunmuş hərbi qulluqçularımız və polis əməkdaşları bilik və bacarıqlarını, peşəkarlıqlarını artırmaqla onlara göstərilən bu etimadı doğrultmaq üçün səy və bacarıqlarını əsirgəmirlər.

### Ədliyyə Nazirliyi

Anım Günü ilə bağlı Ədliyyə Nazirliyində və struktur qurumlarda tədbirlər keçirilib. Ədliyyə naziri Fikrət Məmmədov və nazirliyin rəhbər heyəti Bakıda inşası davam etdirilən Zəfər parkında olub, parkın girişində xatirə daşının önünə gül dəstələri qoyublar.

İkinci Fəxri xiyabanda torpaqlarımızın azadlığı və suverenliyi uğrunda şəhid olmuş qəhrəmanlarımızın məzarları ziyarət olunaraq üzərinə tər çiçəklər düzülüb, o cümlədən şəhid ədliyyə işçisi Ruhin Xəlilovun xatirəsi anılıb, nazirlikdəki barelyefi önünə gül səbəti qoyulub.

Tədbirdə qürur mənbəyimiz olan qəhrəman şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilərək onların xalqımızın qəlbində əbədi yaşayacağı bildirilib.

### Dövlət Sərhəd Xidməti

Anım Günü münasibətilə Dövlət Sərhəd Xidmətinin rəhbər heyəti əvvəlcə İkinci Fəxri xiyabanı, sonra Hərbi Qənimətlər Parkını ziyarət edib.

Ölkəmizin ərazi bütövlüyünün bərpası, torpaqlarımızın işğaldan azadlığı uğrunda şəhadətə qovuşan Vətən övladlarının əziz xatirəsi ehtiramla yad edilib, məzarları üzərinə gül dəstələri düzülüb. DSX aparatında keçirilən tədbirdə tariximizin ən böyük sərkərdəsi, Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə "Dəmir yumruq" əməliyyatı nəticəsində 30 illik işğala son qoyularaq ərazi bütövlüyümüzün bərpa olunduğu, 44 gün davam edən Vətən müharibəsinin xalqımızın parlaq Qələbəsi ilə başa çatdığı, tarixi Zəfərimizin təmin edildiyi vurğulanıb.

Mərasimdə torpaqlarımızın azad edilməsi uğrunda aparılan haqq savaşında Silahlı Qüvvələrin, o cümlədən Dövlət Sərhəd Xidmətinin şəxsi heyəti arasında şəhidlik zirvəsinə yüksələn hərbçilərin fədakarlığının yaddaşlardan silinməyəcəyi, onların gələcək nəsillərə qoyduğu qəhrəmanlıq mirasının daim uca tutulacağı bildirilib.

### Dövlət Təhlükəsizliyi Xidməti

Anım Günü ilə bağlı Bakı Bələdiyyə Teatrı Dövlət Təhlükəsizliyi Xidmətinin Mədəniyyət Mərkəzində "Unutqanlıq qorxunc bəladır" adlı tamaşa səhnələşdirib.

DTX-nin əməkdaşlarının, ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbirdə nümayiş etdirilən, Azərbaycan xalqının məruz qaldığı soyqırımı və digər faciəvi hadisələrdən bəhs edən tamaşa qonaqların böyük marağına səbəb olub.

### SHXÇDX

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi Mürsəl İbrahimov və xidmətin rəhbər heyəti də İkinci Şəhidlər xiyabanını ziyarət ediblər. Vətən övladlarının xatirəsi anılıb, məzarları üzərinə gül dəstələri düzülüb və şəhid ailələrinə dərin ehtiram ifadə edilib.

### Konstitusiya Məhkəməsi

Dünən Konstitusiya Məhkəməsinin hakimləri və aparatın məsul əməkdaşları Hərbi Qənimətlər Parkını ziyarət ediblər. Sonra Anım Günü ilə bağlı tədbir keçirilib.

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev diqqətə çatdırıb ki, 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin Azərbaycana növbəti dəfə təxribatının qarşısının alınması məqsədilə Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə müzəffər Ordumuzun əks-hücum əməliyyatı nəticəsində uzun illər düşmən işğalı altında olan torpaqlarımız azad edilib. 44 gün ərzində Qələbə qazanmağımız ilk öncə Prezident İlham Əliyev tərəfindən həyata keçirilən məqsədyönlü siyasət, Azərbaycan Ordusunun Vətənə məhəbbəti və xalqımızın "Dəmir yumruq" kimi Müzəffər Ali Baş Komandanın ətrafında birləşməsinin nəticəsi idi.

Azərbaycan Respublikasının Konstitusiyasının hüquqi qüvvəsinin bugünlərdə Qarabağda da bərpa olunmasının ulu öndər Heydər Əliyevin 100 illiyinə təsadüf olması isə rəmzi xarakter daşıyır.

### AMEA

AMEA Rəyasət Heyəti və Tarix İnstitutunun birgə təşkilatçılığı ilə Anım Günü münasibətilə "Böyük zəfərdən tam və qəti qələbəyədək" adlı elmi konfrans keçirilib.

AMEA-nın vitse-prezidenti vəzifəsini icra edən, Şərqşünaslıq İnstitutunun baş direktoru akademik Gövhər Baxşəliyeva Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, Şanlı Ordumuzun rəşadəti, xalq və dövlətin birliyi ilə 2020-ci ilin 27 sentyabrında başlayan və 44 gün davam edən İkinci Qarabağ müharibəsində qazanılan zəfərin Azərbaycan tarixinin ən parlaq səhifələrindən biri olduğunu söyləyib. Bildirib ki, bu Qələbə xalqımızın və ordumuzun gücünü, birliyini, mübarizliyini bütün dünyaya sübut edib. Azərbaycan xalqı hər zaman qəhrəman övladlarının xidmətlərini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna hörmət və ehtiram göstərir, əziz xatirəsini uca tutur.

### Ədəbiyyat Muzeyi

Dünən Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində Anım Günü ilə bağlı tədbir keçirilib.

Muzeyin direktoru, akademik Rafael Hüseynov bildirib ki, Azərbaycan təqvimində bu gün şəhidlərimizin anma günüdür. Respublikamızın dörd bir yanında İkinci Qarabağ müharibəsində şəhid olanların xatirəsi yad edilir. Natiq diqqətə çatdırıb ki, 2020-ci ilin sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsi ərmənilərin 30 ilə yaxın işğal altında saxladığı torpaqlarımızın azad edilməsi ilə başa çatdı. Bu Zəfər savaşında minlərlə əsgər və zabitimiz qəhrəmancasına şəhidlik zirvəsinə ucaldı. Xalqımız həmişə öz qəhrəman oğulları ilə fəxr edir.

### Mərkəzi kitabxana

Azərbaycan Milli Kitabxanasında da 27 Sentyabr Anım Günü ilə bağlı mərasim keçirilib.

Kitabxananın direktoru, professor Kərim Tahirov üç il əvvəl sentyabrın 27-də Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə başlayan və 44 gün davam edən Vətən müharibəsində igid, cəsur, qəhrəman oğullarımızın, ayağa qalxaraq, canı, qanı bahasına torpaqlarımız uğrunda gedən haqq mübarizəsindən danışıb.

Kərim Tahirov Vətən müharibəsində savaşımızda çoxsaylı şəhidlər verildiyini, bu günümüzə görə onlara borclu olduğumuzu, yüz illər keçsə də, Azərbaycan xalqının heç vaxt öz şəhidlərini unutmayacağını, onların xatirələrinin ehtiramla yad ediləcəyini, onlar haqqında yazılan kitabları təbliğ etməyin Milli Kitabxananın vəzifəsi olduğunu söyləyib.

### Ali məktəblər

Bakı Dövlət Universitetinin kollektivi 27 Sentyabr – Anım Günü ilə əlaqədar Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edib.

Ali məktəbin kollektivi Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla anaraq, məzarları üzərinə əklil və gül dəstələri qoyub. BDU-nun 2 saylı tədris binasının qarşısında şəhidlərin xatirəsinə ucaldılmış abidənin önünə də gül dəstələri düzülüb, şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib.

BDU-da Anım Gününə həsr olunmuş xüsusi dərslər keçirilib. Elmi Kitabxana "27 Sentyabr - Anım Günü" adlı kitab sərgisi təşkil edib.

***

Anım Günündə Azərbaycan Dövlət İqtisad Universitetinin kollektivi Vətən uğrunda canlarını fəda edərək şəhidlik zirvəsinə ucalmış məzun və tələbələrinin məzarlarını ziyarət edib, onların ailələrinə baş çəkib.

Rektor Ədalət Muradov və universitetin müəllim-tələbə heyəti Bakı şəhəri, II Fəxri xiyabanda şəhid Əsəd Əsədlinin, Ülvi Hacıyevin, Mixail Həmidovun və Teymur Məcidzadənin məzarı önünə əklil və gül dəstələri düzərək, onların əziz xatirələrini dərin ehtiramla yad ediblər. Bakı, Abşeron, Sumqayıt, Ağdaş, Sabirabad, İsmayıllı, Qəbələ, Biləsuvar, Qax, Ağstafa və Gədəbəyə ezam olunan fakültə və struktur rəhbərləri, tələbə təşkilatlarının sədrləri, müəllim və tələbələr şəhid məzarlarını ziyarət ediblər.

Anım Günü münasibətilə UNEC-in 47 şəhid məzun və tələbəsinin xatirəsinə ucaldılan Memorial-Xatirə Kompleksi də ziyarət olunub. Abidə kompleksinin önünə əklil qoyularaq, şəhidlərin əziz xatirəsi anılıb.

***

Anım Günü münasibətilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, professor Cəfər Cəfərov və universitetin müvafiq struktur rəhbərləri Bakıda inşası davam etdirilən Zəfər parkını ziyarət ediblər.

Universitet kollektivi parkın girişində xatirə daşının önünə gül dəstələri qoyub, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsini ehtiramla yad edib.

***

Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) 27 Sentyabr – Anım Günü münasibətilə tədbir keçirilib.

Şəhid məzun və tələbələrinin xatirəsinə ucaldılan Memorial-Xatirə Kompleksinin önündə keçirilən anım tədbirində şəhid ailələri, qazilər, müharibə iştirakçıları, universitet rəhbərliyi, müəllimlər və tələbələr iştirak ediblər. Rektor Gülçöhrə Məmmədova Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuzun 44 günlük Vətən müharibəsində əldə etdiyi Qələbədən danışıb.

***

Azərbaycan Texniki Universitetində də Anım Gününə həsr olunan tədbir keçirilib.

İştirakçılar əvvəlcə universitetin Şəhidlər abidəsinin qarşısında torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsini anıblar.Mərasimdə AzTU-nun rektoru Vilayət Vəliyev, Milli Məclisin deputatı, tarix elmləri doktoru professor Anar İsgəndərov, Gənclər Fondunun icraçı direktorunun müavini Orxan Ərəbov, "Böyük Qayıdış" Gənclər Təşkilatının sədri Nail Şükürov, bu təşkilatın idarə heyətinin üzvü Əhliyyət Mehdiyev, Vətən müharibəsi iştirakçısı Elşad Təhməzov və digər şəxslər çıxış ediblər.

***

Azərbaycan Dillər Universitetində Anım Günü ilə bağlı tədbir keçirilib. Mərasimdə universitetin əməkdaşları, müəllimlər və tələbələr iştirak ediblər.

Rektor Kamal Abdulla 27 Sentyabrın Azərbaycan tarixinə qızıl hərflərlə həkk olunduğunu deyib: "Bu gün Azərbaycan öz ərazi bütövlüyünü tam olaraq bərpa edib. Bu, böyük tarixi uğurdur və gələcəkdə Azərbaycanın daha parlaq və işıqlı bir dövlət kimi mövcudluğunun təminatçısıdır. Bu tarixi hadisə dünya xalqlarına çatdırılması və Azərbaycanın haqq işinin hər kəsə məlum olması baxımından önəmlidir. Biz şəhidlərimizə, qazilərimizə borcluyuq. Bu borcu öz işimizdə, layiqli xidmətimizlə göstərməliyik. İnanıram ki, hər birimiz bu böyük arixi günün əhəmiyyətini və məsuliyyətini dərk edib Azərbaycanın daha da inkişaf etməyinə təkan verəcəyik".

### Bakı Şəhəri üzrə Təhsil İdarəsi

Azərbaycanın Milli Qəhrəmanı, şəhid general-mayor Polad Həşimovun həyat yoldaşı, BŞTİ-nin əməkdaşı Ofelya Salmanova Anım Günü ilə əlaqədar paytaxtın bir sıra ümumi təhsil müəssisələrində olub, Vətən müharibəsi şəhidlərinin ailə üzvləri ilə görüşüblər.

Görüş iştirakçıları öncə təhsil müəssisələrində şəhidlərin xatirəsinə yaradılmış guşələri ziyarət edib, önünə tər çiçəklər düzüblər.

Paytaxtdakı 226 nömrəli tam orta məktəbdə şəhid anası, təhsil müəssisəsinin direktoru Arzu Məmmədova ilə görüşən M.Vəliyeva 27 sentyabrın Azərbaycanın müasir tarixindəki rolundan danışıb. Bildirib ki, bu tarix nəinki 30 illik işğala son qoyulduğu, eyni zamanda, ermənilərin xalqımıza qarşı tarixi düşmənçilik siyasətinə layiqli cavabın verildiyi gündür.

### Bakı Metropoliteni

Bakı metropolitenində iş günü şəhidlərimizin xatirəsinin anım mərasimi ilə başlanıb.

"Nərimanov" elektrik deposunda "Bakı Metropoliteni" QSC-nin rəhbərliyi və kollektivinin nümayəndələri 20 Yanvar və Vətən müharibəsinin metropolitençi şəhidlərinin abidəsini ziyarət ediblər. Mərasimdə 2020-ci il sentyabrın 27-də Ermənistanın silahlı qüvvələrinin beynəlxalq hüquq normalarını kobud surətdə pozaraq, müxtəlif növ silahlardan istifadə etməklə yaşayış məntəqələrini və hərbi mövqeləri atəşə tutmasına cavab olaraq, hücumların qarşısının alınması məqsədilə əks-hücum əməliyyatlarının başlanması və bunun nəticəsində cəmi 44 gün ərzində torpaqlarımızın işğaldan azad edilməsi qeyd olunub.

**Hazırladı: T.RÜSTƏMLİ**
**XQ**

## Şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla anılıb

**Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi sentyabrın 27-də saat 12:00-da ölkə bütün ölkə ərazisində bir dəqiqəlik sükutla yad olunub.**



İnsanlar şəhid əsgər və zabitlərimizin ruhları qarşısında baş əyib, onların xatirəsinə dərin ehtiramlarını bir dəqiqəlik sükutla ifadə ediblər. Sükut dəqiqəsi zamanı dövlət bayraqları endirilib, nəqliyyatın hərəkəti dayanıb, avtomobillərdən səs siqnalları verilib.

**XQ**

# Müqəddəs savaşın ölməz qəhrəmanları

## Şəhidlərin xatirəsinə bölgələrdə ehtiram

**Dünən ölkəmizin bütün şəhər və rayonlarında Prezident İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli sərəncamına əsasən qeyd olunan Anım Günü münasibətilə şəhidləri yadetmə tədbirləri keçirilib. Sübh tezdən axın-axın şəhidlər xiyabanlarına gələn ictimaiyyət nümayəndələri Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü uğrunda mübarizədə canlarını fəda etmiş əsgər və zabitlərimizin, bütün şəhidlərimizin məzarlarını ziyarət edib, xatirələrinə dərin ehtiramlarını bildiriblər. Saat 12:00-da şəhidlərin xatirəsi ölkəmizin bütün ərazisində bir dəqiqəlik sükutla yad olunub.**












### NAXÇIVAN

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbdə 27 sentyabr-Anım Gününə həsr olunan dərsdə iştirak edib.

Səlahiyyətli nümayəndə bildirib ki, işğalçı Ermənistanın 2020-ci ilin iyul ayında Azərbaycan Respublikasının dövlət sərhəddinin Tovuz rayonu istiqamətində törətdiyi genişmiqyaslı hücum və ondan sonrakı təxribatlar Azərbaycanın əks-hücum əməliyyatlarına başlaması ilə nəticələndi. Müzəffər Ali Baş Komandanımız, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 gün ərzində şanlı ordumuz böyük zəfərə imza atdı, torpaqlarımızı işğaldan azad etdi. Vətən müharibəsi ilə ordumuz Ermənistan ordusunun məğlubedilməzlik mifini məhv etdi.

Qarabağ iqtisadi rayonunda aparılan uğurlu lokal anti-terror tədbirləri sayəsində suverenliyimizin bərpa olunmasından bəhs edən səlahiyyətli nümayəndə vurğulayıb ki, biz bu uğurları şəhidlərimizə və qazilərimizə borcluyuq. Onlar bizim qürur mənbəyimizdir: "Siz isə olduqca şanlı bir dövr yaşayırsınız. Sizin gəncliyiniz elə bir dövrə təsadüf edir ki, bu dövr Azərbaycanın yeni yüksəliş dövrüdür. Bu vəzifə də sizin üzərinizə düşür. Çalışın ki, şəhidlərimizi və qazilərimizi heç vaxt unutmayasınız və unutdurmayasınız".

### GƏNCƏ

Azərbaycanın 2-ci böyük şəhərində Anım Günü ilə əlaqədar olaraq inzibati və yaşayış binalarından Azərbaycan və Türkiyə bayraqları asılıb.

Anım mərasimində Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Quru Qoşunlarının iki general-mayoru Vasif Kazımov və İslam Əmirağayev, Türkiyənin Gəncədəki Baş konsulu, YAP Gəncə şəhər təşkilatının sədri, Qafqaz Müsəlmanlar İdarəsinin Qazılar Şurasının nümayəndəsi, Rus Pravoslav Kilsəsinin Baş keşişi, Gəncədəki Yəhudi Dini İcmasının sədri, eləcə də idarə, müəssisə və təşkilat rəhbərləri, müharibə iştirakçıları, şəhid ailələri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə itkin düşmüş hərbçilərin adları əks olunan abidə ziyarət olunub, önünə əklil və gül dəstələri düzülüb. Hərbi orkestrin ifasında Dövlət himnimiz səsləndirilib.

Tədbirdə bildirilib ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün qarşısını almaq məqsədilə 2020-ci il sentyabrın 27-dən Azərbaycan Respublikasının Silahlı Qüvvələri Ali Baş Komandanın rəhbərliyi altında bütün cəbhə boyu əks-hücum əməliyyatına başlayıb. Vətən müharibəsində 3 minə qədər şəhidimiz olub, mindən çox əsgər yaralanıb, 7 nəfər itkin düşüb. Gəncə şəhəri Vətən müharibəsi dövründə 96-sı hərbi, 26-sı mülki olmaqla, 122 şəhid verib. Azərbaycanın suverenliyi uğrunda canlarından keçən şəhidlərin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edilib. Avtomobillər, yanğınsöndürən maşınlar vasitəsilə saat 12:00-da səs siqnalları verilib.

Daha sonra rəsmilər Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin Gəncəni raket atəşinə tutması nəticəsində dağılan ərazini ziyarət edib, burada həlak olan mülki şəhidlərin şəkil və məlumatlarını əks etdirən lövhəyə baxış keçiriblər. Rəsmilər onların xatirəsinə ehtiram əlaməti olaraq əraziyə gül dəstələri düzüblər.

Bununla yanaşı, Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən Gəncə şəhər ümumtəhsil müəssisələrində təhsil alan şagirdlərin iştirakı ilə "Məktəbdən qələbəyə" adlı yürüş təşkil olunub.

Silsilə tədbirlərin davamı olaraq Heydər Əliyev Park-Xiyaban Kompleksinin ərazisində şəhidlərin xatirəsinə ağacəkmə aksiyası gerçəkləşib.

### SUMQAYIT

Şəhidlər xiyabanında, qarşısında əbədi məşəl alovlanan "Qalib əsgər" abidəsinin ətrafına toplaşan sumqayıtlılar Anım Gününü ehliklə qeyd ediblər. Cəmi 44 günə qazanılan Zəfərin Azərbaycan tarixinə şəhidlərimizin canı, igidlərimizin qanı ilə yazıldığı vurğulanıb. Ziyarətçilər Vətən müharibəsində rəşadətli ordumuzun torpaqlarımızı işğaldan azad etməklə 30 illik yurd həsrətinə son qoyduğunu qürurla xatırlayıblar.

Mərasimdə şəhid ailələri və qazilərimizin ölkə başçısı cənab Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın daim diqqət və qayğısı ilə əhatə olunduqları qeyd edilib. Sumqayıtlılar saat 12:00-da şəhidlərin xatirəsinə dərin ehtiramlarını bir dəqiqəlik sükutla ifadə ediblər. Sükut dəqiqəsi zamanı dövlət bayraqları endirilib, nəqliyyatın hərəkəti dayanıb, avtomobillərdən səs siqnalları verilib.

"Qalib əsgər" abidəsinin önünə əklil qoyan şəhər icra hakimiyyətinin başçısı Zakir Fərəcov sonra orada toplaşmış şəhid ailələrinin üzvləri və qazilərlə görüşüb, onların qayğıları ilə maraqlanıb. Şəhid ailələri onlara göstərilən diqqətə görə minnətdarlıqlarını ifadə ediblər. Onu da qeyd edək ki, bir gün əvvəl şəhər rəhbəri Vətən müharibəsi qəhrəmanları – Sübhan Cəbrayılov və Ramiz Cəfərovun ailəsi ilə görüşüb, şəhidlər üçün ayrılmış guşəyə baxış keçirib.

Xiyabanda uyuyan 519 şəhidin məzarlarının ziyarəti kövrək anlarla müşayiət olunub. Ölməz qəhrəmanların ruhuna dualar oxunub, ailə üzvlərinə ulu Tanrıdan səbir dilənib. Şəhidlərin adına ehsan verilib.

### ŞİRVAN

Anım Günü ərəfəsində Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov və digər rəsmilər ölkəmizin ərazi bütövlüyü, suverenliyi və tarixi torpaqlarımızın azad edilməsi uğrunda gedən döyüşlərdə canlarından keçmiş şəhidlərin ailələrini ziyarət ediblər.

Ziyarət zamanı o, dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun 44 günlük Vətən müharibəsində düşmən üzərində şanlı Zəfər qazanmasından, şəhid ailələrinə, qazilərə dövlət tərəfindən göstərilən diqqət və qayğıdan danışaraq şəhidlərin əziz xatirəsinin qəlblərdə daim yaşayacağını diqqətə çatdırıb.

Şəhid ailələri şəhidlərə, onların ailələrinə göstərilən yüksək diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti, Qalib Ali Baş Komandan cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.

### LƏNKƏRAN

Sentyabrın 27-də Anım Günü Lənkəran rayonunda şəhid ruhlarına böyük ehtiramla qeyd edilib.

Şəhidlər Abidə Kompleksində keçirilən tədbir şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Dövlət himninin səsləndirilməsi ilə başlayıb. Sonra çıxış edən şəhər icra hakimiyyətinin başçısı Taleh Qarasov günün önəmi barədə danışaraq bildirib ki, Anım Günü ölkədə gənc nəslin vətənpərvər ruhda tərbiyə olunması, ölkə vətəndaşlarının birliyinin daha da möhkəmlənməsi baxımından mühüm əhəmiyyətə malikdir. O, dövlətimizin hər zaman şəhid ailələrinin yanında olduğunu qeyd edib və qeyd edib ki, onlara qayğı və diqqət göstərilməsi hər bir vətəndaşın mənəvi borcudur.

Şəhid Taleh İsmayılovun həyat yoldaşı Gülay İsmayılova çıxışı zamanı bildirib ki, qanları ilə tarix yazan şəhidlərimiz xalqımızın qürur mənbəyidir. Şəhid həyat yoldaşı dövlət başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya şəhid ailələrinə göstərilən həssaslığa, onların qayğı və problemlərini, qaldırdıqları istənilən məsələni şəxsi nəzarətlərində saxladıqlarına görə minnətdarlığını ifadə edib.

Daha sonra şəhid övladlarının və məktəblilərin iştirakı ilə bədii- kompozisiya təqdim olunub. Tədbirin sonunda rayon rəhbərliyi, eləcə də ictimaiyyətin nümayəndələri abidə kompleksini ziyarət edib, önünə tər güllər düzüb, şəhidlərimizə olan hörmət və ehtiramlarını ifadə ediblər.

Anım Günü ilə bağlı rəsmi tədbirdən sonra Lənkəran ŞİH başçısı Taleh Qarasov, hüquq mühafizə orqanlarının rəhbərləri və icra hakimiyyətinin kollektivi Lənkəran rayonundan olan şəhidlərimizin qəbirlərini ziyarət ediblər, ailələrinə başsağlığı verib qayğıları ilə maraqlanıblar.

Qeyd edək ki, senytabrın 27-də Vətən müharibəsinin ilk günündə şəhid olan Lənkəran rayon sakinləri polkovnik-leytenant Mehman Şirvanov və Qalib Əkbərzadənin məzarları da ziyarət olunub, önünə tər güllər düzülüb.

### ZAQATALA

Anım Günü ilə əlaqədar Zaqatalada ümumrayon anım tədbiri keçirilib. Yaşından, vəzifəsindən asılı olmayaraq, hər kəs şəhər qəbiristanlığında şəhid məzarlarını və Şəhidlər xiyabanını ziyarət edib.

Zaqatala şəhərindəki Zəfər kompleksinin önündə keçirilən tədbirdə rayon icra hakimiyyətinin başçısı Mübariz Əhmədzadə, Milli Məclisin deputatı Kamilə Əliyeva, Vətən müharibəsi iştirakçısı Naqim Ağayev, Şəki-Zaqatala Regional Gənclər və İdman İdarəsinin Zaqatala rayonu üzrə Sektorunun müdiri Araz Əliyev çıxış edərək 44 gün davam edən Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusunun Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə qazandığı tarixi Qələbədən, Zəfərlə başa çatan müharibədə Vətənimizin igid oğullarının göstərdikləri qəhrəmanlıqlardan danışıblar. Çıxışlarda vurğulanıb ki, Vətən müharibəsi xalqımızın qələbəsi və Zəfəri kimi nəsillər ötdükcə ürəklərdə yaşayacaq.

Vətən Müharibəsi Qəhrəmanı, şəhid Valeh Bədəlovun anası Südabə Qazıyeva çıxışında şəhid ailələrinin dövlətimiz tərəfindən daim diqqət və qayğı ilə əhatə olunduqlarını vurğulayıb. Tədbirin sonunda ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

### BALAKƏN

Anım Günü münasibətilə Balakəndə də silsilə tədbirlər keçirilib. Səhər tezdən rayon icra hakimiyyətinin rəhbər şəxsləri, Milli Məclisin deputatları, hüquq-mühafizə orqanlarının rəhbərləri və ictimaiyyət nümayəndələri şəhidlərin ailə üzvləri ilə birlikdə Şəhidlər xiyabanına gələrək mərd Vətən oğullarının məzarları üzərinə gül dəstələri düzüb, ruhlarına dualar oxuyublar.

Anım tədbirində Balakən Rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev, Milli Məclisin deputatı Nəsib Məhəməliyev, şəhid anası Gülşən Kərimova, Vətən müharibəsi qazisi, baş leytenant Hacı Muradov çıxış ediblər. Bildirilib ki, Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizin ruhuna əbədi ehtiram borcumuzdur.

Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Ordumuzun 30 ilə yaxın işğal altında olan torpaqlarımızı azad etməklə tarixi Qələbə qazandığı minnətdarlıq duyğuları ilə xatırlanıb. Anım tədbirində ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

### ASTARA

Anım Günü ilə əlaqədar Astarada keçirilən tədbirdə rayon icra hakimiyyətinin başçısı Qəzənfər Ağayev Şəhidlərin Xatirə Kompleksini ziyarət edib, önünə əklil qoyub. Şəhid ailələri, qazilər, müharibə iştirakçıları, idarə, müəssisə və təşkilatların kollektivləri, qeyri-hökumət təşkilatları və ictimaiyyət nümayəndələri xatirə lövhələrinin önünə tər qərənfillər düzüblər.

Anım mərasimi bir neçə saat davam edib. Natiqlər xatırladıblar ki, üç il bundan öncə – 2020-ci ilin 27 sentyabrında rəşadətli Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə mənfur düşmənə qarşı əks-hücum əməliyyatına başlayaraq şanlı Zəfər tarixinə yol açıblar. Vətən müharibəsində Astara rayonundan 600 nəfərə qədər gənc iştirak edib, 41 igid şəhid olub, 138 nəfər yaralanıb. Müharibədən sonra erməni diversantlarının qarşısının alınmasında və antiterror tədbirləri zamanı daha 3 astaralı hərbçi şəhid olub. Ümumilikdə, Qarabağ uğrunda mübarizədə rayonun 127 nəfər cəsur, mərd oğlu əbədiyyətə qovuşub.

### CƏLİLABAD

Prezident İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli Sərəncamına əsasən təsis edilən 27 Sentyabr – Anım Günü münasibətilə Cəlilabad rayonunda da şəhidlərin xatirəsi ehtiramla yad olunub.

Anım tədbirində Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Cəlilov, şəhid ailələri, qazilər, müharibə iştirakçıları, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri və din xadimləri iştirak ediblər.

İcra hakimiyyətinin başçısı tədbirdəki çıxışında 44 günlük Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun əziz Azərbaycan torpaqlarını erməni işğalçılarından azad edərək tarixi Qələbəyə imza atdığını vurğulayıb.

Həkim-nevropotoloq Gülər İsgəndərova, Vətən Müharibəsi Qəhrəmanı Rəşad Abdullayevin atası Arif Abdullayev, şəhid Səyyad Ağahüseynlinin anası Səyyad Şəhla, qazi polkovnik-leytenant Kamil Düniyev, din xadimi Nadir Şükürov çıxış edərək cəsur döyüşçülərimizin, qazilərimizin igidliklərindən danışıblar. Şəhid ailələrinə, qazilərə, müharibə iştirakçılarına göstərilən diqqət və qayğıdan razılığını ifadə edən çıxışçılar Ali Baş Komandan İlham Əliyevə və Birinci vitse Prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

### BƏRDƏ

Rayon sakinləri Şəhidlər xiyabanında və Bərdə Terror qurbanları abidəsinin önündə 27 sentyabr – Anım Gününə həsr olunmuş tədbirdə işğal qurbanlarının xatirəsini ehtiramla yad ediblər.

Tədbirdən öncə Vətən müharibəsi dövründə Ermənistan ordusu tərəfindən Bərdə rayonuna atılan bombalar nəticəsində həlak olmuş mülki şəhidlərin xatirə lövhəsinin önünə tər güllər düzülüb, ruhlarına dualar oxunub. Sonra mərasim Şəhidlər xiyabanında davam edib. Burada uyuyan Vətən oğullarının ölməz xatirəsi önündə hər kəs baş əyib.

Rayon icra hakimiyyətinin başçısı Vidadi İsayev çıxış edərək bildirib ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin sərəncamına əsasən sentyabrın 27-də ölkəmizin hər yerində keçirilən Anım Gününün böyük tarixi əhəmiyyəti var. Dünya bizim ərazi bütövlüyümüz uğrunda mərd mübarizlərimizin xatirəsinin necə əziz tutulduğunu bir daha görür. İşğalçılıq, separatçılıq, terror təzahürləri lənətlənir.

### TƏRTƏR

Tərtər şəhərinin mərkəzi meydanında quraşdırılmış monitorda 44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış igid oğul və qızlarımıza həsr olunmuş videoçarxlar nümayiş etdirilib.

Tərtərlilər səhər saatlarından "Şəhidlər" abidə kompleksini ziyarət ediblər. Rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov, Milli Məclisin deputatı Sahib Alıyev, hüquq-mühafizə orqanlarının rəhbərləri, YAP rayon təşkilatının, Ağsaqqallar Şurasının sədrləri, şəhid ailələrinin üzvləri, qazilər, müharibə veteranları, rayon ictimaiyyətinin nümayəndələri də abidə kompleksinin önünə gül-çiçək dəstələri düzüb, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda edən əsgər və zabitlərimizin xatirəsi yad ediblər.

Anım Günü ilə bağlı 44 günlük Vətən müharibəsində erməni separatçıları tərəfindən atılan "Smerç" raketi nəticəsində dağıdılmış açıq havada fəaliyyət göstərən ev-muzeyinə sakinlərin ekskursiyası təşkil olunub.

***Hazırladı: Əli ƏLİYEV***
***XQ***

Müzəffər savaşın ilk qələbələri

# Zəfər yürüşünün ölüm-dirim döyüşü

**Onun söylədikləri kino lenti kimi gözlərimiz önündən keçir. Özümüzü gerçək döyüş meydanında hiss edirik. Mayor İntiqam Əmirov savaşdan həyəcansız danışa bilmir:**



– Döyüş elədir ki, bəzən sənə 200-300 əsgər versələr də, tapşırığı yerinə yetirmək mümkün olmaz. Amma iki-üç nəfər bacarıqlı zabit, rütbəli zabit görəndə elə bilirsən ki, bir briqada köməyinə gəlib. İdarəetmə tam başqa şeydir. Bəzən olurdu ki, döyüşdə əsgərlər panikaya düşür, xaos yaranır. Əsgərin biri oradan çığırır: "qəlpə dəydi", o biri deyir ki, "yaralandım". Bir başqası isə qışqırır: "Komandir, düşmən zirehli texnikası gəlir". Döyüşdə ayağını, qolunu itirən, gözü çıxan, bədəni param-parça olan hərbçi az olmur. Belə bir şəraitdə əsgərləri idarə etmək çox çətinləşir, onları döyüşə kökləmək, yenidən təşkil etmək o qədər də asan olmur. Döyüşü təşkil etmək, nizam-intizam yaratmaq isə çox önəmlidir.

Adi bir diqqətsizlik, qorxaqlıq böyük faciələrə səbəb ola bilər. Bölmənin rəhbərliyini və nəzarətini möhkəm saxlamaq vacibdir. Ona görə də peşəkar zabitlərə çox ehtiyac olur. Bəli, döyüş göstərir ki, saydan çox, idarəetmə bacarığı önəmlidir. Mən bunu gördüm, döyüşlərdə yaşadım. Çətin məqamda qərar qəbul etmək, vəziyyəti düzgün qiymətləndirmək əsas şərtlərdən biridir.

Özümü itirmədim, o stresi yaşamadım, göz yaşım gəlmədi, ən çətin halda çıxış yolunu tapa bildim. Mən belə şəraitdə tabeliyimdə olanlara deyirəm: "Şəhid olanlara Allah rəhmət eləsin, Vətən sağ olsun, bir kənara qoyun, qisasını alaq, döyüşümüzü davam etdirək. Hələ də fikirləşirəm ki, necə yaşadım bunları, bu qanlı səhnələri.

Zabitin sözlərinə görə, "N" saylı hərbi hissənin bölmələri Suqovuşan istiqamətində hücuma keçmişdi. "Biz isə əvvəlki mövqedə möhkəmlənmişdik. Gecə düşmən yenidən həmlə etdi. Bu barədə komandirlə danışıb artilleriya dəstəyi istədim. Xətdə Əfqan Abdurahmanovun sakit-sakit koordinatları artilleriya bölməsinə verdiyini eşitdim. Bundan əvvəl o, yüksəkliyin müdafiəsində artilleriya ilə işləmişdi və koordinatları yaxşı bilirdi. Özü mənimlə əlaqəyə çıxdı.

– Yolu bağla, nəzarətdə saxla, əsas diqqətini yola ver, qalan yerdən girə bilməzlər. – dedi.

– Bağlamışam, – dedim.

Düşmənin əks-hücumunun qarşısını aldıq".

Sentyabrın 30-da 4-cü tabora kömək üçün 1-ci tabor komandirinin maddi-texniki təminat üzrə müavini, kapitan Vüqar Əliyev başda olmaqla bir bölük göndərilir. Tabor komandiri dedi: "Qısamüddətli sakitlik oldu, hiss edirdim ki, aldadıcı bir sakitlikdir. Səhərisi, oktyabrın 1-i axşamı atışma düşdü, hücumun qarşısını aldıq. Həmin döyüşdə Amil Rzayev qumbaraatan kimi çox fəal iştirak etdi, düşmənin canlı qüvvəsinin məhv edilməsində önəmli rol oynadı. Oktyabrın 1-də yaralandı, axşamüstü şəhid oldu.

Oktyabrın 2-si, günorta üstü idi, bir də gördüm bizim mövqeyin üstündə pilotsuz uçuş aparatı uçur. Dərhal briqada komandiri ilə əlaqə yaratdım, PUA ilə bağlı məruzə etdim. Dəqiqləşdirmək istəyirdim ki, aparat bizə, yoxsa düşmənə aiddir.

Briqada komandiri dedi:

– Gözlə, dəqiqləşdirək.

Ermənilərin uçuş aparatı qara olur. Bir az yaxınlaşanda gördüm ki, korpusu qaradır və dərhal atəş əmri verdim. Az sonra xəbər gəldi ki, biz tərəf havaya pilotsuz uçuş aparatı qaldırmayıb. Bir neçə dəqiqədən sonra aydın oldu ki, düşmən tərəfi yerüstü kəşfiyyat aparır, kameralar vasitəsilə məlumatlar toplayırmış.

Saat 15:30 olardı. Durduğumuz yüksəklikdən aşağıdakı dərədən zəif səslər gəlməyə başladı. Ermənilər idi. Həmin istiqamətə müşahidə yeri vardı və oradan həm 1444 yüksəkliyini izləmək, həm də dərə istiqamətindən gələn səsləri eşitmək olurdu. Minaatan batareyanın komandirini də özümlə götürüb ora getdim. Yanımızda 2-ci tabora qərargah rəisi təyin olunmuş mayor Azad Həsənov da vardı. Soltan Məmmədovun taboru bizdən aralı olduğundan mənim yanıma gəlmişdi. Mən minaatan batareyanın komandirini ona görə gətirmişdim ki, dərəyə baxsın, koordinatları çıxarsın və dərəni vursun.

Bir neçə dəqiqə keçmişdi ki, mövqeyimizə artilleriya və minaatanların atəşi başladı, avtomat və pulemyotlardan da atırdılar. Yüksəkliyə düşmənin şəxsi heyəti hücuma keçdi: irəliləməyə can atırdılar. Əfqan Abdurahmanov həmişə deyərdi ki, yolu nəzarətə götür. Elə də etdim.

Gərgin döyüş gedirdi, düşmən nəyin bahasına olur-olsun, 1353 yüksəkliyini geri almaq, oranı tez bir zamanda tutmaq istəyirdi. Yüksəklik getsə idi, bu vaxtadək əldə etdiyimiz uğurları itirəcək, əvvəlki mövqeyə qayıdacaqdıq. Yüksəklik nəyin bahasına olur-olsun qorunmalı, son nəfərədək vuruşmalı idik və vuruşduq da. Haradasa saat 16:30-da üzərimizə, daha doğrusu, mən olduğum mövqeyə 120 mm-lik minaatanın mərmisi düşdü. Onda gördüm ki, ətrafı toz-duman bürüyüb. Qolumdan yaralandım, qan sızırdı, kürəyimdən yaralanmağımdan isə xəbərim yox idi. Sola dönəndə gördüm ki, yaralılar var, yerə uzanıblar. Sağ tərəfdə mənim rabitəçim Ülvi Pənahov şəhid olmuşdu. Şəhid olanlardan biri də baş çavuş Mirzə idi. Mirzə çox cəsur oğlan olub, ölümdən qorxmazdı. Döyüş gedə-gedə şəxsi heyətə çay, yemək paylayar, həm də döyüşərdi.

Yanıma gələn mayor Azad Həsənov, bölük komandirim Xaliq Məmmədzadə də yaralanmışdılar. Xalid ürəkli zabit idi, ən çətin anlarda əzmkarlığı, cəsarəti ilə seçilirdi. Gizir Elvin Abbasov tabor hərəkət edəndə öncül qrupda olardı, əgər qabaqda düşmənin hər hansı kəşfiyyat qrupu olardısa, ilk onları qarşılayan və döyüşə girənlərdən biri də o idi. O, yüksəkliyin müdafiəsində də fəal iştirak etdi.

Mən vurulanda gördüm ki, səngərdə olan əsgərlər "kombat yaralandı" deyərək oradan çıxmaq istəyirlər. Onların yaralandığımı bilib ruhdan düşmələrinə yol vermək olmazdı, bu panikaya səbəb olardı. Əsgər qorxdu, təlaşa düşdüsə, özünə nəzarəti itirəcək, hara gəldi qaçacaq. Bunun sonu isə böyük itki deməkdir. Qolumu tutaraq uca səslə, hamının geriyə, səngərə qayıtmasını əmr etdim. Sonra hərbi hissə komandirinə yaralandığımı məruzə etdim.

Gizir Fuad Məmmədov, sürücüm Rəşad kürəyimdən yaralandığımı bildirdilər. Sanitar gəlib sarğı qoydu, məni döyüş meydanından çıxarıb sığınacağa apardılar. Döyüş meydanında isə taborun qərargah rəisi Etibar Hacıyev qaldı. Yaralanmağıma baxmayaraq, nə qədər çətin olsa da, döyüşü qərargah rəisinin köməyi ilə idarə etdməkdə davam etdirdim. Bu yüksəkliyi Əfqanın rəhbərliyi ilə üç gün müdafiə etmiş, əks-həmlələrin qarşısını almışdıq. İndi onu qorumağa, müdafiə etməyə cavabdeh mən və taborum idi. Düşmənin əks-həmləsi bu dəfə də uğursuzluğa uğradı. Bu döyüşü uduzmaq haqqımız yox idi. Gecə caat 12-də döyüş sahəsindən çıxarıldım".

Bütün çətinliklərə və itkilərə baxmayaraq, yüksəkliyin düşmən tərəfindən tutulmasına imkan verilmədi. Qanla aldığımız yüksəkliyi heç vaxt geri verə bilməzdik və sonadək qanımızla-canımızla qoruduq".

**(Ardı var)**

***P.ƏFƏNDİ***
***XQ***

# Hadrut fatehi




**O ermənicə "Geri çəkilin" əmri ilə düşmənin 1 alayını geri oturtmuşdu**

**İkinci Qarabağ müharibəsinin başlanmasından 3 il ötür. Hər dəfə Vətən uğrunda canını sipər etmiş bu qəhrəman oğulları yad edəndə gözümüzün biri gülür, o biri ağlayır... Ağlayır ona görə ki, onlar da digər gənclər kimi yaşamaq istəyirdilər, qəlbləri həyat eşqi ilə döyünürdü. Gülür o səbəbdən ki, artıq torpaqlarımız düşmən tapdağı altında deyil.**

Torpaqlarımızın bütövlüyü uğrunda şəhid olmuş qəhrəman oğulların arasında Hadrut fatehi, 1500 nəfərlik erməni briqadasına erməni dilində "Geri çəkilin!" əmri verən Camal İsmayılov da var. Camalın fiziki yoxluğu ilə heç cür barışa bilməyən anası Filarə xanım deyir ki, Vətən torpaqları azad edilib, buna görə qürur hissi keçirirəm. Ona görə ki, bunda mənim şəhid oğlumun da payı var. Amma Camalımın yoxluğu ilə də heç cür barışa bilmirəm. Onun yadigarlarından təskinlik tapıb yaşasam da, hər yadıma düşəndə varlığım param-parça olur, ona qovuşmaq istəyirəm: "Camal hələ uşaq ikən ona "anasının qəhrəmanı" deyə müraciət edirdim. O isə həmişə sual verirdi ki, niyə həmişə mənə qəhrəmanım deyirsən? Mən isə cavabında deyirdim ki, yerişin, duruşun, qamətin qəhrəmanları xatırladır mənə...

Əsgər gedən zaman ilk dəfə Camalıma Səməd Vurğunun məşhur şeirindən bu misralarla müraciət etmişdim:

*Geyib əsgər paltarını silahlandı*
*qəhrəman,*
*Onun polad sinəsinə sığışmadı ürəyi.*

Camal şeiri, ədəbiyyatı çox sevərdi. Bir yerdə əyləşib şeirlər, qəzəllər oxuyardıq. O, hər yerdə intellektual səviyyəsi, dünyagörüşü, qabiliyyəti, təvazökarlığı ilə də seçilirdi. Vətənini çox sevirdi. Dostlarına dəyər verirdi. Əsgərlikdə olarkən yaşadığı xatirələrdən bəhs edən gündəliyi də vardı".

Sonra Filarə xanımın fikri uzaqlara gedir və Camalın əsgər yoldaşları ilə Moskvada keçirilən Böyük Vətən müharibəsinin 65 illiyinə həsr olunmuş parada yola düşdüyü illəri bu cür xatırlayır: "Orada ilk yerdə Rusiya, ikinci yerdə Ermənistan, üçüncü yerdə Azərbaycan Ordusunun nümayişi və iştirakı nəzərdə tutulmuşdu. Bizimkilər etiraz edərək, rus ordusundan sonra ikinci yerdə meydana çıxıblar. Paraddan sonra onları sovet əsgərlərinin geyimləri, istifadə etdiyi silahlar, rütbələri və s. nümayiş olunan muzeyə aparıblar. Muzey işçisi Həzi Aslanovun şinelini göstərəndə deyib: "Azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı". Camal isə bələdçinin səhvini düzəldib deyir: "İki dəfə Sovet İttifaqı Qəhrəmanı".



36 illik ömrünün yarısını orduda xidmət etmiş, adı "Hadrut fatehi" kimi tarixə düşmüş Camal İsmayılov 1984-cü ildə Neftçala rayonunda dünyaya gəlmişdir. Ailənin üç uşağından ikincisi idi. 2002-ci ildə hərbi xidmətdə olarkən, bacarığı ilə komandanlığın diqqətini çəkir. Xüsusi Təyinatlı Qüvvələrdə kəşfiyyatçı kimi fəaliyyətə başlayır. Dağ-xizəkçilik, paraşütlə tullanmanın sirlərinə yiyələnir. Azərbaycan, Türkiyə, Gürcüstan və digər ölkələrdə keçirilən təlimlərdə uğurlar əldə edir. C. İsmayılov rus, erməni və ingilis dillərini öyrənmişdi. Aprel döyüşlərində qəhrəmanlığı ilə fərqlənən Camal Vətən müharibəsinə gedərkən deyir: "Bu dəfə torpaqlarımızı mütləq geri alacağıq". O, Füzuli, Cəbrayıl, Zəngilan rayonlarının, Hadrut qəsəbəsinin və Ərgünəş yüksəkliyinin, həmçinin, Laçın dəhlizində nəzarəti təmin edən yüksəkliyin alınmasında xüsusi qəhrəmanlıq göstərib.

Füzuli uğrunda gedən döyüşlərin birində hərbçi yoldaşına kömək etmək istəyərkən güllə yarası alır. Müalicədən sonra yenidən döyüşə yollanır. Rabitə sahəsində əla mütəxəssis olan Camal ermənilərin rabitə sisteminə qoşulur. Hadrutu müdafiə edən 1500 nəfərlik erməni briqadasına erməni dilində "Geri çəkilin!" aldadıcı əmri edir. Düşmən buna inanaraq, ağır itki verə-verə geri çəkilir.

Camal son dəfə ailəsi ilə oktyabrın 17-də əlaqə saxlayır. Bu, onun sonuncu zəngi olur. Laçın dəhlizinə nəzarəti təmin edən yüksəkliyi ələ keçirmək üçün 17 nəfərlik şəxsi heyətlə döyüşə atılan Camal son nəfəsinə qədər vuruşub düşmənin xeyli sayda canlı qüvvəsini sıradan çıxarsa da, oktyabrın 21-də döyüş yoldaşları ilə birlikdə şəhid olur.

Şəhid Camal İsmayılov doğulduğu Neftçalada torpağa tapşırılıb. Vətən müharibəsində göstərdiyi qəhrəmanlıqlara görə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.

Bu sətirlərin müəllifi də Camalın məzarını ziyarət etdiyi üçün qəlbində fəxarət hissi keçirir.

***Fidan HÜQUQQIZI***
***XQ***



**Azərbaycan Hərb Tarixi Muzeyində 5 nömrəli Uşaq–Gənclər İnkişaf Mərkəzi ilə birgə Vətən müharibəsinin başlanmasının 3-cü ildönümünə həsr olunmuş "Vətən sizə oğul dedi!" adlı anım mərasimi keçirilib.**

# Torpağı Vətən edən oğullar

Toplantıda şəhid ailələri, I və II Vətən müharibəsi qaziləri, əsgər və zabitlərimiz, bir sıra idarə və təşkilatların nümayəndələri iştirak ediblər.

Muzeyin rəisi Əzizağa Qənizadə hərbçilərimizin şücaəti, canı, qanı bahasına 44 günlük savaşda qazanılan tarixi Zəfərin hər bir azərbaycanlı üçün son dərəcə əziz və qiymətli olduğunu bildirib. Qeyd edib ki, Vətən müharibəsində böyük qələbə heç də asanlıqla əldə olunmayıb. Torpaqlarımızı geri qaytarmaq fikrində olmayan məkrli düşmən onilliklər ərzində burada güclü istehkamlar qurmuşdu. Azərbaycanın cəsur oğullarının şücaəti və fədakarlığı ilə düşmənin bütün sədləri darmadağın edildi, Vətən müharibəsində tarixi Zəfər cəsur Azərbaycan oğullarının fədakarlığı, canı və qanı bahasına qazanıldı: "Azərbaycan Ordusu Ermənistanın ordusunu məhv edərək, kapitulyasiya aktına imza atmağa məcbur etdi, tariximizə yeni bir gün yazdı və şəhidlərimizin qisası alındı. Əlbəttə ki, bu 44 günün hər günü Azərbaycanın şanlı tarixidir. XXI əsrin müharibəsini aparan Azərbaycan hərbi gücü, qüdrəti ilə dünyaya səs saldı".

Şəhid Samir Xudiyevin atası Səməd Xudiyev, şəhid polkovnik-leytenant Xeyrulla İbrahimovun anası Xalidə İbrahimova, II Qarabağ savaşının canlı şahidi – qazi Sənan Zeynalov və digər çıxış edənlər bildiriblər ki, xalqımız hər zaman 27 Sentyabr Anım Gününü böyük ehtiramla yad edəcək, şanlı Zəfər tariximizi yazan şəhidlərimizin əziz xatirəsini daim qəlbində yaşadacaqdır. Şəhid adını qazanmış Azərbaycanın igid övladları xalqımızın qəhrəmanlıq tarixində əbədiyyətə qovuşublar. İllər keçsə belə,onların Vətəninə, xalqına, millətinə olan sevgisi hər birimiz üçün örnək olacaq.

***L.QURBANOVA***
***XQ***

Zəfərimiz və əsərimiz

# Ədəbiyyatımızın əbədiyyət salnaməsi

**Tariximizi tanıtmağın bir yolunun ədəbiyyat olduğu mübahisəsizdir. Azərbaycan Ordusunun şanlı Qarabağ savaşı da üç ildir ki, zəfər tariximizə həm sənədli, həm də bədii salnamə kimi yazılır. Əlbəttə, "Zəfər Yürüşü"ndən elə də çox vaxt keçməyib, hələlik, olsa-olsa, ilk səhifələr qələmə alınır, tarixi-ədəbi epopeyalar hələ yazılacaq...**



Aşkar görünən budur ki, əgər 90-cı illərin əvvəllərində şairlərimizin, yazıçılarımızın müharibə mövzusunda qələmə aldıqlarında məğlubiyyət və kədər motivləri üstünlük təşkil edirdisə, 2020-ci ilin payızından üzübəri yazılan "barıt qoxulu" nümunələrdə qələbə ruhu, zəfər bayraqlı zirvə ucalığı özünü möhtəşəm şəkildə göstərir. Ümumiyyətlə, müharibə poeziyasında daha çox şüarçılıq üstünlük təşkil etsə də, layiqli şeirlər də az deyil. Bəs alimlərimiz bu barədə nə düşünürlər?

**Zakirə Əliyeva, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru:**

– Ədəbi yaddaşımızda iz qoymuş soyqırımları, torpaqlarımızın işğalı, güllələnmiş abidələrimiz, babalarımızın haqq savaşları, nənələrimizin yanıqlı bayatıları, ağıları, ədəbi faktlar kimi yaralarımızın közünü qopardır. Məlhəmi isə qələbə ətirli şeir, esse, oçerk, hekayə, povest, roman və pyeslərdir. Alimlərimiz 44 günlük Vətən mücadiləsi də daxil olmaqla Qarabağ savaşının hər anını böyük sevgi və təəssübkeşliklə izləyib yazıya köçürdükləri kimi, yazarlarımız da bunları bədii süzgəcdən keçirib sanballı ədəbi nümunələr yaratmağa çalışırlar.

Müharibə dövründə və ondan sonrakı müddətdə Azərbaycan həqiqətlərini və ermənilərin torpaqlarımızda törətdiyi vəhşilikləri dünyaya bəyan etmək ziyalılarımızın, ədiblərimizin Vətən, xalq qarşısında müqəddəs borcudur. Ağdam, Laçın, Kəlbəcər, Şuşa harayı ilə döyüşən ordumuzun hər qələbəsindən ruhlandıqca, üçrəngli bayrağımız işğaldan azad olunmuş ərazilərdə dalğalandıqca sevinci, qüruru aşıb-daşan xalqın bu mənəvi haqqını ifadə etmək qələm sahiblərimizin müqəddəs vəzifəsinə çevrilib.

Ədəbiyyatçı alimlərimiz Tehran Əlişanoğlu,Vaqif və Cavanşir Yusiflilər, Elnarə Akimova, Tahirə Məmməd, Pərvanə Bəkirqızı, Əlizadə Əsgərli, Eşqanə Babayeva, Gülbəniz Babayeva, Bəsirə Əzizəli, Aygün Bağırlı, Zakirə Əliyeva, Mərziyyə Nəcəfova, Gülnar Səma və başqaları bu mövzuda ortaya sanballı yazılar qoyublar. Azərbaycan əsgərinin mətin addımlarının dünyaya səs salan sədası çağdaş poeziyamızda daha geniş yer tutur.

**Rahid Ulusel, fəlsəfə elmləri doktoru, professor:**

– Azərbaycan xalqı və dövləti I Qarabağ müharibəsində, nə qədər böyük faciələrlə üz-üzə qalsa da, təklənsə də, torpaqlarımızın işğalı ilə barışmamaq əzmi ədəbiyyatımızın andı və amalı tək möhürlənib. Əlbəttə, hadisələrin mahiyyətinə enə bilməyən, ah-ufla dolu əsərlər də meydana çıxıb. Lakin ədəbiyyatımızın sağlam mənəvi düşüncəsi Qarabağ faciəsini millətimizin həll etməli olduğu əsas problem kimi aktuallaşdıra bilib. Qardaşını İkinci Dünya müharibəsində, oğlunu isə I Qarabağ müharibəsində itirən Sabir Əhmədli, Elçin, İsa Muğanna, Sabir Rüstəmxanlı, Məmməd İsmayıl, Vaqif Bəhmənli, Çingiz Abdullayev, Aqil Abbas, Mövlud Süleymanlı, Kamal Abdulla, Əşrəf Veysəlli, Əli Əmirli, Vaqif Əlixanlı, Elçin Hüseynbəyli, Qulu Ağsəs, İbrahim İlyaslı, Əlabbas, Mehriban Vəzir, Qəşəm Nəcəfzadə, Ağacəfər Həsənli, Balayar Sadiq, Rasim Qaraca, Meyxoş Abdullah, Ayaz Arabaçı və başqaları gözəl nümunələr yaradıblar.

II Qarabağ savaşında da yazarlarımız qələmlərini süngüyə çeviriblər. Bir sıra gənc şair və yazıçılar – Emin Piri, Alparslan Oğuz, "Canlanma" adlı ilk tarixi metaromanın müəllifi Taleh Şahsuvarlı, Səbuhi Qurbanov, Həsən Kür, Eyvaz Əyyub, Nicat Ağayev, Cavid Əlioğlu, Orxan Səmədov... cəbhəyə yollanmışdılar. I Qarabağ müharibəsi veteranı İlham Tumas son Vətən müharibəsində də ordu sıralarına qoşulub və "Casusluq, kəşfiyyat, müharibə tarixindən" adlı praktiki əhəmiyyət daşıyan kitab yazıb. Ədəbi istedadı hər sətrində duyulan, Prezident sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmiş Teymur Rəsulov son yazısını çapa göndərərək cəbhəyə yollanıb. Şəhid Teymurun elə öz taleyinin qismətinə tuşlanmış titrək misraları Vətəni üçün bağrında bəslədiyi müqəddəs arzuların solmaz çələngi olur.

Vətən müharibəsi – Azərbaycan ədəbiyyatında ilk dəfə olaraq suveren dövlətin qələbə inamı ilə müharibə aparmaq, öz hərbi-siyasi qüdrətini nümayiş etdirmək, Silahlı Qüvvələri ilə düşməni lərzəyə gətirmək, torpağının hər qarışını azad etdikcə qüvvətlənmək əzmini əks etdirməyin, milli varlığımızı möhtəşəm obrazlarla canlandırmağın şərəfini yaşadır. Yalnız bu şərəf ehtişamında pafos ədəbiyyatın daxili zərurətinə çevrilir, şair sözü və əsgər addımları eyni ahəngə köklənir.

Azərbaycan əsgərlərinə həsr olunmuş seçkin bədii əsərlər, əslində, çağdaş tariximizdə yer almış insanların ömür yolunun təcəssümüdür. Onların müharibə həyatı sənədli şəkildə canlandırıldıqca, ədəbiyyatımız nəsillərə görk olası bahadır əsgər, qəhrəman şəhid, yenilməz qazi obrazları ilə zənginləşir.

Xalqımızın 27 sentyabr–10 noyabr 2020-ci ildə cəbhədə qazandığı böyük zəfər bütün əlamətləri ilə Azərbaycanın tarixi-siyasi həyatında yeni bir mərhələnin başlanğıcıdır. Artıq Qafqazın ən güclü ölkəsi sayılan Azərbaycan bütün bölgədə sülh və əməkdaşlıq döneminin başladığını bəyan edərək quruculuq prosesini həyata keçirir. Bu yolda yaradılan maneələrsə uğurlu antiterror tədbirləri ilə aradan qaldırılır. Elə ədəbiyyatımız da bu salnaməni layiq olduğu səviyyədə ifadə etməkdə qərarlıdır.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Müharibə şairləri







### ***

Əsgər sinəsi axtarır
isinməyə
fevral şaxtasından
üşüyən güllə.
hər əsgər tabutu
bir ağ gəlinliklə köçər…
əsgər deyil,
sevən qızın arzularını
götürüb gedər
hər atılan güllə...
...Bu yaşına görə
Şəhidlər Xiyabanında
18 yaşlı
baş daşları
utandırdı məni.
Məndən kiçikdi hələ
Məndən öncə doğulanlar
əmi deyib
üstümə qaçır başdaşları
bir əsgərin ölüm günü
baş daşının doğum günüymüş.

***Emin PİRİ***

### Dağlar

Tarix səhnəsində yetişdi zaman,
Başlanmış bu çağın mübarək, dağlar!
Hələ nə zəfərlər gözləyir bizi,
Qutlanmış novrağın mübarək, dağlar!

Dövranın gərdişi döndü, dəyişdi,
Davadan doğulan ərlər yetişdi,
Didilmiş yaralar tutdu, bitişdi,
Üç rəngli duvağın mübarək, dağlar!

Nə vaxtdır yol-iriz bağlı qalmışdı,
Qoynunda yağılar məskən salmışdı,
Canımı sağalmaz bir dərd almışdı,
Sayalı qonağın mübarək, dağlar!

Ay Ustac, min şükür arzuna yetdin,
"Dədə"n gedən yolu, sən də qət etdin,
Dolandın dünyanı yurdunda bitdin,
Müqəddəs sancağın mübarək, dağlar!

***Zaur USTAC***

### Yağış suyu

İlahi,
Bizləri sən qorudun,
Yenə qoru –
Qoyma, suya uduzaq,
Əlinlə sıx
suyun çıxart buludun...

Axır düşmənin qanı
Vətənin can yerinə –
Yerdən narahat olma,
Sən su tök göydən yerə
qan yerinə...

Həsrətində olduğumuz torpağı
daddırdı bizə
Palçıqlı gölməçələr...
Qoyma, yağış dayansın,
Qarabağ suyunu içənə qədər...

***Elvin İNTİQAMOĞLU***

# Zəfər nəğmələri

**Tanınmış tədqiqatçı–jurnalist, şair Aida Eyvazlı Göytürkün şəhid və qazilərimizin şeirlərini yığıb ipə-sapa düzdüyü kitab Avrasiya Yazarlar Birliyinin təşəbbüsü ilə Türkiyədə "Bengü yayınları" nəşriyyatın tərəfindən 1000 tirajla çap edilib. Toplu "Zəfər qoxuyan şeirlər" adlanır.**

Azərbaycanın Türkiyədəki Səfirliyinin dəstəyi ilə buraxılmış xatirə kitabı bütövlükdə 190 səhifədən ibarətdir. Kitabda 2016-cı ilin aprel döyüşlərində və 2020-ci ilin payızında baş vermiş II Qarabağ savaşında həlak olan 19 şəhidin, 16 qazinin, eləcə də A.Eyvazlının özünün Vətən, Zəfər haqqında düşüncələri və şeirləri yer alıb. Kitabın baş redaktoru Yaqub Öməroğlu, tərcüməçisi isə gənc ədəbiyyatçı Atabəy Barışdır.

Aida Eyvazlı deyib ki, bu kitab 2016-cı ilin Aprel döyüşləri ilə böyük Zəfər yolunun başlanmasının müjdəçisi olan və 2020-ci ilin Vətən müharibəsində Qələbə qazanan döyüşçü şairlərin adından türk oxucusuna, türkdilli xalqlara ərməğandır. "Şeirləri qələmə alan igidlər heç bir zaman Böyük Zəfərə olan inamlarını itirməyiblər. 30 il ərzində bu inam, bu sevgi onların iliklərinə ana südü kimi işləyib. Böyüyüb əsgər olublar, şair olublar. Sevgi ilə torpaqlarımızın azad olunmasına ümidlərini sətir-sətir, misra-misra sözə, şeirə çeviriblər. Qələmləri silah, süngü olub, vuruşublar, qalib gəliblər. Nəticədə "Zəfər qoxuyan şeirlər" araya-ərsəyə gəlib".

Xatırladaq ki, Aida Eyvazlı Göytürkün bundan əvvəl Milli Məclisin deputatı, tanınmış yazıçı-publisist Aqil Abbasın "Ön söz"ü ilə çap olunmuş ikicildlik "Qalibiyyət – şəhidlər və şahidlər" (2017), eləcə də "Samir, Nazim, Elşən" (2019) adlı kitabları da vətəhpərvərlik mövzusunda olub. Kitablar Aprel döyüşlərində




doğma torpaqlarımizi düşmən tapdağından azad edərkən şəhid və qazi olanların həyatından bəhs edir.

***Ə.ƏLİYEV***
***XQ***

**Azərbaycan Xalq Cümhuriyyəti tarixindən bildiyimiz kimi, Qarabağın general-qubernatoru Xosrov bəy Sultanov 1919-cu ilin mayında daşnak general Dronun silahlılarını darmadağın edərək, Xankəndi və Şuşanı geri alıb. O, həm də AXC-nin ilk hərbi naziri olub.**

# Xalq qəhrəmanının milli qəhrəman nəticəsi

Xosrov bəyin qardaşı Sultan bəyin də adı millətimizin şərəf tarixinə yazılanların sırasında qürurla çəkilir. Cümhuriyyətin qorunması uğrunda mərdliklə mübarizə aparmış Sultan bəy Laçın rayonunun Zabux dərəsində xəyanətkar Andranik Ozanyanının dəstəsini məhv etməsi ilə məşhurdur. Doğma əmisi oğlu Çal Aslan onunla çiyin-çiyinə erməni hücumlarının qarşısının alınmasında fərqlənib.

1919-cu ilin payızında Sultan bəy və Çal Aslan adı tarixə "Qaragöl döyüşü" kimi düşən əməliyyatda ermənilərə sarsıdıcı zərbə vuraraq Qarıqışlaq, Hacılar, Sadınlar, Mirik, Qarakilsənin Bayandur, Xoznavar, Xənəzək və daha 15 kəndi düşməndən təmizləyiblər. Rusların Azərbaycanı işğalından sonra da bolşeviklərə qarşı döyüşüblər.

Bu məlum faktları xatırlatmağı ona görə lazım bildik ki, sən demə, Birinci Qarabağ müharibəsində şəhid olmuş və Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş polis batalyonunun döyüşçüsü Fazil Mehdiyev də həmin nəslin yetirməsi, xalq qəhrəmanı Çal Aslanın nəticəsi imiş. Necə deyərlər, ot öz kökü üstündə bitibmiş.

Fazil hələ körpə ikən ailəsi Laçın rayonunun Ələkçi kəndindən Ağdamın Abdal Gülablısına köçüb. 1983-cü ildə orada məktəbi bitirən igidlər nəslinin davamçısı 1984–1986-cı illərdə Sovet Ordusu sıralarında hərbi xidmətdə olub. Sonra Qarabağda baş verən hadisələr hər bir vətənpərvər gənc kimi Fazili də narahat edib və o, 1990-cı ildə Ağdam rayon daxili işlər şöbəsində yaradılmış polis batalyonuna yazılıb. Tezliklə onun səsi ən qaynar döyüş meydanlarından eşidilib. 1991-ci ildə Qaradağlı kəndində ağır yaralansa da, azacıq sağalan kimi cəbhəyə qayıdıb. Mərdliyi, qorxmazlığı ilə ad çıxarıb. Həmin ilin avqustunda erməni işğalçılarına məxsus "Niva" markalı avtomobili ələ keçirərək polis idarəsinə təhvil verib. Sentyabrın 23-dən 24-nə keçən gecə ermənilər Abdal Gülablı kəndinə hücum ediblər. Döyüş dostu Salehlə maşına minərək həmin kəndə tələsən Fazilgil Ağdama gələn yolda erməni pusqusuna düşüb. Onlar son güllələrinə qədər vuruşub və igidliklə həlak olublar.



Ağdam rayonundakı "Qarağacı" qəbristanlığında dəfn edilmiş Fazil Mehdiyevə ölümündən 1 il sonra Milli Qəhrəman fəxri adı verilib. Bakının Nəsimi rayonunun Xətai prospektində büstü qoyulub, Səbail rayonunda isə adına küçə var. Atası Umud kişi, anası Şövkət xanım kimi, bütün el-oba, bütün xalq şanlı nəslin qəhrəmanlıq estafetini layiqincə daşımış Fazilin adı ilə daim fəxr edir.

***Ə.DOSTƏLİ***
***XQ***

# Şuşa yolunda şəhidlik zirvəsi

**Hər tərəf düzənlikdir, ucsuz-bucaqsız xarabalıq, uzaqdan bir çən görünür. Çənin dirəklərini qucaqlayıb fəryad qoparan matəm libaslı bir ana... Onun 25 il əvvəl dünyaya gətirdiyi çiyərparası burada dünyasını dəyişib.**

Tuğ kəndində, üzümlüyün kənarındakı bu çən nişangah imiş. Arxada döyüşçülərimizin səngəri olub. Düşmən səngəri vurmaq üçün bu çəni nişan götürübmüş. Ordumuzun zabiti Anar Əliyev və onu xilas etməyə gəlmiş hərbi həkim Adil Əfəndiyev bu yerdə şəhid olublar. II Qarabağ savaşı tarixi zəfərlə bitəndən sonra Adilin doğmaları onun əbədiyyətə qovuşduğu ünvanı təsəlli olaraq ziyarət ediblər.

...Balaca Adil süfrəni dartışdırır, istəyir onu qucağıma götürüm. Mənim fikrim isə nənəsi ilə anasının söhbətindədir – göz yaşları içində, yanğı ilə danışırlar. Axır ki, dinclik tapmayan uşağı qucağıma alıram. Oxşayıb adını soruşuram. Nənəsi deyir ki, balaca Adil Əfəndiyevdir.

Xüsusi təyinatlıların şəhid həkimi Adil Əfəndiyevin ailəsindəyik, bəhs etdiyim uşaq isə onun bacısı Nərminin 1 yaşlı oğludur. Böyük Adil 1995-ci il avqustun 12-də Qazaxda Qədir və Afət Əfəndiyevlərin ailəsində doğulub. Onun dünyaya gəldiyi rayon da Qarabağ kimi düşmən hədəfində idi. Adil dünyaya gələndə yenicə atəşkəsə keçilsə də, sərhəddə ara-sıra atışma gedirdi, yaralanan, şəhid olan da var idi. İkinci Qarabağ savaşında düşməni əzib torpaqlarımızdan qovan döyüşçü nəsli bax o illərdə dünyaya göz açmışdı. Ağılları söz kəsəndən qəsdləri düşməndən intiqam almaq olmuşdu.

Adilin anası Afət xanım fizika müəllimidir. Qazax şəhəri Mehdi Hüseyn adına Humanitar və təbiət fənləri məktəb-liseyində Adilə də dərs deyib:

– Onu universitetə də özüm hazırlamışdım. Adil liseyi 2012-ci ildə əla qiymətlərlə başa vurub. Bütün fənləri əla oxuyub. Tarix müəllimi deyirdi ki, qoyun Adil tarixçi olsun. Biologiya müəllimi təkid edirdi ki, o, həkim olmalıdır. Ədəbiyyatı da çox sevirdi. Evdə indi də kitabxanası yadigar saxlanır. Hərtərəfli uşaq idi, həyatı sevirdi, hər sahəni öyrənmək istəyirdi. Orta məktəbi bitirdiyi il Azərbaycan Tibb Universitetinə qəbul olundu. Hərbçi həkim olmaq da öz seçimi idi. Deyirdi ki, Qarabağı tez-gec savaşla geri qaytarmalı olacağıq. Universiteti əla qiymətlərlə başa vurub Culfa rayonunda həkim kimi hərbi xidmətə başlamışdı.

Müharibənin ilk günlərindən Adil də cəbhəyə getmək üçün hərbi rəhbərliyə müraciət edib. Tələbəlik dostu Turqut Xəlilbəylinin şəhid olması onun intiqam hissini alovlandırıb. İstəyinə çatanda atasına deyib ki, anama, bacıma demə. Atası deyəndə ki, bala, özünü qoru, bildirib: "Özümü qorumağa gedirəm, yoxsa Vətəni?".

Anasının dediklərindən öyrəndik ki, Adil Naxçıvandan xidmət etdiyi Xüsusi Təyinatlı Qüvvələrin tərkibində müharibəyə yollanıb. 18 oktyabrda onları döyüş bölgəsinə, Füzuli rayonuna gətiriblər. Oktyabrın 22-də Xocavənd–Cəbrayıl–Füzuli istiqamətində Tuğ kəndində qızğın döyüşlər zamanı yaralanmış komandiri Anar Əliyevin həyatını xilas edərkən onunla birlikdə şəhid olub. Anarın yaralı fəryadını eşidib. Eşidib ki, atəşin altında yaralı halda "Əfəndiyev" – deyə onu çağırır. Feldşeri "mən gedərəm, siz qalın" – deyəndə ona acıqlanıb ki, sənin ailən var, komandiri özüm çıxaracağam, atəş olsa, qoy mənə dəysin".



Atəş altında Anar Əliyevin yarasını sarıyıb arxaya çıxartmağa çalışarkən həmin yerdəki su çəninin altına əl qumbarası atıblar. Adil Anar Əliyevlə birlikdə Xocavəndin Tuğ kəndindən Şuşaya gedən yolda şəhid olub. Oktyabrın 25-də Qazax şəhər qəbiristanlığında izdihamla dəfn edilib.

Afət xanım danışdıqca gözləri bulud kimi dolub-boşalır. Ağlamır, yağış yağır yanaqları boyu: "Bacısı nişanlı idi, toyunu edəcəkdik, Adil dedi ki, məni gözləməyin. Dedim, olmaz, bircə bacın var, bircə qardaşısan, sənsiz olmaz". Bacısı da oturub anasını dinləyir, ağlayır, hərdən söhbətə qoşulur, qardaşı barədə danışır, həsrət dolu sevgi ilə elə danışır ki, sanki qardaşı indicə qapını açıb içəri girəcək...

25 yaşında şəhidlik zirvəsinə yüksələn tibb xidməti leytenantı Adil Əfəndiyev ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" , "Xocavəndin azad olunmasına görə" , "Füzulinin azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları, "3-cü dərəcəli Vətənə Xidmət" ordeni ilə təltif edilib. Təhsil aldığı Azərbaycan Tibb Universitetində mühazirə salonu onun adını daşıyır. Universitetin həyətindəki şəhid tələbələr lövhəsinə də adı həkk olunub. Qazaxda bir küçəyə onun adı verilib. Həm Qazaxda, həm də Bakıda yaşadığı binaların üstünə barelyefi vurulub. Bakıda yaşadığı binanın həyətində onun şərəfinə abidə kompleksi inşa edilib.

...Bir də indi qucağıma sığınmış bacısının oğlu – 1 yaşlı Adil Əfəndiyev. Bütün bunlar həmişə 25 yaşda qalacaq igid hərbi həkim Adil Əfəndiyevin ölməzlik nişanələridir.

***Ramilə QURBANLI***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında 2023-cü ilin oktyabr ayında vətəndaşların qəbulu cədvəli

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Baş nazirin birinci müavini** Eyyubov Yaqub Abdulla oğlu | 2 |
| **Baş nazirin müavini** Əhmədov Əli Cavad oğlu | 3 |
| **Baş nazirin müavini** Mustafayev Şahin Abdulla oğlu | 4 |
| **Aparatın rəhbəri** Məmmədov Rüfət Tofiq oğlu | 5 |
| **İqtisadiyyat şöbəsinin müdiri** Əmiraslanov Azər Kamal oğlu | 6 |
| **Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri** Rüstəmli Ruslan Rüstəm oğlu | 9 |
| **Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri** Paşayev Zakir İlqar oğlu | 10,25 |
| **Hüquq və qanunvericilik** şöbəs**inin müdiri** Qasımlı Xalid Akif oğlu | 11,26 |
| **Sosial məsələlər şöbəsinin müdiri** Rəhimov Niyazi Süleyman oğlu | 12,27 |
| **Humanitar məsələlər şöbəsinin müdiri vəzifəsini icra edən** Həbibbəyli Ərəstü İsa oğlu | 13 |
| **Sənaye və energetika** şöbəs**inin müdiri** Hacızadə Elşən Mahmud oğlu | 16,24 |
| **Aqrar və ekologiya şöbəsinin müdiri** Qasımov Lətif Cəfər oğlu | 17 |
| **Regionların inkişafı şöbəsinin müdiri** Məcidov İlkin Sabir oğlu | 18 |
| **Tikinti, şəhərsalma və kommunal təsərrüfat şöbəsinin müdiri** Mustafayev Feyruz Rəvayət oğlu | 19,30 |
| **Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri** Pənahov Musa Sədi oğlu | 20 |
| **Təhlükəsizlik, müdafiə və səfərbərlik şöbəsinin müdiri** Məmmədov Anar Rəhim oğlu | 23,31 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Qəbul otağında qəbul olunurlar**
**Ünvan: Bakı şəhəri, Səbail rayonu, Lermontov küçəsi, 68.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: (012)492-19-23, (012)492-88-96.**

# XİN BMT-nin insan hüquqları üzrə ali komissarına cavab verib

**Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası ilə bağlı atdığı bütün addımlar, o cümlədən son 24 saatlıq antiterror tədbirləri beynəlxalq hüququn norma və prinsiplərinə tam uyğun şəkildə həyata keçirilib. Azərbaycan hər zaman həyata keçirdiyi tədbirlər çərçivəsində mülki əhalinin və mülki obyektlərin qorunmasına sadiq olub.**



Bu fikirlər Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin BMT-nin insan hüquqları üzrə ali komissarı Folker Türkün bölgədəki mövcud vəziyyət və etnik azlıqların hüquqlarının qorunması öhdəliyi barədə fikirlərinə dair şərhində yer alıb.

Bildirilib ki, Ermənistanın 30 ilə yaxın hərbi işğalı zamanı kütləvi qətllərə məruz qalan azərbaycanlıların öz hüquqlarından məhrum olmasına baxmayaraq, Azərbaycan öz ərazisində olan bütün etnik azlıqların, o cümlədən ermənilərin hüquqlarının qorunmasına həmişə sadiq olub. Azərbaycan rəhbərliyi bunu dəfələrlə şifahi şəkildə bəyan edib.

Təəssüf ki, indiyədək heç kim bir milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkünün hüquqlarını qorumağa, o cümlədən onların təhlükəsizlik və ləyaqət şəraitində qayıtmaq hüquqlarını təmin etməyə dair çağırış etməyib. Azərbaycanın 44 günlük müharibədən, o cümlədən antiterror tədbirləri həyata keçirildikdən sonra itkin düşmüş şəxslərin yerini tapmaq üçün kömək göstərməsinə baxmayaraq, 4000-ə yaxın itkin düşmüş azərbaycanlıya qarşı eyni diqqət və həssaslığı müşahidə etmirik.

"Ümid edirik ki, ali komissarın qurbanların hüquqları baxımından günahkarların məsuliyyətə cəlb olunması və cəzalarını çəkmələri məsələsinin həllini tapması üçün şəffaf istintaq aparmaq çağırışları, Azərbaycanın 30 ilə yaxın müddətdə Xocalı soyqırımı, digər kütləvi qətliam və insanlıq əleyhinə cinayətlərdə təqsirli şəxsləri cəzalandırmaq istiqamətində çağırışlarına məhəl qoymayan beynəlxalq ictimaiyyət tərəfindən ciddi şəkildə qəbul ediləcək.

Biz, həmçinin Ermənistanın, BMT nümayəndəsinin bu çağırışına əməl etməklə, bu ölkənin indiki ərazisindən kütləvi surətdə qovulmuş azərbaycanlıların hüquqlarını inkar etməyəcəyinə və onların öz evlərinə qayıtmaq hüquqlarını təmin etmək üçün dialoqa şərait yaradacağına ümid edirik", – deyə mətbuat katibi vurğulayıb.

***XQ***

# Azərbaycan dezinformasiyadan əziyyət çəkən ölkədir

**Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Moldovanın Xalq Müdafiəçisi (Ombudsman) Aparatının 25-ci ildönümünə həsr olunmuş "Müasir cəmiyyətlərdə mövcud olan yeni çağırışlar kontekstində insan hüquqlarının müdafiəsi və təbliği" mövzusunda beynəlxalq konfransda iştirak edib.**



Ombudsman Aparatından bildiriblər ki, xarici ölkələrin ombudsmanlarının qatıldıqları tədbirdə "İnsan hüquqları və bərabərlik üzrə maarifləndirmə və təşviq dezinformasiya və propaqanda ilə mübarizə vasitəsi kimi" mövzusunda çıxış edən müvəkkil əhalinin müxtəlif qruplarının hüquqlarının təmini və təbliği istiqamətində fəaliyyəti barədə ətraflı məlumat verib.

S.Əliyeva Ombudsman təsisatının insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində əhalinin məlumatlılığının artırılmasında, milli qanunvericiliyin təkmilləşdirilməsi prosesində fəal iştirak etdiyini bildirib.

Azərbaycanın regionda, eləcə də bütün dünyada dezinformasiyadan və propaqandadan ən çox əziyyət çəkən ölkələrdən biri olduğunu vurğulayan ombudsman Ermənistan hərbi-siyasi rəhbərliyi tərəfindən uzun illər aparılan nifrət siyasətinin sülhə ciddi təhdid yaratdığını və insan hüquqlarının pozulmasına səbəb olduğunu qeyd edib. Həmçinin Azərbaycana qarşı etnik nifrət zəminində aparılan siyasətinin nəticəsi olaraq Ermənistan hakimiyyətinin sosial mediada davamlı şəkildə xalqlar arasında düşmənçilik hissi aşılayan mənfi təbliğat kampaniyası apardığı diqqətə çatdırılıb.

**XQ**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 343** **Bakı şəhəri, 26 sentyabr 2023-cü il**

***"Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 15 aprel tarixli 117 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 15 aprel tarixli 117 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 4, maddə 588) 10-cu hissəsi aşağıdakı redaksiyada verilsin:

"10. Bu Qərarın 8-ci hissəsi 2023-cü il yanvarın 1-dən tətbiq edilir, digər hissələri isə 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 344** **Bakı şəhəri, 26 sentyabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 may tarixli 172 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin keçirilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 876-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 may tarixli 172 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 596, № 12, maddə 1655; 2016, № 4, maddə 818; 2019, № 11, maddə 1861) ilə təsdiq edilmiş "Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.4-cü bənddən "müvafiq məsələlər barəsində" sözləri çıxarılsın və həmin bəndə "hazırlanması" sözündən sonra "(öyrənilməsi)" sözü əlavə edilsin.

**2.** 3.1-ci bəndin ikinci cümləsində "məsələ" sözü "layihə" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 345** **Bakı şəhəri, 26 sentyabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi Qaydası"nın təsdiq edilməsi barədə" 2013-cü il 5 noyabr tarixli 320 nömrəli və "Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinə qəbulu, həmin müəssisələri tərk etməsi, uşaq evlərində xidmətin təşkili, həmçinin uşaq evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar"ın təsdiq edilməsi haqqında" 2021-ci il 26 aprel tarixli 112 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 744-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 5 noyabr tarixli 320 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 11, maddə 1457; 2015, № 12, maddə 1584; 2016, № 11, maddə 1976; 2019, № 3, maddə 514, № 7, maddə 1318; 2020, № 11, maddə 1410; 2021, № 3, maddə 273, № 10, maddə 1163; 2022, № 7, maddə 819, № 9, maddə 1100, № 12, maddə 1552; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 13 sentyabr tarixli 323 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi Qaydası"nın 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.2.1.3-cü və 2.4.4-cü yarımbəndlərə "təqdim olunmuş" sözlərindən sonra "(bu Qaydanın 2.8-ci bəndinin tələbləri nəzərə alınmaqla) sözləri əlavə edilsin;

1.2. aşağıdakı məzmunda 2.8-ci bənd əlavə edilsin:

"2.8. Bu Qaydanın 2.1-ci, 2.2-ci, 2.4-cü və 2.5-ci bəndlərində nəzərdə tutulan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Bu sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.";

1.3. "Qeyd"in mətni 2.9-cu bənd hesab edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 aprel tarixli 112 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 4, maddə 415; 2022, № 7, maddə 819, № 9, maddə 1101) ilə təsdiq edilmiş "Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinə qəbulu, həmin müəssisələri tərk etməsi, uşaq evlərində xidmətin təşkili, həmçinin uşaq evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar"ın 2.4-cü bəndinə "Təqdim edilmiş" sözlərindən sonra "(bu Qaydaların 2.3-cü bəndinin ikinci cümləsinin tələbləri nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# İnkar və imtinanın sonu deyilmi, İrəvan?

## *Tanınmış ekspert hesab edir ki, bu gün erməni cəmiyyətinin məsuliyyəti öz üzərinə götürənə, düzgün çıxış yolu göstərənə ehtiyacı var*

**Hayastan daxilində daxili fəsadların çoxalması, radikalların fəallaşması, sabiqlərin yenidən bir düşərgədə cəmləşməsi, "İstefa!" qışqıranların sayını artırmağa çalışanların canfəşanlığı Paşinyan iqtidarını çətin sınaqların gözlədiyindən xəbər verir. Bu, azmış kimi, xarici təzyiqlərə qatlaşmalı olan İrəvan iqtidarının vəziyyətdən polis dəyənəyinin gücü ilə çıxmağa qərar verdiyini söyləmək olar.**



**Bu barədə qəzetimzə danışan tanınmış siyasi şərhçi, teleaparıcı Tofiq Abbasov** Ermənistanda vahid idarəetmə institutunun, mərkəzləşmiş sistemin olmadığını söyləyir. Nikol Paşinyanın bunu istəsə belə, bacarmadığını deyən siyasi şərhçinin qənaətincə, orada hazırda dövləti idarə edənlərin sıralarında da parçalanmanın baş verdiyini vurğulayır. Onun fikrincə, bir qisim köhnə hakimiyyətin geri qayıdacağı arzusu ilə yaşayır, ikincisi yeni qüvvələrə güvənməyə üstünlük verir, üçüncüsü isə mövcud iqtidarın yanında duracağını qərarlaşdırıb: "Nikol Paşinyan deyir ki, mən sona qədər demokratiyanın keşiyində dayanacağam. Yeni sistemi qurmalı, tədricən onu inkişaf etdirəcəyini bildirib. O, faktiki olaraq, həyata keçirməklə nə qazandığı barədə düşünməlidir. Həqiqətən də nə qazanıb? Yaxud da Emmanuel Makronun bu günlərdə dediklərinə diqqət yetirin: "Biz sona qədər Ermənistanın yanında duracağıq".

Yaxşı, de görüm, ay Paris, İrəvanın yanında durmaqla onun üçün nə etmisən? – deyə sual edən siyasi şərhçi Fransanın Ermənistanı yalnız və yalnız uçurumun kənarına sürüklədiyini bildirir: "Cəmi bir addımdan sonra Ermənistan uçuruma yuvarlanacaq. Buna görə İrəvan lüzumsuz və faydasız himayəçilikdən, lobbiçilikdən, diasporçuluqdan, eləcə də Fransa və Hindistanın yersiz müdaxilələrindən canını qurtarmalıdır. Qarşısında duran hədəfləri dəqiqləşdirməli və onları reallaşdırmaq barədə düşünməlidir.




ölkədə vəziyyətin hədsiz dərəcədə gərgin olduğunu deyir. Həqiqətən də, hazırda İrəvan qibtə ediləsi durumda deyil. Bir yandan, misal üçün, Azərbaycan-Türkiyə birliyinin haqlı tələbləri ilə üz-üzə qalıb, digər yandan Azərbaycanın artıq lokal antiterror tədbirləri ilə öz ərazisində suveren hüquqlarını tam təmin etməsi faktı istər-istəməz Ermənistanın siyasi elitasına, zümrəsinə öz təsirini göstərir. Onlar əsas və sağlam yoldan çıxdıqlarını yaxşı anlayırlar. Obrazlı desək, indi onlar üzüyuxarı cığırla sürünməyə məhkum ediliblər. İrəvan inkar və imtina siyasətini

Bunun üçün ölkədə mərkəzləşmiş siyasi sistem qurulmalıdır. Daxili saflaşma getməlidir. Ermənistanın başqa xilas yolu yoxdur. Hələ ki biz Hayastanda siyasi xaosu izləməkdəyik. Dövlət və xalq üçün taleyüklü məsələlərə ortaq yanaşma, baxış yoxdur. Mərkəzi hakimiyyət bütün məsuliyyəti öz üzərinə götürərək, çıxış yolları aramalıdır. Əks təqdirdə Ermənistanın bir dövlət kimi müqəddəratı gündəmə gələcək. Belə dövlət olmaz. Həm qonşularla vuruşsunlar, həm də olan-qalan imkan və potensialını silah-sursata xərcləsinlər, ortaya da bir şey çıxara bilməsinlər. Əhali də bir ucdan ölkəni tərk etməkdədir. Belə davam edərsə, nəinki "Böyük Ermənistan", heç suverenlik barədə danışmağa əsasları qalmayacaq".

***

"Biz həmişə müttəfiqlərimizə xəyanət etmişik və indi düşdüyümüz vəziyyətə görə özümüz günahkarıq". Etnik faciələrin baiskarı kimi öz millətini qınayan erməni jurnalisti Lilit Kostanyan bu acı etirafı "Facebook" səhifəsində paylaşıb. Mənsub olduğu xalqın yarımçıqlıq kompleksindən əziyyət çəkdiyini deyən Lilit hayların xarakterik cizgilərini bənzərsiz ustalıqla qələmə alır: "Əsrlər boyu üzləşdiyimiz problemləri həll etməməyə, onu faciəyə çevirməyə, sonra da oturub zülüm-zülüm ağlamağa, yalançı soyqırımlara qəmli mahnılar qoşmağa, hətta bunu biznesə çevirməyə bir növ adət etmişik. İndi isə bizə kömək əlini uzatmadığı üçün bütün dünyanı qınayırıq".

Erməni ruhunun və düşüncəsinin bunca dəqiq mənzərəsini yalnız erməni özü yarada bilərdi. Lilit heç nədən və heç kəsdən çəkinmədən gəldiyi qənaəti tam çılpaqlığı ilə sərgiləməkdə davam edir: "Axı biz dünya ilə düzgün dost olmağın qaydalarını heç vaxt bilməmişik. Bir dövlətlə dostlaşmışıq, sonra onu atıb başqasının yanına qaçmışıq, ardınca bunu da atmışıq, digərinin ətəyindən yapışmışıq və beləcə davam edir. Başımıza gələnlərə, bizimlə belə davrandıqlarına görə özümüz və yalnız özümüz günahkarıq. Hərdən heyrət məni bürüyür ki, biz ermənilər XXI əsrə necə gəlib çıxmışıq".

Bir millət kimi öz qiymətlərini zərgər dəqiqliyi ilə verən Lilit Kostanyanın yazdıqlarına heç bir şərh vermək fikrində deyilik və buna heç ehtiyac da yoxdur. İndiki halda bizə, sadəcə olaraq, qonşunun halına təəssüflənmək düşər.

***İ.HƏSƏNQALA***
***XQ***

# Qarabağ regional logistika şəbəkəsində

**Azərbaycanın böyük təbii sərvətləri, iqtisadi potensialı və əlverişli iqtisadi-coğrafi mövqeyi onun dünya iqtisadiyyatına inteqrasiyana geniş imkanlar açır. Bu, ölkəmizə öz iqtisadi gücünü artırmağa, istehsalın səmərəliyini və əhalinin rifahını yüksəltməyə imkan verir.**

Beynəlxalq iqtisadi inteqrasiyanın ən mükəmməl forması isə ümumi bazardır. Bu bazarda aparıcı rol təbii olaraq energetika sektorunun payına düşür. Lakin son illərdə qeyri-neft sektoru üzrə ixrac potensialının möhkəmləndirilməsinə, nəqliyyat infrastrukturunun inkişaf etdirilməsinə diqqət artır. Bu isə ölkəmizi regional logistika mərkəzinə çevirir. Azərbaycan Rusiyanı İranın dəniz limanları ilə birləşdirməkdə Avropa və Rusiya bazarlarının Cənub-Şərqi Asiya bazarları ilə inteqrasiyasında önəmli rol oynayır. Bütün bunlar ölkəmizə ortamüddətli perspektivdə ciddi büdcə gəlirləri qazandıracaq. Layihənin həyata keçirilməsində maraqlı olan bütün tərəflərə güclü iqtisadi təsir göstərmək imkanı verəcək.




## Zəngəzur dəhlizi – Avrasiyanın tutulmuş damarı

Buna nail olmaq üçün müasir tələblər nəzərə alınmaqla dəmir yolu və avtomobil kommunikasiyaları bərpa olunmalı, sərmayələr qoyulmalıdır. Sərmayələrin yatırılması kifayət qədər varlı Azərbaycan üçün heç bir çətinlik yaratmır.

İnfrastruktur layihələri isə həmişə iqtisadi həyatın sürətləndiricisi kimi çıxış edir. Onlar regional əmək bazarının canlandırılmasına xidmət edir. Qarabağ da bu infrastruktur layihələrinin tərkib hissəsidir. Onun coğrafi mövqeyi, ərazidən Avropaya və Asiyaya çıxış imkanlarının artması ölkəmizin beynəlxalq nəqliyyat-kommunikasiya və dəhliz layihələrində bundan sonra da daha fəal iştirakını gücləndirir. Hazırda Qarabağda həyata keçirilən mühüm strateji obyektlərin, müəssisələrin təməlinin Prezident İlham Əliyev tərəfindən şəxsən qoyulması görülən işlərin xüsusi diqqət mərkəzində saxlandığından xəbər verir.

Bu layihələrdən biri də uzunluğu 100,4 kilometr olan Horadiz-Ağbənd dəmir yolu xəttinin tikintisidir. İqtisadçı Vüqar Bayramov bu barədə deyib: "Nəqliyyat infrastrukturunun istər Azərbaycan, istərsə də region dövlətləri üçün böyük əhəmiyyəti var. Azərbaycan və onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə Zəngəzur dəhlizi vasitəsilə dəmir yolu əlaqəsi yaranacaq və yol Türkiyəyə qədər uzanacaq. Bununla da Rusiya–Türkiyə, Rusiya–İran, Rusiya–Ermənistan arasında birbaşa dəmir yolu əlaqəsi qurulacaq ki, bu da bölgədə strateji, iqtisadi və siyasi əlaqələrin yaranmasına böyük töhfə verəcək".

İqtisadi İslahatların Təhlili və Kommunikasiya mərkəzinin ekspertləri isə bildiriblər ki, meqa transregional layihələr iqtisadi əlaqələrin möhkəmləndirilməsində çox mühüm rol oynayaraq istehsalçı, tranzit və istehlakçı ölkələr arasında güclü inteqrativ əlaqələrin qurulmasına təkan verir. "Aydındır ki, Horadiz–Ağdaban dəmir yolu xətti, Zəngəzur dəhlizi və oxşar layihələr geniş arteriyaya malik nəhəng dəhlizlərin formalaşmasına səbəb olur. Bu da öz növbəsində Şərqlə Qərbi birləşdirmək baxımından xüsusi strateji əhəmiyyətə malikdir.

Beləliklə, beynəlxalq hüquqi, iqtisadi, mədəni əlaqələri və qarşılıqlı anlaşmanı gücləndirməklə Zəngəzur dəhlizi kimi layihələr regional əməkdaşlıq və təhlükəsizlik üçün yeni imkanlar gətirir. Bu layihələrin əhəmiyyəti və regiona gətirə biləcəyi üstünlüklər hər kəsə fayda verə biləcək yeni geoiqtisadi vəziyyət yaradır. Mərkəzi Asiya, Cənubi Qafqaz və qonşu regiondakı ölkələr Azərbaycanın liderliyi ilə əldə edilən yeni geoiqtisadi vəziyyət nəticəsində inkişaf etmiş Avropa ölkələri vasitəsilə texnoloji yeniliklərə çıxış əldə edəcək və iqtisadi səmərəliliyi artıracaq. Bunun qarşılığında isə, Avropa ölkələri yeni iqtisadi tərəfdaşlar və təhlükəsiz nəqliyyat kanalları əldə etmək baxımından üstünlüklərdən faydalanacaqlar.

Əlavə olaraq, Zəngəzur Dəhlizinin reallaşması Çin tərəfindən təşəbbüs edilmiş "Bir kəmər, bir yol" (BRI) layihəsinə töhfə verəcək və Mərkəzi Asiya da daxil olmaqla region ölkələrinin BRI layihəsinin nəqliyyat və logistika dəhlizinə çevrilməsində rol oynayacaq. Belə ki, Horadiz–Ağdaban dəmir yolu xətti, Zəngəzur dəhlizi Şərq–Qərb marşrutu üzrə şaxələndirmə imkanlarını artırır. Ona görə də Cənub–Şərqi və Mərkəzi Asiya ölkələri, eləcə də Avropa İttifaqı bu layihənin həyata keçirilməsində maraqlı tərəflərdir.

Bu dəmir yolu infrastrukturu Türkiyəyə qədər uzanacaq və Azərbaycanı Türkiyə ilə birləşdirən ikinci dəmir yolu şəbəkəsi yaradılacaq. Rusiya ilə İran arasında Naxçıvan ərazisi ilə, İran ilə Ermənistan arasında və Türkiyə ilə Rusiya arasında dəmir yolu bağlantısı olacaq.

Beləliklə, Horadiz–Ağdaban dəmir yolu xətti işğaldan azad edilmiş torpaqlara həm vətəndaşların gediş-gəlişini, həm də yüklərin daşınmasına imkan verəcək. Ən əsası, türk dünyası uzun illərdən sonra yenidən Zəngəzur dəhlizi vasitəsi ilə birləşəcək. Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizlərinin əhəmiyyətini daha da artıracaq. Ölkəmizin gəlirlərinə təsir edəcək.

Qarabağda həyata keçirilən ikinci dəmir yolu xətti Bərdəni Ağdamla birləşdirir. Bərdə–Ağdam dəmir yolu xəttinin strateji əhəmiyyəti var. Bu barədə iqtisadçı-ekspert Natiq Cəfərli qeyd edib ki, dəmir yolu ilə yüklərin daşınması iqtisadi baxımdan daha sərfəlidir: "Logistikanın ucuzlaşdırılması baxımından dəmir yolları şəbəkəsinin yaradılması və köhnə yolların yenidən işlək vəziyyətə gətirilməsinin ciddi əhəmiyyəti var. Nəzərə almaq lazımdır ki, bu dəmir yolu vasitəsilə Qarabağa 100 minlərlə ton yük daşınacaq. Logistik mərkəz kimi Ağdamın seçilməsi daha məqsədəuyğundur. İşğaldan azad edilmiş rayonların – Füzuli, Cəbrayıl və Zəngilanın bərpasında Ağdam istiqaməti mühüm rol oynayacaq. Dəmir yolunun bərpası həmin sahələrə yük daşınmasını həyata keçirəcək. Bərdə–Ağdam dəmir yolu xətti vasitəsilə Ağdam və digər rayonlarda geniş tikinti-bərpa və abadlıq-quruculuq işləri görüləcək".

Qeyd edək ki, Horadiz–Füzuli və ondan sonra Füzuli–Şuşa dəmir yolunun tikintisi də nəzərdə tutulur. Şuşaya vətəndaşlar qayıdandan sonra bu yol istismara veriləcək.

## Yeni yollar Qarabağı sabaha aparır

Hazırda işğaldan azad edilmiş ərazilərin nəqliyyat komnukasiya xəttlərinin çəkilişi bütün istiqamətlər üzrə aparılır. Qarabağ iqtisadi rayonu üzrə avtomobil yolları tam sürətlə tikilir. Ümumi uzunluğu 1513 km olan bu yollar Qarabag və Şərqi Zəngəzur iqtisadi rayonlarının əsas nəqliyyat qovşaqlarını əhatə edəcək. İcrası 2026-cı ilə qədər başa çatacaq yolların bir hissəsi artıq təhvil verilib. Avtomobil yolları dövlət agentliyinin mətbuat katibi Anar Nəcəflinin sozlərinə gorə, 2023-cü ilin sonu, 2024 cü ilin əvvəllərinə qədər 7 yolun tikinti işlərinin yekunlaşması planlaşdırılır. İcra olunan layihələr çərçivəsində iqtisadi rayonların daxili yolları da yaşayış məntəqələrinə uyğun olaraq yenidən qurulacaq.

Anar Nəcəfli onu da bildirib ki, layihələrə uyğun olaraq işlər plan üzrə aparılır. Ərazilərin həddən artıq minalarla çirkləndirilməsi işlərin bəzi yerlərdə ləngiməsinə səbəb olur. Ümumilikdə isə 2026-cı ildə mövcud layihələrin yekunlaşdırılması planlaşdırılır.Qarabağda həyata keçirilən layihələr arasında Bərdə–Ağdam, Ağdam–Füzuli, Horadiz–Ağbənd və s. kimi iri layihələr var. Bu avtomobil yolları respublikamızın regionları arasında iqtisadi əlaqələrin inkişafı, nəqliyyat xərclərinin azadılması baxımından mühüm əhəmiyyətə malikdir. Bununla yanaşı, ölkəmizin ərazisindən keçən nəqliyyat dəhlizlərini əlaqələndirən yollar tranzit xidmətlərinin səmərəliliyinin artırılmasında mühüm rol oynayırlar.

Beləliklə, beynəlxalq əhəmiyyətli yol infrastrukturunun qurulması Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya prosesini sürətləndirməklə yanaşı, regionda daha çox məşğulluğun təmin olunmasına şərait yaradacaq.

## Cəbrayılda yarımstansiya tikilir

Cəbrayıl yarımstansiyası Qarabağ və Şərqi Zəngəzur regionlarının dayanıqlı elektrik enerjisi ilə təchizatını təmin edir. Həyata keçirilən meqalayihələrin tələbatını qarşılayır. Sonrakı mərhələdə isə Cəbrayıl-Naxçıvan-Ağrı (Türkiyə) yarımstansiyaları, oradan isə Türkiyənin enerji sistemi vasitəsilə Avropa enerji bazarlarına əlavə və daha əlverişli çıxış əldə etmək, ixrac imkanlarını artırmaq, uzun illərdən sonra Naxçıvan Muxtar Respublikasını Azərbaycanın ümumi enerji sisteminə qoşmaq mümkün olacaq. O cümlədən İranla müştərək tikilən "Xudafərin" və "Qız Qalası" Su Elektrik stansiyalarında, həmçinin alternativ və bərpaolunan enerji mənbələrində və kiçik su elektrik stansiyalarında istehsal ediləcək enerjinin Azərbaycanın ümumi enerji sisteminə ötürmək üçün 330 kilovoltluq "Cəbrayıl" yarımstansiyasının tikilməsi olduqca mühüm hadisədir.

Rusiyalı ekspert Anatoli Kolesnikov da Azərbaycanda həyata keçirilən infrastruktur layihələrinə toxunub: "Yollar, körpülər, enerji sistemləri və digərləri kimi dağılmış infrastrukturun bərpası və inkişafı iqtisadi artım üçün yeni imkanlar yaradır və ərazidəki insanların həyatını yaxşılaşdırır. Gələcəkdə Qarabağ ermənilərinin Azərbaycana reinteqrasiyası Azərbaycan və Ermənistan arasında transsərhəd iqtisadi əməkdaşlığın inkişafı üçün imkanlar yaradacaq, ticarətin, nəqliyyat əlaqələrinin və digər qarşılıqlı fəaliyyət növlərinin inkişafına töhfə verəcək. Bu da öz növbəsində regionda sülhün və sabitliyin möhkəmlənməsinə kömək edəcək.

Beləliklə, həyata keçirilən nəqliyyat layihələrinin əhatəli olması və Qarabağa müxtəlif istiqamətlərdən hərəkət etməyə imkan yaratması gələcəkdə bu regionun qonşu ölkələr ilə iqtisadi əlaqələrin qurulmasında əsas tranzit əraziyə çevrilməsinə imkan yaradacaq, regional ölkələr arasında ticarət əlaqələri genişlənmiş olacaq. Nəqliyyat layihələrinin, o cümlədən hava limanlarının tikintisi eyni zamanda Qarabağın malik olduğu turizm potensialının da reallaşdırılmasına imkan yaradacaq. Ona görə də azad edilmiş ərazilərdə zəruri infrastrukturun yaradılması təkcə Azərbaycan üçün deyil, eyni zamanda qonşu ölkələr üçün də əhəmiyyətlidir. İşğaldan azad edilmiş ərazilərdə görülən işlər, həyata keçirilən tədbirlər bunu deməyə əsas verir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

**Füzuli**

# AZƏRTAC-ın uğuru

**Azərbaycan Dövlət İnformasiya Agentliyi - AZƏRTAC "Bir kəmər, bir yol" İqtisadi İnformasiya Tərəfdaşlığı platformasının Rəyasət Heyətinin üzvü seçilib.**

Bununla bağlı qərar qurumun iclasında qəbul olunub. AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev tədbirdə iştirak edib.

İclasda Sinxua agentliyinin prezidenti Fu Hua platformanın əhəmiyyətindən danışıb.

Sonra Rəyasət Heyətinin üzləri Fu Hua, Vüqar Əliyev və Xose Xuan Sançez qurumun yeni üzvlərinə sertifikatlar təqdim ediblər.

Qeyd edək ki, platforma Çinin Sinxua xəbər agentliyinin təşəbbüsü ilə 2019-cu ildə yaradılıb və dünyanın bir çox ölkələrindən KİV-i, beyin mərkəzlərini öz ətrafında birləşdirir. AZƏRTAC platformanın təsisçilərindən biridir.



**XQ**

# Zəngəzur dəhlizi – Şərqi Qərbə birləşdirən arteriya

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin nəzdində fəaliyyət göstərən Türk Dünyası Araşdırmalar Mərkəzinin rəhbəri vəzifəsini icra edən Ayhan Satıcı Qazaxıstanın Almatı şəhərində keçirilən Beynəlxalq "Şərq-Qərb Logistika" Forumunda Azərbaycanı təmsil edib.**



Ayhan Satıcı forumda "Zəngəzur dəhlizinin Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq Təşkilatı (CAREC) ilə Avropa İttifaqı arasında iqtisadi münasibətlərin perspektivləri" adlı təqdimatla çıxış edib. O bildirib ki, Zəngəzur dəhlizinin böyük regional və beynəlxalq əhəmiyyəti var. Çünki bu layihə Şimal ilə Cənub, Qərb ilə Şərq nəqliyyat dəhlizlərini birləşdirən önəmli arteriyadır.

İkigünlük beynəlxalq forumda CAREC İnstitutu, Asiya İnkişaf Bankı və Alman-Qazax Universitetinin, həmçinin ABŞ, Almaniya, Türkiyə, Yaponiya, Hindistan, Qazaxıstan, Qırğızıstan və digər ölkələrin nüfuzlu institut və beyin mərkəzlərinin alimləri iştirak ediblər.

**XQ**

**TƏQVİM YADA SALIR**

# Qızılağac – Azərbaycan təbiətinin qızıl səhifəsi

**Bugünlərdə Qızılağac Dövlət Təbiət Qoruğunun bazasında milli park yaradılmasının 5-ci ili tamam olur. Bu münasibətlə xüsusi mühafizə olunan təbiət ərazisində "Flaminqo festivalı" keçiriləəcək.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəisi Firudin Əliyev bildirdi ki, ölkəmizdə xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin genişləndirilməsi, bioloji müxtəlifliyin qorunub saxlanılması, təbii resurslardan səmərəli istifadə edilməsi və ekoturizmin inkişafına diqqət ümummilli lider Heydər Əliyevin ekoloji siyasətindən irəli gəlib. Prezident İlham Əliyein 26 sentyabr 2018-ci il tarixli sərəncamı ilə Lənkəran, Masallı və Neftçala rayonlarının inzibati ərazilərində Qızılağac Milli Parkının yaradılması bu siyasətin layiqincə davam etdirilməsinin daha bir sübutudur. Milli Parkın yaradılmasının 5 illiyi münasibətilə keçirilən tədbirin Flaminqo quşunun adı ilə bağlanması təsadüfi deyil. Flaminqo nadir quşların məskəni olan Qızılağac Milli Parkının daimi sakinidir.




"Flaminqo festivalı" dövlət rəsmilərinin, qeyri-hökumət təşkilatlarının, özəl şirkətlərin nümayəndələrinin və məktəblilərin iştirakı ilə Qızılağac Milli Parkının ərazisində keçiriləcək. Məqsəd əlamətdar tarixdə bu nadir parkın fəaliyyətini, həmçinin digər milli parkların təbliği istiqamətində görülən işləri, təbiətimizin rəngarəngliyini, biomüxtəlifliyini nümayiş etdirməkdir.

Təbii sərvətləri, iqlim şəraiti ilə diqqət çəkən Azərbaycan ərazisində Qızılağac qoruğu özünəməxsus və bənzərsiz məkandır. Bu yerlərin həlim iqlimi müxtəlif növ iri heyvanların, quşların, sürünənlərin və başqa canlıların normal yaşaması, nəsil verməsi üçün çox əlverişlidir. Tarix boyu bir tərəfdən Xəzərin qalxıb-enməsi, əks səmtdən Kür, Araz, Talış dağlarından axan çaylar, Muğandan yön alan axarlar dənizin cənub-qərbində Qızılağac körfəzini formalaşdırıb. Qərbdən quru, cənubdan nəmiş subtropik, şimaldan mülayim, şərqdən səhra iqlimi ilə əhatə olunan Qızılağac körfəzini çəmənliklər, qamışlıqlar, çay vadiləri əhatə edib.

Qızılağac körfəzi lap qədimdən 2 əsas sərvəti – balıq ehtiyatının və köçəri, yerli su quşlarının çoxluğu ilə diqqəti cəlb edib. Buraya Avropanın şimalından, Qərbi Sibirdən, Uraldan, Qazaxıstandan, Karsk və Ağ dəniz sahillərindən, Peçora, Ob çayları hövzələrindən, Baykal gölündən, Uzaq Şərqdən, Yaponiya, Skandinaviya ölkələrindən quşlar gəlir. Uzun illər boyu Qızılağac körfəzi ona qonşu göl, bataqlıqları ilə "Quşlar diyarı" kimi təbiətşünasların, səyyahların, nəhayət, ornitoloq-zooloqların diqqətini cəlb edib.

I Pyotr 1722-ci ildə Xəzərətrafına yürüşü zamanı bu körfəzin öyrənilməsini əmr edib. 1726-cı ildə ilk müfəssəl xəritə hazırlanıb. 1913-cü ildə Tiflisdə keçirilən naturalistlərin, tibb işçilərinin 13-cü qurultayında Azərbaycan sularında qışlayan quşların mühafizəsini təşkil etmək məsələsi müzakirə olunub. Bu məqsədlə Şirvanda, Muğanda, Lənkəranda, Qızılağac körfəzi və başqa sahələrdə quşların qorunması üçün rəsmi qoruq-yasaqlıqların yaradılması təşəbbüsü irəli sürülüb. Lakin verilən təkliflərin heç biri həyata keçməyib. Mütəxəssis-alimlər öz istəklərinə ancaq 14 ildən sonra nail olublar: Qızılağac körfəzi 1926-cı ildə yasaqlıq, 1929-cu ildə isə qoruq statusu aldı.

Qızılağac qoruğunun ümumi sahəsi 88 min 360 hektardır. Yaranma tarixinə görə üçüncü sayılan Qızılağac qoruğu Azərbaycan ərazisindəki qoruqların ən böyüyüdür. Qoruğun sahəsi təbii landşaft baxımından rəngarəng və müxtəlifdir. 58,4 faiz ərazi su akvatoriyası, 20,3 faiz cəngəllik, 21,3 faiz isə quru düzənliklərdir. Məhz bu keyfiyyəti ərazidə su, bataqlıq, quru mühitə alışan müvafiq heyvan və quş növlərinin məskunlaşmasına şərait yaradır.

Qızılağaca hər il yazda yuva qurmaq üçün Şərq ölkələrindən qaranazlar, ərsindimdiklər, sarı və ağ vağlar, misir vağlar və s. uçub gəlir. Burada turac, soltan toyuğu, qızılqaz, bəzgək, çay ördəkləri, qaşqaldaqlar, qu quşları və s. məskunlaşmışdır. Ərazidə məskunlaşmış 20-dək quş növünün adı Azərbaycanın "Qırmızı kitab" ına daxil edilib. Təbiətinin rəngarəngliyi, bitki və əsasən də heyvanat aləminin zənginliyi, əraziyə çox sayda yerli və xarici turistlərin gəlişini nəzərə alaraq, Qızılağac Dövlət Təbiət Qoruğu, Qızılağac Dövlət Təbiət Yasaqlığı və ona bitişik ərazilərin sahəsi genişləndirilərək 1 milyon hektar ərazidə Azərbaycanın yeganə dənizkənarı milli parkı yaradılıb.

**1 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin rəisi Ceyhun Hüseynov dedi:**

– Biz ərazidə yerləşən təbiət subyektlərinə təkcə nəzarət etmirik, eyni zamanda, ekoloji biliklərin təbliği istiqamətində tədbirlər həyata keçiririk. İdarəmizin əməkdaşları mütəmadi olaraq müəssisələrdə, o cümlədən Qızılağac Milli Parkında məktəblilərin, geniş əhali kütləsinin iştirakı ilə ekoloji mövzuda mühazirələr oxuyur, tədbirlər keçirirlər. Milli Parkda keçiriləcək "Flaminqo festivalı"na isə xüsusi hazırlaşırıq. Parkın yaradılmasının 5 illiyinə həsr olunan bu tədbirdə ekoloji biliklər təbliğ olunacaq, ərazidə geniş abadlıq işləri görüləcək, müxtəlif ağaclar əkiləcək, mövcud yaşıllıqlara aqrotexniki qaydada qulluq göstəriləcək.

Sonda bildirək ki, Qızılağac təbiət ərazisinin respublika milli parkları ailəsinə daxil olmasından cəmi 5 il keçsə də, ərazidə geniş abadlıq, yaşıllaşdırma işləri görülüb, parkın ekoloji mühiti qorunub, daha da zənginləşdirilib. Ekoturizmin inkişafı üçün yeni imkanlar açılıb. İndi Qızılağac parkı müxtəlif ekoloji tədbirlərin ünvanına çevrilib. Qarşıdakı "Flaminqo festivalı" isə milli parkın 5 illiyinə həsr olunub. Bu təbiət bayramı əsrarəngiz Cənub təbiəti barədə yeni ekoloji təsəvvür və xoş təəssüratla yadda qalacaq.

***Bəxtiyar HÜSEYNOV,***
***Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü, yazıçı-ekoloq***

# Afrikada "qırmızı vərəqə" alan Fransa niyə Cənubi Qafqaza can atır?!

## Ölkəsinə umac ova bilməyən Makron ermənilərə makaron kəsir



**Fransa Prezidenti Emmanuel Makronun və onun komandasının son vaxtlar Afrikadan tutmuş Cənubi Qafqaza qədər böyük bir coğrafi məkanda baş verən gərgin hadisələrlə bağlı səsləndirdiyi səhv, yanlış açıqlama və bəyanatlar, atdığı yersiz və uğursuz addımlar bu ölkəni beynəlxalq arenada nüfuzdan salır.**

Məlumdur ki, hər bir ölkədə seçkilər cəmiyyətdə siyasi qüvvələr nisbətini müəyyən edir. Bu günlərdə Fransa senatına keçirilən ara seçkilərində ən çox diqqətçəkən məqam ultrasağçıların yenidən parlamentə qayıdışı olub. Bu, o deməkdir ki, Fransa cəmiyyəti radikallaşır.

Belə ki, ölkənin 45 seçki dairəsində 170 yeni senator seçilib. Seçkilərdə ultrasağçıların daha üç nümayəndəsi qalib gəlib. Ölkə mediası bunu "Millətçilərin Senata qayıdışı" adlandırıb. Makronçular isə bu dəfə də çox az mandatla kifayətlənməli olublar.

Prezident Makronun isə indi ən böyük "başağrısı" təkcə seçkilərin uğursuz nəticələri deyil. Dövlət başçısını son günlər ən çox əndişələndirən Fransanın dünyanın bir çox ölkələrində, xüsusilə Parisin təsir dairəsinin ənənəvi olaraq güclü olduğu Afrikada, yumşaq desək, hörmətdən düşməsidir.

Əslində, Fransa "Qara qitə"də siyasi iflasla üzləşib. Fakt budur ki, bu ölkənin Afrikadakı bütün keçmiş müstəmləkələrində Parisə qarşı narazılıq kəskin artıb.

Səbəb bəllidir. Fransanın nəzarətində olan dövlətlərdə korrupsiya baş alıb gedir, əhalinin maddi durumu kəskin pisləşir.

Nigerdə qiyamçıların Parisin "sadiq adamı" olan dövlət başçısını həbs etməsi, Parisdən isə bütün hərbi bazalarını təcili bağlamağı tələb etməsi Makronun komandasını çaşbaş salıb. Parisin bu tələbi yerinə yetirməkdən savayı başqa əlacı yoxdur.

Qeyd edək ki, Makron "TF1" və "France 2" telekanallarına müsahibəsində bildirib ki, Fransa ilin sonuna qədər bu Afrika ölkəsindən ordusunu çıxarmaq niyyətindədir. Bununla bərabər, dövlət başçısı Parisin "terrorizmlə mübarizədə qitəyə kömək etməyə davam edəcəyini" vəd edib. İndiki məqamda Parisin hər hansı vədinin quru və mənasız sözdən heç bir fərqi olmadığı çoxlarına bəllidir.

Milli Birlik Partiyasının parlament fraksiyasının rəhbəri, qatı millətçi baxışları ilə seçilən Marin Le Pen "France Inter" radiostansiyasının efirində deyib ki, qoşunların çıxarılması və səfirin Nigerdən geri çağırılması Fransa siyasətinin ağır böhrana düçar olmasını nümayiş etdirir.

Afrikada nüfuzunu və populyarlığını itirən Fransa indi Cənubi Qafqazda "özünü təsdiq etməyə" cəhd göstərir. Azərbaycan dövlətinin özünün hüquqi ərazisində suverenliyini tam təmin etmək üçün Qarabağda başladığı və uğurla həyata keçirdiyi lokal antiterror addımlarına qarşı Parisin sərgilədiyi mövqe sadəcə başadüşülən deyil.

Fəlsəfə doktoru, tanınmış politoloq Mübariz Məmmədli bu barədə dedi ki, ümumiyyətlə, son otuz ildə bu ölkənin bəzi liderləri qatı ermənipərəst mövqe sərgiləyiblər. Fəqət onlardan heç biri qırmızı cizgiləri keçməyib. Amma Makron isə heç bir qırmızı xətt tanımır.

E.Makron, həm də Rusiyanı Cənubi Qafqazdan sıxışdırıb çıxarmaq istəyir. Paris Rusiyanın Ukraynadakı müharibə nəticəsində xeyli zəiflədiyini başa düşür və bundan maksimum yararlanmağa çalışır. Bundan başqa, Fransanın Türkiyə ilə münasibətləri ürəkaçan deyil. Ona görə də rəsmi Paris regionda təkbaşına öz oyununu oynamağa cəhd edir.

E.Makron, eyni zamanda, Qarabağla bağlı qeyri-adekvat bəyanatları ilə həm də ölkəsindəki erməni elektoratının rəğbətini qazanmağa çalışır. Axı Fransada kifayət qədər böyük və güclü erməni diasporu var. Bu ölkədə təxminən 600 min erməni yaşayır və onların seçki prosesinə təsir imkanları var.

Beynəlxalq arenada da Fransanın nüfuzdan düşməsi müşahidə olunur. Bu ölkənin baş diplomatı Ketrin Kolonnanın BMT Baş Assambleyasındakı çıxışı belə qənaətə gəlməyə əsas verir. Həmin iclasda qurum rəsmiləri bir neçə dəfə xanım nazirə üstüörtülü mesaj verdilər ki, beynəlxalq hüquqa hörmət etmək lazımdır.

K.Kolonna Fransa Milli Assambleyasındakı son çıxışında deyib ki, "bizim ölkə qədər heç bir dövlət Ermənistanın arxasında durmayıb. İlin əvvəlindən Fransa ermənilərə 5 milyon avroluq humanitar yardım göndərib. Baş diplomatın təşəbbüsü ilə bu yaxınlarda Ermənistana daha 7 milyon avro humanitar dəstək üçün vəsait ayrılıb.

Fransanın xarici işlər naziri onu da bildirib ki, Fransa ilə Ermənistan arasında hərbi əməkdaşlıq günbəgün güclənir və Parisin İrəvandakı səfirliyində hərbi attaşe ştatı açılıb. Bundan başqa, Fransa Sünikdə, yəni Zəngəzurda konsulluq açmaq niyyətindədir.

Göründüyü kimi, Fransa qaşınmayan yerdən qan çıxarır. Parisin məqsədi heç də erməniləri Azərbaycanın hücumundan qorumaq deyil. Niyyət nəyin bahasına olursa-olsun, Zəngəzur dəhlizinin açılmasına mane olmaqdır. Ermənistan imperialist qüvvələrin məkrli siyasətinin icrası üçün bir vasitədir.

Bəli, Fransa XXI əsrdə də müstəmləkəçilik siyasətindən əl çəkmək istəmir. Fəqət çağdaş dünya və real həyat Parisi digər dövlətlərin suverenliyinə hörmətlə yanaşmağa məcbur edəcək.

"Ermənilərin dostu" bütün beynəlxalq qanun və normaları ayaqlar altına atmağı özünə rəva bilir. Özü də bunu BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan bir dövlət edir. Bundan sonra dünyanın ədalətinə necə inanmaq olar?!

Fransada unudurlar ki, müstəqil Azərbaycan dövləti bu gün çox güclüdür, suveren hüquqlarını qorumağa və müdafiə etməyə qadirdir! 2020-ci ilin payızında Azərbaycanın igid əsgər və zabitləri Ali Baş Komandan İlham Əliyevin liderliyi ilə Qarabağda tarix yazıblar!

Ölkəmizin dostları, eləcə də qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan isə dəfələrlə ən yüksək tribunalardan Parisə və bütün dünyaya bəyan edib ki, Ankara hər zaman Azərbaycanın yanındadır. Qarabağ Azərbaycandır!

***Məsaim ABDULLAYEV***
***XQ***

### Ekspert rəyi



**Atamoğlan MƏMMƏDLİ,**
**BDU-nun professoru,**
**siyasi şərhçi**

– Fransanın Ermənistanı aşkar surətdə himayə etməsi hazırkı iqtidarın təkcə erməni elektoratı və bu ölkədəki kifayət qədər zəngin lobbisinin rəğbətini qazanmaq deyil. Parisin Cənubi Qafqazda riyakar siyasətinin məqsədi regionda təmsil olunaraq siyasi, iqtisadi və hərbi dividentlər qazanmaqdır.

Yelisey sarayı görür ki, Türkiyə Azərbaycanla birlikdə Cənubi Qafqaz kimi strateji coğrafi məkanda söz sahibinə çevrilib. Bir qayda olaraq Ankaranı Avropada özünə rəqib görən Paris faktiki olaraq Türkiyənin strateji maraqlarına zərbə vurmağa çalışır.

Məlum olduğu kimi, Fransa ilə Türkiyənin maraqları əvvəlcə Suriyada, onun ardınca Liviyada və Şərqi Aralıq dənizinin sularında toqquşur. Əslində, Fransanın güclü, qüdrətli Türkiyənin bütövlükdə Avropa qitəsində nüfuzunun artacağı ehtimalından əndişələnir və Ankaranı Avropa İttifaqının kəndarına belə buraxmaq istəmir.

Ermənistan isə son yüz ildən çox müddət ərzində böyük güclərin əlində bir vasitə olub. "Cəfakeş" erməni xalqı və onun qurduğu səbatsız hökumət vaxtilə Çar Rusiyasına yarındığı kimi, son illər isə imperialist Fransasına acizanə xidmətkarlıq nümayiş etdirir.

Ermənistan siyasi isteblişmentinə başa salmaq lazımdır ki, regionda destruktiv siyasət yürüdən böyük güclərin öz milli maraqları var və onlar heç də bu həssas bölgəyə sülh, əmin-amanlıq və tərəqqi gətirmək barədə düşünmürlər.

Bir çox Qərb dövlətlərinin, xüsusilə Fransanın niyyəti Cənubi Qafqazda münaqişəni körükləməklə Zəngəzur dəhlizinin fəaliyyətə başlamasına hər vasitə ilə mane olmaqdır. Çünki bu dəhliz faktiki olaraq quru yolla Böyük Turanın iqtisadi və siyasi inteqrasiyasını sürətləndirə bilər.

Bununla bərabər, qeyd etmək lazımdır ki, iqtisadiyyatın öz qanunları var və iqtisadiyyat hər zaman inkişafın lokomotivi rolunda çıxış edib. Tarixin inkişaf təkərini heç bir qüvvə saxlaya bilməyib. Axı bir də uzun onillər boyu bir-birindən ayrı düşməyə məhkum olmuş türk xalqlarının haqq etdiyi ilahi ədalət var.


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

"Microsoft" proqram təminatı lisenziyalarının satın alınması məqsədilə

## MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il oktyabrın 6-sı saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1132.

Ünvan- Bakı, Mikayıl Useynov küçəsi 2.



## Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutu

### *"Tikinti normalarının ekspertizası və innovasiyalar" şöbəsinə aşagıdakı vəzifələr üzrə vakansiyalar*

## ELAN EDİR

**Baş mütəxəssis – 2 nəfər.**
**Mütəxəssis – 1 nəfər.**

***Baş mütəxəssis vəzifəsinə iddialı namizədə dair tələblər*:**

| | |
|---|---|
| Təhsil: | Şəhərsalma (və ya inşaat) istiqaməti və ya ixtisası üzrə PhD diplomuna malik olmalıdır; |
| İş təcrübəsi: | Şəhərsalma (və ya inşaat) sahəsində 10 ildən, həmçinin uyğun təşkilatlarda layihələndirmə üzrə 3 ildən az olmayan təcürbəyə malik olmalıdır; |
| Dillər: | Azərbaycan, ingilis və rus dilləri bilikləri (sərbəst olmaqla minimum 2 dil); |
| Kompüter bilikləri: | "Microsoft" Office və müxtəlif layihələndirmə kompüter proqramlarından istifadə arzuolunandır; |
| Sertifikat: | Şəhərsalma (və ya inşaat) sahəsində müstəqil kvalifikasiya qiymətləndirilməsindən sertifikata malik olması arzuolunandır. |

***Mütəxəssis vəzifəsinə iddialı namizədə dair tələblər:***

| | |
|---|---|
| Təhsil: | Şəhərsalma (və ya inşaat) istiqaməti və ya ixtisası üzrə respublikada və ya xaricdə magistratura təhsili səviyyəsini bitirməsi; |
| İş təcrübəsi: | Şəhərsalma (və ya inşaat) sahəsində təcürbəyə malik olması və ya elmi-tədqiqat, layihə institut və təşkilatlarında təcrübə keçməsi arzuolunandır; |
| Dillər: | Azərbaycan, ingilis və rus dilləri bilikləri ( sərbəst olmaqla minimum 2 dil); |
| Kompüter bilikləri: | "Microsoft" Office və müxtəlif layihələndirmə kompüter proqramlarından istifadə; |
| Sertifikat: | Şəhərsalma (və ya inşaat) sahəsində yerli və xarici elmi-praktik konfranslarda və "startap" layihələrində, müxtəlif vebinarlarda iştrak, eləcə də kompüter layihələndirmə proqramlarına dair sertifikatlara malik olması arzuolunandır. |

**Əlavə məlumatı Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutuna müraciət etməklə əldə etmək olar.**
**Əlaqə telefonları- 012 596 37 60 (dax. 248,252)**
**+994 50 681 78 72.**
**İnstitutun ünvanı- Bakı şəhəri, Füzuli küçəsi 65.**

***MÜDİRİYYƏT***



## Azərbaycan Respublikasının Təhsil Nazirliyi
## Azərbaycan Milli Konservatoriyası

*boş olan ştatlar üçün müsabiqə elan edir:*

**1. İnstrumental muğam kafedrası üzrə:**
Kafedra müdiri
**2. Dirijorluq kafedrası üzrə:**
Kafedra müdiri
**3. Musiqinin tarixi və nəzəriyyəsi kafedrası üzrə:**
Kafedra müdiri
**4. Milli vokal kafedrası**
Kafedra müdiri
**5. Xalq çalğı alətləri kafedrası üzrə:**
Kafedra müdiri
**6. Muğam (xanəndə):**
Kafedra müdiri
**7. Humanitar fənlər:**
Kafedra müdiri
**8. Populyar musiqi və caz ifaçılığı:**
Kafedra müdiri



## "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 Saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" Publik Hüquqi Şəxsi Zəngilan şəhərində yerləşən yaşayış məhəlləsinin tikintisi işlərinin satın alınması üçün

## AÇIQ TENDER ELAN EDİR

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Səbail rayonu, Maqomayev küçəsi 56 nömrəli ünvanda yerləşən "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti"nin satınalma şöbəsindən əldə edə bilərlər.

Əlaqələndirici şəxs-satınalmalar şöbəsinin baş məsləhətçisi – Zaur İbrahimov.

E-mail: zaur.ibrahimov@shzbti.gov.az

Tel: + 994512078998.

Tenderdə iştirak haqqı 1500,00 ( bir min beş yüz manat) manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Təşkilat - "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" Publik Hüquqi Şəxs

VÖEN- 5200287501
Bank- "KAPİTAL BANK" ASC-nin 28 may filialı
Kod- 200123
VÖEN- 9900003611
M/h- AZ-37NABZ01350100000000001944
H/h- AZ31AIIB380300D9447648156112
S.W.İ.F.T. : AIIBAZ2X

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

-tenderdə iştirak etmək üçün ərizə;

-iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;

-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 45 bank günü ərzində qüvvədə olmalıdır);

-tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);

-tender iştirakçısının tam adı, nizamnaməsi (hüquqi şəxslər üçün) və qeydiyyatdan keçdiyi rekvizitləri;

-malgöndərənin (podratçının) işin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə konkret subpodratçının adı göstərilməklə məlumatlar (əlavə №19);

-malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış; (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

• Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış; (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

-iddiaçının satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (şəxsin səlahiyyətli olması barədə əmr təqdim edilməlidir);

-öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə arayış; (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

-müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə arayış; (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

-satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə arayış; (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

-müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması və onun əsasında həyata keçirilməsinə icazə verilən işlərin siyahısı;

-malgöndərənin (podratçının) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti (vergi orqanının rəsmi blankında və ya elektron sənədin notarial qaydada təsdiq olunmuş surəti təqdim edilməlidir)

-kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları;

-baş podratçı kimi son yeddi il (2016-cı il yanvarın 1-dən 2022-ci il dekabrın 31-dək ) ərzində ümumi məbləği 40 (qırx) milyon manatdan az olmayan, müraciət edənin hissəsi isə ən azı 20 (iyirmi) milyon olan (müraciət edən müqaviləni birgə müəssisənin üzvü kimi icra etmişdirsə) və oxşar işi əhatə edən (oxşarlıq: layihə və texniki spesifikasiyalarda təsvir edilən fiziki ölçüyə, mürəkkəbliyə, metodlara, texnologiyaya və digər xüsusiyyətlərə əsaslanmalıdır) ən azı 2 (iki) sifarişi qənaətbəxş şəkildə icra etməsi haqqında məlumat və istismara icazə aktları təqdim edilməlidir;

-son yeddi il (2016-cı il yanvarın 1-dən 2022-ci il dekabrın 31-dək ) ərzində tikinti- quraşdırma işləri üzrə ən azı 40 (qırx) milyon manat dövriyyə tələb olunur, həmçinin TMV-nin 1.6-cı bəndində tələb olunan digər tələblər.

Qeyd- tenderdə iştirak üçün iki və ya daha artıq tərəfdaş şirkətdən ibarət birgə müəssisə yaratdıqda, TMV-nin 1-ci və 2-ci bəndlərində tələb olunan sənədlər hər bir şirkət üçün ayrılıqda təqdim edilməlidir.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 1 noyabr 2023-cü il saat 16.00-a, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 13 noyabr 2023-cü il saat 16.00-a qədər Bakı şəhəri, Səbail rayonu, Maqomayev küçəsi 56 nömrəli ünvanda yerləşən "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti"nin satınalma şöbəsinə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Tender iştirakçılarının təklifləri Bakı şəhəri, Səbail rayonu, Maqomayev küçəsi 56 nömrəli ünvanda yerləşən "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətində 14 noyabr 2023-cü il saat 16.00-da açılacaqdır.

Tender iştirakçılarının səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

***Tender komissiyası***

Xalq qəzeti

XQ

xalqqazeti.az

№ 210 (30326) 28 sentyabr 2023-cü il, cümə axşamı

Maraq dünyamız

# "Qara dəlik" hara aparır?!

**Kosmos haqqında düşünəndə ulduzlarla bəzədilmiş gözəl, qaranlıq bir məkan təsəvvür edirik. Uşaqlıqda çoxlarımız astronavt olmağı, kosmosa uçmağı arzulamışıq. Bəs kosmosda hər şey bu qədər gözəldirmi?**



Orbitdə bir ay keçirdikdən sonra ayaqların dərisi "düşür". Döyənəkdən qurtulmağın ən etibarlı variantı orbitdə bir ay keçirməkdir.

Bir gün nəhəng qara dəlik kainatı udacaq. Qara dəlik kosmosda saatda 3 milyon mil sürətlə uçur, çəkisi Günəşdən milyonlarla dəfə çoxdur. Dörd milyard işıq ili uzaqlıqdakı qalaktikalar arasında səyahət edir.

Uzaq gələcəkdə heç bir ulduz qalmayacaq. Ola bilsin ki, o anda Yer planeti öz mövcudluğunu dayandırmış olacaq. Ulduzların yerində Maleviçin qara kvadratı qalacaq və başqa heç nə olmayacaq.

**P.ƏFƏNDİ**

İdman xəbərləri

# Paracüdoçumuz bürünc medal qazanıb

**Azərbaycan paracüdoçusu Şəhanə Hacıyeva Bakıda keçirilən IBSA Qran-Prisində uğurla çıxış edib.**




İdmançımız 48 kiloqram çəki dərəcəsində bürünc medal qazanıb.

Qeyd edək ki, Milli Gimnastika Arenasında təşkil olunan yarışa sentyabrın 27-də yekun vurulacaq.

# Kiberidmançımız Avropa çempionu olub

**Azərbaycan kiberidmançısı Həmid Mustafayev "Viennality 2k23" birinciliyində qalib olub.**



Avstriyanın paytaxtı Vyanada "Mortal Kombat 1" oyunu üzrə keçirilmiş yarışın final mərhələsində "MK_Azerbaijan" təxəllüsü ilə çıxış edən H. Mustafayev böyük britaniyalı rəqibi Aaron Deyvisi məğlub edərək ikinci dəfə Avropa çempionu adını qazanıb.

"Cyber Athletics Azerbaijan" komandasının üzvü olan Həmid Mustafayevin qələbəsini həm canlı, həm də internet vasitəsilə izləyənlərin sayı yüz minə yaxın olub.

# AFFA klubları cəzalandırıb

**Premyer Liqanın VII turunda keçirilən oyunlarda qeydə alınan neqativ hallara görə AFFA İntizam Komitəsi klubları cəzalandırıb.**

"Sumqayıt"ın məşqçisi Mübariz Orucov "Turan Tovuz"la görüşün 90+3-cü dəqiqəsində meydana daxil olaraq hakimin qərarına etiraz etdiyinə görə birbaşa qırmızı vərəqə alıb, 1-ci şərti olmaqla 2 oyunluq cəzalandırılıb. Klubu 1500 manat cərimə ödəyəcək. Mütəxəssis isə 3 ay sınaqda olacaq.

4 futbolçusu "Sabah"la səfər qarşılaşmasında sarı vərəqə alan "Kəpəz" 700 manat cərimələnib. "Sabah" isə Təcili Tibbi Yardım avtomobilinin görüşə təyin olunan vaxtdan gec gəldiyinə görə 1000 manat cərimə ödəyəcək.




"Səbail" də 800 manat cərimə verməli olacaq. Buna komandanın "Araz-Naxçıvan"la oyunu başa çatdıqdan sonra meydana kənar şəxsin girməsi səbəb olub.

**Leyla SABİRQIZI**
**XQ**

Mədəniyyət



# Türk sənətçinin Qarabağ sevgisi

**Mahnıları ilə qəlblərə yol tapan türkiyəli sənətçi Fərhad Köçər Bakıda konsert proqramı ilə çıxış edib. "Anadolu events"in təşkilatçılığı ilə baş tutan musiqili gecəyə Heydər Əliyev Sarayı evsahibliyi edib.**

İki saat davam edən musiqili proqramda o, bir-birindən çox sevilən mahnılarını ifa edərək pərəstişkarlarına xoş anlar yaşadıb. Çıxışdan əvvəl jurnalistlərin suallarını cavablandıran ifaçı son zamanlarda Qarabağda baş verən hadisələrdən təsirləndiyini bildirib və şəhid ailələrinə başsağlığı verib.

**F. SALMAN**
**XQ**

# Musiqi də silahdır

**Ukraynalı müğənni və bəstəkar, 2004-cü il "Eurovision" müsabiqəsinin çempionu Ruslana Ukrayna sənətçilərinin ölkəsinin Rusiya ilə müharibəsində möhkəm dayandıqlarını və musiqinin müharibədə "silah" rolu oynadığını bildirib.**



Ruslana türk xalqına və Qara dənizdəki qardaş ölkələrə dəstəyə görə təşəkkür edib. Ukraynalıların əhval-ruhiyyəsini yüksəltmək məqsədi daşıyan yeni mahnısının və klipinin təqdimatını paylaşan Ruslana deyib: "Ukrayna xalqı hazırda simfonik orkestrə bənzəyir. Onlar yalnız dirijordan göstəriş gözləyirlər və bu dirijor onların ürəyidir. Musiqi müharibədə silaha çevrilib. Konsertlər təhlükəsizlik baxımından qadağan edilsə də, humanitar səbəblərdən təşkil olunan bəzi konsertlərdə iştirak etmişəm". Ruslana bu konsertlərdən birinin metronun yeraltı stansiyasında keçirildiyini qeyd edib.

Sənətçi olaraq dünyaya güclü mesaj verməli olduğunu yeni mahnısı və klipi ilə "ürəyinizi bağlamayın" demək istədiyini bildirən Ruslana mənim üçün əsl önəmli olan azadlıqdır, – deyib.

Ruslana Ukraynanın mübarizəsini Türkiyənin Qurtuluş Savaşı ilə müqayisə edərək 100 il əvvəl türk xalqı qələbə qazandığı kimi, Ukraynanın da bu müharibədə qalib gəlmək istədiyini bildirib.

**AYTƏN**
**XQ**

Kosmos

# Ən soyuq ulduz

**13,7 milyard il əvvəl Böyük Partlayış baş verib. Nəticədə kainatımız yaranıb. İçində olduğumuz və müşahidə etdiyimiz Kainat sürətlə genişlənir. Bununla belə, biz bilirik ki, kosmosun sərhədləri yoxdur və Kainatımızın hüdudlarından kənarda olanlar sirr olaraq qalır.**



Yer üçün ən təhlükəli asteroid "2004 VD17"-dir. Planetimizin məşhur "Apofis" asteroidindən daha çox təhdid edir. Uzunluna dartılmış orbiti ilə Venera və Marsın orbitlərini kəsir. Bu planetlər onun hərəkətini Yerə doğru dəyişə bilər.

Beynəlxalq Kosmik Stansiyadan kənarda gündüz temperatur 4 dərəcə Selsiyə çatır. Ancaq Yerin kölgəsində temperatur mənfi 160 ° C-ə düşür.

Alimlər Kainatın ən soyuq ulduzunu kəşf ediblər. Bu, " WISE 1828+2650" qəhvəyi rəngli cırtdan ulduzdur. Ulduzun səthindəki temperatur +25 dərəcə Selsidir. O, bizdən 47 işıq ili uzaqlıqda, Lira bürcündə yerləşir.

**PÜNHAN**
**XQ**

Texnologiya yenilikləri




# "Whatsapp"da şəxsi kanallar olacaq

***Yaxın günlərdə "Whatsapp" vasitəsi ilə şəxsi kanal açmaq mümkün olacaq. Bu barədə "Meta" şirkəti məlumat yayıb. Bildirilir ki, kanalyaratma xüsusiyyəti çox yaxında hər kəs üçün əlçatan olacaq.***

Qeyd edək ki, bir çox insanın səbirsizliklə gözlədiyi bu yeniliklə bağlı konkret tarix isə hələ açıqlanmayıb.

**F. SALMANLI**
**XQ**

✓ *Bakı Texniki Kolleci tərəfindən Natiq Rafiq oğlu Ağarzayevin adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.*

Sağlamlıq

# Moruq çox dərdlərin dərmanıdır

**Son elmi araşdırmalar moruğun müxtəlif orqan və sistemlər üçün olan faydalarını növbəti dəfə təsdiqləyib. Moruğun tərkibində olan və ona spesifik, xoş qoxu verən maddə – "moruq ketonu" qaraciyər üçün faydalıdır, piylərin parçalanmasını, saçların uzanmasını sürətləndirir, dərini cavanlaşdırır.**



Moruq ketonu qaraciyərin böyüməsinin qarşısını alır, qanda şəkərin səviyyəsini və qanaxma riskini azaldır. Həmçinin moruq ürəyin sağlamlığı və normal fəaliyyəti üçün vacib olan kaliumla zəngindir. Tərkibindəki bol C vitamini damarların elastikliyini qoruyur, onları möhkəmləndirir, trombların əmələgəlmə riskini azaldır. Giləmeyvənin tərkibində mis, dəmir, fol turşusu çox olduğundan qanazlığından əziyyət çəkənlərə kömək edir. Antosian maddələri ilə zəngin olan moruq görmə üçün də faydalıdır.

**Z.HÜSEYNLİ**
**XQ**



# Gədəbəyə də qar yağıb

**Dünən günortadan başlayaraq Gədəbəy rayonunun mərkəzinə və dağ kəndlərinə qar yağıb. Bütün gün ərzində qərb bölgəsində qeyri-sabit hava şəraiti davam edib.**

Yeri gəlmişkən, Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 17-21° isti, gündüz 22-27° isti olacaq.

**Q.QASIMOV**
**XQ**

Hadisə

# Timsah itə toxunmadı

**Hindistanda vəhşi it sürüsünün təqib etdiyi köməksiz it Savitri çayına tullanaraq suda 3 timsahın arasına düşüb.**



Hadisə zamanı sürünənlər itə qarşı mərhəmət nümayiş etdiriblər. Yırtıcılar ona toxunmayıblar, əksinə, sahilə itələyərək həyatını xilas ediblər.

Elm adamları bu hadisəni "növlərarası mərhəmət"in parlaq nümunəsi adlandırıblar.

**S. FİDAN**
**XQ**

## ALLAH RƏHMƏT ELƏSİN

Dövlət İmtahan Mərkəzinin rəhbərliyi və kollektivi mərkəzin əməkdaşı Samir Nəbiyevə əzizi, Vətən uğrunda aparılan antiterror tədbirlərində qəhrəmancasına şəhadətə qovuşmuş

**YUSİF ƏLƏSGƏR OĞLU ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

| | |
|---|---|
| İNDEKS | 0282 |
| TİRAJ | 5027 |
| SİFARİŞ | 2495 |
| QİYMƏTİ | 40 qəpik |

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır
00:00